

**Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**
Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti — 31 mart 2026-cı il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

**BDU ilə Pekin Kimya Texnologiyaları Universiteti arasında anlaşma memorandumu imzalanıb** →Səh.2

**BDU Çinin Tianjin Universiteti ilə əməkdaşlığa başlayır** →Səh.3

**Böyük Britaniyanın Koventri Universitetinin Qazaxıstan filialının prezidenti BDU-da** →Səh.2

**BDU-da Birinci Türkoloji Qurultayın simulyasiya konfransı keçirilib** →Səh.3

**Bakı Dövlət Universitetində Azərbaycan–Koreya Kompüter Elmləri Mərkəzinin açılışı olub** →Səh.5

**Xarici işlər nazirinin müavini Yalçın Rəfiyev BDU tələbələri ilə görüşüb** →Səh.5

**27 Mart - Azərbaycanda “Elm günü”dür** →Səh.6

**BDU-da “Danışır təcrübə” layihəsinin ilk görüşü** →Səh.15



**Meksikanın Azərbaycandakı səfiri BDU-da** →Səh.2



**BDU-da Beynəlxalq Qazax Dili Akademiyasının və Beynəlxalq Türkologiya Mərkəzinin prezidenti ilə görüş** →Səh.2



**BDU ilə XİN arasında əməkdaşlıq yeni mərhələyə qədəm qoyur** →Səh.3



**BDU-da Azərbaycanlıların Soyqırımı Günü qeyd olunub** →Səh.4

**BDU-da “Web of Science” platformasından effektiv istifadəyə dair təlim keçirilib** →Səh.4




# BDU-da Novruz bayramı qeyd olunub

***Martın 19-da BDU-da Novruz bayramı münasibətilə tədbir keçirilib.***

Mərasimdə çıxış edən BDU rektoru Elçin Babayev Universitet əməkdaşlarını təbrik edib, onlara uğurlar arzulayıb. Rektor bildirib ki, Novruz əsrlər boyu milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi və birlik ruhumuzu yaşadan müqəddəs bir bayramdır. Bu bayram təbiətin oyanışını, həyatın yenidən canlanmasını, ümidin və yeniliyin başlanğıcını simvolizə edir. Novruz yalnız mövsüm dəyişikliyi deyil, həm də insanların mənəvi cəhətdən yenilənməsi, saflaşması və gələcəyə daha böyük inamla baxmasının rəmzidir. Bu gün Azərbaycan dövləti öz milli dəyərlərinə sadiq qalaraq dinamik inkişaf yolu ilə irəliləyir, beynəlxalq aləmdə mövqeyini daha da gücləndirir: “Belə bir inkişaf mərhələsində Novruz bayramı bizim üçün yalnız ənənə deyil, həm də milli kimliyimizin qorunması, zəngin mədəni irsimizin yaşadılması və gələcək nəsillərə ötürülməsi baxımından xüsusi əhəmiyyət daşıyır. 2026-cı ilin ölkəmizdə “Şəhərsalma və Memarlıq İli” elan olunması da yenilənmə, quruculuq və davamlı inkişaf ideyalarının təntənəsidir. Tarix boyu Azərbaycan xalqının görkəmli ziyalıları, alimləri və mütəfəkkirləri Novruz bayramına xüsusi ehtiramla yanaşıb, onun fəlsəfi və mənəvi dərinliyini yüksək qiymətləndiriblər. Bu bayramın rəsmi status alması müstəqil dövlətimizin mühüm nailiyyətlərindən biridir. Multikultural dəyərlərin və tolerantlıq ənənələrinin güclü olduğu ölkəmizdə Novruz bayramı müxtəlif mədəniyyətlərin harmoniyasını və ümumbəşəri dəyərlərin vəhdətini əks etdirir. Novruz adət-ənənələrində xalqımızın müdrikliyi, humanizmi və yüksək əxlaqi keyfiyyətləri aydın şəkildə öz əksini tapır. Bu bayram insanları bir araya gətirir, ailə və cəmiyyət bağlarını möhkəmləndirir, qarşılıqlı hörmət və etimadı gücləndirir”.

Rektor diqqətə çatdırıb ki, artıq xalqımız Novruz bayramını daha böyük qürur və sevinc hissi ilə qeyd edir: “Artıq bir neçə ildir ki, işğaldan azad olunmuş torpaqlarımızda Novruz tonqalları alovlanır, doğma yurd yerlərimizdə bayram şənlikləri keçirilir. Bu, xalqımızın tarixi qələbəsinin, milli birliyinin və sarsılmaz iradəsinin parlaq təzahürüdür. Qarabağdan ucalan Novruz tonqalları bu gün həm də dirçəlişin, yenidənqurmanın və parlaq gələcəyimizin rəmzinə çevrilib”.

Koreya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Kang Kymgu Azərbaycanın ən gözəl bayramlarından birini BDU tələbələri ilə qeyd etməkdən sevinc duyduğunu bildirib. Səfir qeyd edib ki, Novruz Azərbaycan mədəniyyətini, ənənələrini təmsil edən bir bayramdır: “Bu dövrdə dünya çox sürətlə dəyişir. Dəyişən dünyada belə ənənələri yaşadan gəncləri görmək çox xoşdur. Bu, sizin qəlbinizdə azərbaycançılıq hisslərini daha da gücləndirəcək. Azərbaycanda həm müxtəliflik hökm sürür, həm də ənənələrə güclü bağlılıq var. Bu baxımdan Azərbaycanla Koreya oxşardırlar. Sizə Azərbaycan-Koreya əlaqələrini daha da inkişaf etdirməyi, sağlam, xoşbəxt olmağı, ölkənizin inkişafına töhfə verməyinizi arzulayıram”. Filologiya fakültəsinin dosenti Kəmalə İslamzadə çıxışında Novruzun tarixi, adət-ənənələri, türk xalqlarının etnoqrafiyasında, mifik dünyagörüşündə yeri haqqında geniş məlumat verib, bu bayramın milli-mənəvi dəyərlər sistemimizdə özünəməxsus rola malik olduğunu qeyd edib.

Sonda BDU-nun Mədəniyyət-Yaradıcılıq Mərkəzinin hazırladığı bədii kompozisiya nümayiş olunub.

## “QS World University Rankings by Subject 2026” nəticələrinə görə BDU Azərbaycanı ən çox ixtisasla təmsil edir

→Səh.3

# Meksikanın Azərbaycandakı səfiri BDU-da

*Martın 2-də Meksikanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri xanım Mariya Viktoriya Romero Kabalyero BDU-da olub.*



Qonağı salamlayan rektor Elçin Babayev BDU-nun tarixi, elmi və tədris mühiti, beynəlxalq əlaqələri barədə məlumat verib. BDU-nun Meksikanın nüfuzlu ali təhsil müəssisələri ilə akademik əlaqələrin inkişaf etdirilməsi, davamlı əməkdaşlığın qurulması, memorandumların imzalanması, ikili diplom proqramlarının hazırlanmasında maraqlı olduğunu qeyd edib. Xüsusilə nəzəri riyaziyyat, nəzəri fizika istiqamətlərində tədqiqat imkanlarının yüksək olduğunu bildirib.

Səfir Mariya Viktoriya Romero Kabalyero elm, təhsil sahəsində əlaqələrin xalqların yaxınlaşmasında əsas vasitələrdən olduğunu diqqətə çatdırıb. Bu kontekstdə BDU ilə Meksika universitetlərinin əməkdaşlığının xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Görüşdə BDU ilə Meksikanın nüfuzlu universitetlərinin əməkdaşlığının genişləndirilməsi, memorandumların imzalanması, ikili diplom proqramlarının, tələbə-müəllim mübadiləsinin təşkili ilə bağlı müzakirələr aparılıb, ortaq layihələrin həyata keçirilməsinə dair təkliflər irəli sürülüb.

Daha sonra səfir BDU-nun Heydər Əliyev muzeyi, Heydər Əliyev lektoriyası, Faydalı qazıntılar muzeyi, Elmi Kitabxanası ilə tanış olub.

# BDU ilə Pekin Kimya Texnologiyaları Universiteti arasında anlaşma memorandumu imzalanıb

*Martın 2-də BDU ilə Pekin Kimya Texnologiyaları Universiteti arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.*

Sənədi BDU-nun rektoru Elçin Babayev və Pekin Kimya Texnologiyaları Universitetinin prezidenti Tan Tianvei imzalayıblar.

Memorandumda hər iki universitetin nəzdində fəaliyyət göstərən fakültə, institut və kolleclərdə təlim-tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə layihələrin, konfransların, sərgilərin, seminar və simpoziumların, qısamüddətli kurs və təlimlərin təşkili, ortaq elmi-tədqiqatların aparılması nəzərdə tutulur. Sənəddə elmi jurnallarda birgə nəşrlər, ortaq akademik proqramların, tədris planları və sillabusların hazırlanması, akademik və inzibati heyətin, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsi kimi məsələlər də öz əksini tapıb.

Qeyd edək ki, əsası 1958-ci ildə qoyulmuş Pekin Kimya Texnologiyaları Universiteti Çinin nüfuzlu ali təhsil müəssisələrindən biridir və 2026-cı il üzrə “QS Dünya Universitetləri Reytinqi”ndə 697-ci pillədə qərarlaşıb.

# BDU Çinin Tianjin Universiteti ilə əməkdaşlığa başlayır

*Martın 5-də BDU və Çin Xalq Respublikasının (ÇXR) Tianjin Universiteti arasında anlaşma memorandumu imzalanıb.*

Sənədi BDU-nun rektoru Elçin Babayev və Tianjin Universitetinin prezidenti Liyuan Chai imzalayıb.

Memorandumda hər iki universitetin nəzdində olan fakültə, institut və kolleclərdə təlim-tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə layihələrin, konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kursların, təlimlərin keçirilməsi, ortaq elmi-tədqiqatların aparılması nəzərdə tutulur. Həmçinin elmi jurnallarda birgə nəşrlər, ortaq akademik proqramların, tədris planlarının və sillabusların hazırlanması, təlimlərin keçirilməsi, akademik, inzibati heyətin, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsi kimi məsələlər də memorandumda öz əksini tapıb.

Əsası 1895-ci ildə qoyulmuş Tianjin Universiteti ÇXR-in nüfuzlu universitetlərindən biridir. Tianjin Universiteti QS reytinqində 2026-cı il üzrə 257-ci, Asiya universitetləri reytinqində 51-ci, “Times Higher Education” (THE) reytinqində isə 201-250-ci pillələrdə qərarlaşır.

# Böyük Britaniyanın Koventri Universitetinin Qazaxıstan filialının prezidenti BDU-da

*Martın 12-də Böyük Britaniyanın Koventri Universitetinin Qazaxıstan filialının prezidenti Miras Daulenov BDU-da olub.*

Rektor Elçin Babayev ölkələrimiz arasında yüksək səviyyəli əlaqələrin elm və təhsil sahəsində müxtəlif istiqamətlər üzrə əlverişli əməkdaşlıq imkanları yaratdığını bildirib.

Görüşdə tərəflər elmi-tədqiqat və innovasiya əlaqələrinin gücləndirilməsi, qarşılıqlı akademik mübadilənin genişləndirilməsi, birgə magistr və doktorantura proqramlarının inkişafı kimi prioritet istiqamətlər ətrafında fikir mübadiləsi aparıblar. Görüşdə həmçinin dəqiq elmlər üzrə əməkdaşlıq imkanları, süni intellekt, rəqəmsal transformasiya sahələrində ortaq elmi layihələrin həyata keçirilməsi, habelə yeni nəsil tədqiqat laboratoriyalarının yaradılması təşəbbüsləri də müzakirə olunub.

# BDU-da sosial-emosional öyrənmənin təhsil prosesinə inteqrasiyası tədqiq olunur

*Martın 19-da Sosial elmlər və psixologiya fakültəsinin təşkilatçılığı ilə 27 mart – Azərbaycan Respublikasında “Elm günü”nə həsr olunmuş növbəti elmi seminar keçirilib.*

Seminarda BDU-nun Gender və tətbiqi psixologiya kafedrasının dosenti Elmina Kazımzadə “Sosial-emosional bacarıqlar və məktəb liderliyi” mövzusunda mühazirə deyib. Mühazirə zamanı təhsil psixologiyasının müasir yanaşmaları, öyrənmə prosesində sosial-emosional bacarıqların rolu və məktəb mühitində liderliyin formalaşdırılması məsələləri geniş izah olunub. Elmina Kazımzadə çıxışında müasir təhsil sistemində “nə” sualından “necə” sualına keçidin baş verdiyini vurğulayıb. Bildirib ki, bu yanaşma öyrənmənin daha effektiv təşkili, şagirdlərin potensialının üzə çıxarılması və inklüziv təhsil mühitinin formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Seminar çərçivəsində, həmçinin, sosial-emosional öyrənmənin təhsil prosesinə inteqrasiyası, pozitiv psixologiyanın bu sahədəki rolu ilə bağlı fikir mübadiləsi aparılıb.

# BDU-da Beynəlxalq Qazax Dili Akademiyasının və Beynəlxalq Türkologiya Mərkəzinin prezidenti ilə görüş



*Martın 2-də BDU-nun rektoru Elçin Babayev Beynəlxalq Qazax Dili Akademiyasının və Beynəlxalq Türkologiya Mərkəzinin prezidenti, Qazaxıstan Milli Elmlər Akademiyasının və Qazaxıstan Sosial Elmlər Akademiyasının akademiki, filoloq alim Erden Zadauli Kajıbek ilə görüşüb.*

Görüşdə Birinci Türkoloji Qurultayın 100 illiyinin keçirilməsinin türk dövlətlərinin ortaq dəyərlər ətrafında birləşməsi və bunlara elmi aspektdən yanaşmanın yeni modelinin müəyyən edilməsi baxımından vacibliyi vurğulanıb.

Görüşdə BDU ilə Beynəlxalq Qazax Dili Akademiyasının və Beynəlxalq Türkologiya Mərkəzi arasında türkologiya istiqamətində əməkdaşlıq imkanları müzakirə olunub, elm və təhsil sahəsində birgə layihələrin ölkələrimizin və xalqlarımızın inkişafına töhfə verəcəyi vurğulanıb.

# BDU-nun 10 tələbəsinə “Həmkarlar İttifaqı təqaüdü” verilib



*Martın 4-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) üzv təşkilatı Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi (ETİHİ RK) tərəfindən təhsildə və tələbə həmkarlar ittifaqı hərəkatında fəal iştirak edən 250 tələbəyə “Həmkarlar İttifaqı təqaüdü” təqdim edilib.*

Onların arasında BDU-nun 10 tələbəsi – Nurlan Cəbrayılzadə, Etibar Tərlanov, Nicat Ağayev, Əfsanə Yusifova, Toğrul Mehdiyev, Kübra Məmmədova, İlayda Abusətdar, Əminə Əliyeva, Türkan Həsənli, Əminə Cəfərova da var.

ETİHİ RK-nin “Həmkarlar İttifaqı təqaüdü” layihəsi 1995-ci ildən həyata keçirilir. Ümumilikdə 2024-2025-ci illər ərzində 658 tələbəyə “Həmkarlar İttifaqı təqaüdü” verilib.



# BDU-da Birinci Türkoloji Qurultayın simulyasiya konfransı keçirilib

***Martın 2-də BDU-nun "BDU könüllüləri" təşkilatının təşəbbüsü ilə Birinci Türkoloji Qurultayın 100 illik yubileyinə həsr olunmuş simulyasiya konfransı keçirilib.***




BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev Birinci Türkoloji Qurultayın keçirilməsinin Türk dünyasının elmi və mədəni inteqrasiyası baxımından mühüm hadisə olduğunu qeyd edib. Bu təşəbbüsün türk dili, ədəbiyyatı, ortaq mədəni dəyərlərinin qorunması və təbliği istiqamətində xüsusi rol oynadığını deyib: "Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə bu il Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin ölkə miqyasında keçirilməsi və gənclərin bu prosesdə fəal iştirakı çox vacibdir. Çünki 100 il əvvəl həmin qurultayda qarşıya qoyulan məqsədlər bu gün də aktualdır. Onların müasir tələblərə uyğunlaşdırılması, türk dünyasının birliyi üçün icrasının təmini gənclərin əlindədir. İnanıram ki, simulyasiya konfransının təşəbbüskarı olan gənclər öz araşdırmaları ilə Türk dünyasının birliyinə töhfə verəcəklər".

BDU-nun Ümumi dilçilik kafedrasının müdiri, akademik Nizami Cəfərov I Türkoloji Qurultayda iştirak edən ictimai xadimlər, qurultayın çağırılması, müzakirə olunan məsələlər, ortaq əlifba məsələsi, ərəb və latın qrafikalarının müqayisəsindən danışıb. Bildirib ki, yüz il əvvəlki məsələlər müasir şəraitdə uğurla gerçəkləşdirilir.

"BDU könüllüləri" təşkilatının baş katibi Qasım Xəlilov simulyasiya konfransının qaydalarını iştirakçıların diqqətinə çatdırıb və tələbələrin suallarını cavablandırıb.

Simulyasiyanın ilk sessiyasında iştirakçılara çıxış üçün müəyyən vaxt verilib. Hər bir çıxışçı öz mövqeyini ifadə edib. Konfransın davamında moderatorsuz sessiya keçirilib, ardınca ortaq sənəd qəbul edilib.

Konfransın sonunda fərqlənən gənclər təşəkkürnamə ilə təltif olunublar. Qeyd edək ki, simulyasiya konfransında 20-yə yaxın könüllü təşkilatının üzvü, 10-dan çox universitetdən tələbələr iştirak ediblər.

# BDU ilə XİN arasında əməkdaşlıq yeni mərhələyə qədəm qoyur

***Martın 18-də Xarici işlər nazirinin müavini Yalçın Rəfiyevin rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da olub.***



BDU və XİN nümayəndə heyətləri arasında keçirilən görüşdə əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində müzakirələr aparılıb.

Görüşdə diplomatik xidmətin kadr ehtiyacının təmin olunmasında Şərqşünaslıq, Beynəlxalq münasibətlər və iqtisadiyyat, Hüquq fakültələrinin məzunlarının mühüm rola malik olduqları vurğulanıb. Azərbaycanın 80-ə yaxın ölkədə diplomatik nümayəndəliyinin fəaliyyət göstərdiyi, bir sıra ölkələrdə yeni səfirliklərin fəaliyyətə başladığı və yeni səfirlərin təyin olunduğu diqqətə çatdırılıb. Xüsusilə Şərq ölkələri, Afrika dövlətlərində diplomatik xidmətin təşkili prosesi üçün kadrların hazırlanması istiqamətində birgə əməkdaşlıq imkanları nəzərdən keçirilib, Şərqşünaslıq fakültəsinin bu prosesə mühüm töhfə verə biləcəyi vurğulanıb. Qeyd olunub ki, Azərbaycanın bir neçə ölkədəki səfirləri məhz Şərqşünaslıq fakültəsinin məzunlarıdır.

Görüşdə BDU-nun tələbə və məzunları üçün XİN sistemində, "Diplomatiya könüllüləri" qrupunda, Qoşulmama Hərəkatı Gənclər Təşkilatında təcrübə imkanları da müzakirə olunub. İki qurum arasında müxtəlif istiqamətlərdə əməkdaşlığın daha da genişlənməsi üçün Fəaliyyət Planının hazırlanması qərara alınıb.

# BDU-da V "Tusi" inkubasiya proqramı haqqında infosessiya

***BDU-da Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İnnovasiyalar Mərkəzinin "Gələcək üçün bacarıqlar" layihəsi çərçivəsində həyata keçirdiyi V "Tusi" inkubasiya proqramı ilə bağlı infosessiya təşkil olunub.***

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov belə layihələrin gənclərin karyera inkişafında önəmli rol oynadığını bildirib. O, BDU-nun "ASAN xidmət" və İnnovasiyalar Mərkəzi ilə uğurlu əməkdaşlıq əlaqələrindən bəhs edib, tələbələri inkubasiya proqramlarına qoşulmağa dəvət edib. İnnovasiyalar Mərkəzinin Layihələrinin idarə olunması departamentinin müdir müavini Ziniddin Babayev və Mərkəzin layihə meneceri Nərmin Kərimova V "Tusi" inkubasiya proqramının istiqamətləri, qaydaları haqqında ətraflı məlumat verib. Bildirilib ki, İnnovasiyalar Mərkəzi tərəfindən həyata keçirilən "Gələcək üçün bacarıqlar" layihəsinin məqsədi innovasiya sahəsində kadr potensialının artırılması, təhsildə innovasiya fəaliyyətinin dəstəklənməsi, təhsil prosesində tələbələrə innovativ ideyalarını inkişaf etdirmək üçün dəstək göstərilməsi və onların ölkəmizin texnoloji inkişafında önəmli rol oynayan ixtira sahələrinə yönləndirilməsidir. V "Tusi" inkubasiya proqramı tələbələrə peşəkar dəstək, təlimlər və geniş mentor şəbəkəsi təqdim edir.

BDU-nun Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinin direktoru İlyas Nəsibov "Gələcək üçün bacarıqlar" layihəsinin əhəmiyyətini vurğulayıb, Universitetdə tələbələrin startap layihələrinin dəstəklənməsi istiqamətində görülən işlərdən danışıb.

Daha sonra proqram haqqında videoçarx təqdim edilib, tələbələrin sualları cavablandırılıb.

# "QS World University Rankings by Subject 2026" nəticələrinə görə BDU Azərbaycanı ən çox ixtisasla təmsil edir

*Reytinq nəticələrinə əsasən, ilk dəfə olaraq Bakı Dövlət Universitetinin 1 ixtisası qlobal miqyasda TOP 100-lükdə, 7 ixtisası TOP 500-lükdə yer alıb ki, bu da ötən illə müqayisədə 7 dəfə artım deməkdir.*

***Martın 25-də Dünyanın nüfuzlu reytinq təşkilatı "Quacquarelli Symonds" (QS) tərəfindən "QS World University Rankings by Subject 2026" nəticələri elan olunub. Nəticələrə əsasən, BDU böyük uğura imza ataraq cari ildə ilk dəfə olaraq 2 geniş ixtisas kateqoriyası üzrə reytinq siyahısında yer alıb.***

Bununla yanaşı, Universitet 8 dar ixtisas sahəsi üzrə reytinqə daxil olub. Bu nəticə dar ixtisas sahələri üzrə göstəricilərə əsasən ötən illə müqayisədə 4 dəfə artım deməkdir. Bu göstəricilərlə BDU Azərbaycanı ən çox ixtisas sahəsi üzrə təmsil edən ali təhsil müəssisəsi olub.

Qeyd olunmalıdır ki, QS tərəfindən açıqlanan "QS World University Rankings by Subject 2026" nəticələrinə əsasən, BDU geniş ixtisas kateqoriyaları üzrə Təbiət elmləri ("Natural Sciences") sahəsində 401–500, Mühəndislik və texnologiya ("Engineering and Technology") sahəsində isə 501–550-ci diapazonda qərarlaşıb. Bununla yanaşı, dar ixtisas sahələri üzrə BDU Neft-qaz mühəndisliyi ("Petroleum Engineering") sahəsində 51–100-cü, Müasir dillər ("Modern Languages") üzrə 151–200-cü, Riyaziyyat ("Mathematics") üzrə 251–300-cü, Hüquq ("Law") üzrə 301–350-ci, Kimya mühəndisliyi ("Chemical Engineering") üzrə 401–450-ci, Fizika və astronomiya ("Physics and Astronomy") üzrə 401–450-ci, Kimya ("Chemistry") üzrə 451–500-cü, Kompüter elmləri və informasiya sistemləri ("Computer Science and Information Systems") üzrə isə 601–650-ci diapazonda yer alıb.

BDU ötənilki reytinqdə yer aldığı iki dar ixtisas sahəsi üzrə nəzərəçarpacaq irəliləyiş əldə edib. Belə ki, Neft-qaz mühəndisliyi ("Petroleum Engineering") sahəsində 151–175-ci diapazondan 51–100-cü diapazona, eləcə də Riyaziyyat ("Mathematics") üzrə 501–600-cü diapazondan 251–300-cü diapazona yüksəlib.

Reytinq nəticələrinə əsasən, ilk dəfə olaraq Bakı Dövlət Universitetinin 1 ixtisası qlobal miqyasda TOP 100-lükdə, 7 ixtisası TOP 500-lükdə yer alıb ki, bu da ötən illə müqayisədə 7 dəfə artım deməkdir.

QS tərəfindən dərc olunan "QS World University Rankings by Subject" ali təhsil müəssisələrinin ayrı-ayrı ixtisas üzrə qlobal səviyyədə qiymətləndirilməsini təmin edən nüfuzlu beynəlxalq reytinq siyahısıdır. Bu reytinq universitetləri geniş və dar ixtisas sahələri üzrə akademik nüfuz, işəgötürən reputasiyası, elmi istinadlar və beynəlxalq əməkdaşlıq kimi meyarlar əsasında dəyərləndirir. Məqsəd abituriyentlərə, tədqiqatçılara və təhsil müəssisələrinə konkret sahələr üzrə ən güclü universitetləri müəyyənləşdirməkdə dəstək olmaqdır.

BDU-nun "QS World University Rankings by Subject 2026" nəticələrində əldə etdiyi uğurlar Universitetin elmi-tədqiqat potensialının, tədris keyfiyyətinin və beynəlxalq akademik nüfuzunun artdığını bir daha təsdiqləyir. Sözügedən nailiyyətlər BDU-nun qlobal ali təhsil məkanında mövqeyinin möhkəmlənməsinə, eləcə də Azərbaycanın beynəlxalq akademik reytinqlərdə daha geniş təmsil olunmasına töhfə verir.

Bu uğur münasibətilə BDU kollektivini ürəkdən təbrik edirik. Eyni zamanda, müvafiq reytinq siyahısında yer alan digər ali təhsil müəssisələrini də təbrik edir, onlara uğurlar diləyirik.

# BDU-da Azərbaycanlıların Soyqırımı Günü qeyd olunub

***Martın 31-də Bakı Dövlət Universitetində 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin və soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



BDU-nun rektoru Elçin Babayev bildirib ki, 31 mart təkcə keçmişin faciəsi deyil, Azərbaycan xalqının milli yaddaşının, kimliyinin və birliyinin sınağa çəkildiyi tarixi dövrün simvoludur. 1918-ci ilin mart-aprel aylarında Azərbaycan xalqına qarşı planlı və məqsədyönlü qırğınlar həyata keçirilib. Bakı, Şamaxı, Quba, Qarabağ və Zəngəzur da daxil olmaqla müxtəlif bölgələrdə on minlərlə günahsız insan milli və dini mənsubiyyətinə görə xüsusi qəddarlıqla qətlə yetirilib, yaşayış məntəqələri dağıdılıb, mədəni və dini abidələr məhv edilib. Bu hadisələr təkcə bir xalqın deyil, ümumilikdə bəşəriyyətin tarixində qara ləkə kimi qalmaqdadır: “Tarixi faktlar göstərir ki, bu qırğınlar təsadüfi deyil, uzun illər davam edən ideoloji və siyasi məqsədlərin nəticəsi idi. Bu cinayətləri Azərbaycan torpaqlarında etnik təmizləmə aparmaq, insanları öz yurdlarından didərgin salmaq və saxta iddialar üzərində yeni reallıqlar qurmaq istəyən qüvvələr həyata keçirmişdilər. 1918-ci ilin mart hadisələri zamanı təkcə Bakıda təxminən 30 min, ümumilikdə isə 50 mindən çox azərbaycanlı qətlə yetirilib”.

Rektor vurğulayıb ki, uzun illər bu hadisələrə obyektiv qiymət verilməsinə maneələr yaradılsada, müstəqillik dövründə Azərbaycan dövləti tarixi həqiqətlərin üzə çıxarılması istiqamətində mühüm addımlar atıb: “Xüsusilə Ümummilli Lider Heydər Əliyev tərəfindən 1998-ci ildə imzalanmış Fərmanla 31 mart Azərbaycanlıların Soyqırımı Günü kimi rəsmiləşdirilib. Bu faciənin unudulmaması üçün mühüm zəmin yaradılıb. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan siyasət nəticəsində həmin tarixi hadisələrin daha geniş şəkildə araşdırılması və beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində mühüm işlər görülür. Quba şəhərində aşkar edilən kütləvi məzarlıq və burada yaradılan Soyqırımı Memorial Kompleksi bu həqiqətlərin canlı sübutudur. Azərbaycan xalqı bütün çətinliklərə baxmayaraq, öz dövlətçiliyini qoruyub saxlayıb və müstəqil, güclü bir ölkə kimi dünya səhnəsində yerini möhkəmləndirməkdədir. 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan işğal altında olan torpaqlarını azad etdi, suverenliyimiz bərpa olundu, şəhidlərimizin qanı yerdə qalmadı. Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir, yeni şəhərlər, kəndlər, yollar, hava limanları tikilir, regionun infrastrukturu yenidən formalaşdırılır. “Böyük Qayıdış” proqramı uğurla icra olunur. Ölkəmiz bir çox qlobal platformalarda etibarlı tərəfdaş kimi tanınır, beynəlxalq aləmdə enerji təhlükəsizliyində mühüm rol oynayır. Bütün bunlar bir daha sübut edir ki, Azərbaycan xalqı qarşısına qoyduğu hər bir məqsədə nail olmağa qadirdir”.

Milli Məclisin Elm və təhsil komitəsinin sədri, BDU-nun kafedra müdiri, professor Anar İsgəndərov tədbir iştirakçılarını Fövqəladə Təhqiqat Komissiyasının 35 cildlik sənədlərində Bakıda, Qubada, Şamaxıda törədilən soyqırımlarla bağlı əks olunan dəhşətli faktlarla tanış edib. O vurğulayıb ki, soyqırımı hadisələri tarixi unutmamağı və ondan ibrət dərsi çıxarmağı öyrədir: “Bu həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması xüsusi əhəmiyyət kəsb edir. Ümummilli Lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra tarixi həqiqətlərin üzə çıxarılması istiqamətində mühüm addımlar atılıb. O zamandan etibarən Azərbaycan həqiqətlərinin, o cümlədən soyqırımı həqiqətlərinin dünyada tanıdılması istiqamətində mühüm işlər görülür”.

BDU-nun Beynəlxalq münasibətlər kafedrasının dosenti Əlimusa İbrahimov və Tarix fakültəsinin doktorantı Səbuhi Quliyev çıxışlarında 1918-ci ilin mart hadisələrinin tarixi, siyasi və hüquqi aspektlərindən bəhs ediblər.

Sonda Azərbaycan Dövlət Televiziyasının hazırladığı “Tarixin izi ilə: 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü” adlı sənədli film nümayiş olunub. Filmin ssenari müəllifi BDU-nun Jurnalistika fakültəsinin müəllimi Mahir Qəribovdur.

# BDU-da Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş sərgi təşkil edilib

***Martın 31-də BDU-nun Elmi Kitabxanası 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş ənənəvi kitab sərgisi təşkil edib.***

Sərgidə kitabxananın fondlarında mühafizə olunan, ermənilərin Azərbaycan türklərinə qarşı törətdikləri qırğınlardan bəhs edən Azərbaycan, ingilis və rus dillərində 40-a yaxın kitab və nəşr nümayiş olunur. Sərgidə Anar İsgəndərov, Boran Əziz kimi ziyalıların 31 mart soyqırımı ilə bağlı tədqiqatlarını əks etdirən fundamental nəşrlər də öz əksini tapır.

Təqdim olunan ədəbiyyatlar XX yüzillik ərzində Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları, separatizm siyasəti və bu proseslərin tarixi köklərini əks etdirir. Çoxsaylı arxiv sənədləri və faktlara əsaslanan bu nəşrlər həmin dövrün obyektiv araşdırılması baxımından mühüm əhəmiyyət daşıyır.



# BDU-da tədbir: “Tarixi yaddaş və milli kimlik”

***Martın 31-də Geologiya fakültəsinin Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) və “BDU könüllüləri” təşkilatının birgə təşəbbüsü ilə 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş “Tarixi yaddaş və milli kimlik” adlı tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və soyqırım qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Geologiya fakültəsinin dekanı Mamoy Mansurov 1918-ci ilin mart qırğınlarının öz amansızlığı və miqyasına görə təkcə Azərbaycan tarixində deyil, bəşər tarixində də ən qanlı soyqırımlardan biri olduğunu bildirib. 1918-ci ilin 30 mart -3 aprel tarixlərində Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və daşnak erməni silahlı dəstələri azərbaycanlıları kütləvi şəkildə vəhşicəsinə qətlə yetirib. Bu hadisəyə siyasi qiymət isə Ulu Öndər Heydər Əliyevin “Azərbaycanlıların soyqırımı haqqında” 1998-ci il 26 mart tarixli Fərmanı ilə verilib. Soyqırımı aktlarına siyasi-hüquqi qiymət verilməsi bu sahədə aparılan tədqiqatlara, həqiqətin üzə çıxarılması istiqamətində səylərin artırılmasına təkan verib.

BDU-nun Seysmologiya və yer təkinin fizikası kafedrasının müdiri, dosent Əvəz Məmmədov və kafedranın dosenti Əli Novruzov son 200 ildə xalqımızın başına gətirilən soyqırımlar barədə məlumat verib, Qarabağda qazanılan şanlı Zəfərlə bütün şəhidlərimizin və soyqırımı qurbanlarının qisasının alındığını bildiriblər.

Tədbir tələbələrin hazırladığı bədii hissə və Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş videoçarxın nümayiş etdirilməsi ilə davam edib.

# BDU-da “Web of Science” platformasından effektiv istifadəyə dair təlim keçirilib

*Görüş çərçivəsində Universitetin “Web of Science” platformasındakı təşkilat profili təhlil olunub, təsdiqlənməmiş müəllif profillərinin müəlliflər tərəfindən təsdiqlənməsi prosesi praktiki şəkildə nümayiş etdirilib.*

***Martın 19-da BDU-da ““Web of Science” platformasında tədqiqat analitikası: Təşkilat və müəllif profilləri, əməkdaşlıq imkanları” mövzusunda təlim təşkil olunub.***

BDU-nun Elmi Kitabxanası və Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən tədbir “Web of Science” platformasının effektiv istifadəsinin artırılması məqsədilə həyata keçirilib. Təlimi BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Farid Nağıyev açıq elan edərək, tədqiqat fəaliyyətinin inkişafında bu cür maarifləndirici tədbirlərin əhəmiyyətini vurğulayıb.

Təlim “Clarivate” şirkətinin Azərbaycan üzrə rəsmi nümayəndəsi, müştəri məmnuniyyəti üzrə məsləhətçi Xəyalə Hacıyeva tərəfindən keçirilib. Tədbirdə Universitetin doktorantları, tədqiqatçıları və kitabxana əməkdaşları iştirak ediblər.

Görüş çərçivəsində Universitetin “Web of Science” platformasındakı təşkilat profili təhlil olunub, təsdiqlənməmiş müəllif profillərinin müəlliflər tərəfindən təsdiqlənməsi prosesi praktiki şəkildə nümayiş etdirilib.

Bununla yanaşı, iştirakçılara platformanın süni intellekt əsaslı “Research Assistant” funksiyasının imkanları təqdim olunub. Təlim zamanı ədəbiyyat icmalının hazırlanması, elmi hipotezlərin formalaşdırılması və məqalələrin nəşri üçün uyğun jurnalların müəyyənləşdirilməsi kimi mühüm məsələlər ətraflı izah edilib.

*Martın 19-da BDU-da Azərbaycan–Koreya Kompüter Elmləri Mərkəzinin açılış mərasimi keçirilib. Mərkəz BDU və Koreya Respublikasının Azərbaycandakı səfirliyinin dəstəyi ilə İnformasiya Təminatı Mərkəzinin bazasında yenidən qurulub və Universitetdə informasiya texnologiyaları, süni intellekt və kibertəhlükəsizlik sahələrində tədris və tədqiqat fəaliyyətinin gücləndirilməsinə xidmət edəcəkdir.*

# Bakı Dövlət Universitetində Azərbaycan–Koreya Kompüter Elmləri Mərkəzinin açılışı olub





Mərkəzin yeni konsepsiya ilə istifadəyə verilməsi Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 27 fevral tarixli 953 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı”nda ali təhsil müəssisələrinə verilən çağırışlara cavab olaraq həyata keçirilmiş təşəbbüslərdəndir. Belə ki, “Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı” ölkədə rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində fəaliyyətin genişləndirilməsini prioritet istiqamətlər kimi müəyyən edir. Eyni zamanda, həmin tarixdə imzalanmış Fərmanla Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının yaradılması bu sahədə institusional yanaşmanın gücləndirilməsinə xidmət edir. Bu təşəbbüs ali təhsil müəssisələrinin rəqəmsal bacarıqların inkişafı, süni intellekt və kibertəhlükəsizlik sahələrində ixtisaslaşmış kadr hazırlığı, elmi-tədqiqat və innovasiya fəaliyyətinin gücləndirilməsi üzrə öhdəliklərinin icrasını təmin etməyi nəzərdə tutur. Yenilənmiş Mərkəzin əsas məqsədi müasir texnoloji çağırışlara cavab verən yüksək ixtisaslı mütəxəssislərin hazırlanması, tələbələrin nəzəri biliklərinin praktiki bacarıqlarla inteqrasiyası, innovativ tədqiqat mühitinin formalaşdırılması və beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsidir. Mərkəzin universitet–sənaye əməkdaşlığının inkişafına, tətbiqyönümlü layihələrin hazırlanmasına və tələbələrin real texnoloji problemlərin həllinə cəlb olunmasına xidmət etməsi nəzərdə tutulur.

Mərkəzin konsepsiyası süni intellekt, kibertəhlükəsizlik və kriptoqrafiya istiqamətləri üzrə inteqrasiya olunmuş fəaliyyət mühiti yaratmağa yönəlib. Süni intellekt istiqaməti maşın öyrənməsi, böyük verilənlərin analizi və ağıllı sistemlərin hazırlanması üzrə tədris və tətbiqi imkanları təqdim edir. Kibertəhlükəsizlik fəaliyyəti informasiya sistemlərinin qorunması, şəbəkə təhlükəsizliyinin təmin edilməsi və kiberhücumların qarşısının alınması üzrə praktiki bacarıqların inkişafına yönəlir. Kriptoqrafiya isə məlumatların qorunması, təhlükəsiz rabitənin təmin edilməsi və müasir şifrələmə texnologiyalarının tətbiqi üzrə praktiki bacarıqların inkişafını əhatə edir.

Mərkəz müasir tələblərə uyğun əsaslı təmir olunub və qabaqcıl texnoloji avadanlıqlarla təmin edilib. Burada kibertəhlükəsizlik üzrə ixtisaslaşmış “firewall” sistemləri, SIEM platforması, şəbəkə simulyatorları və virtual laboratoriya mühitləri tətbiq edilib. Tədris və tədqiqat prosesini dəstəkləmək üçün virtualizasiya həlləri, analitik və təlim platformalarına çıxış imkanları yaradılıb, həmçinin məntiq analizatoru və digər xüsusi təyinatlı qurğular vasitəsilə praktiki və eksperimental fəaliyyət üçün geniş şərait təmin olunub. Eyni zamanda, müasir avadanlıqlar və iş mühiti qurularaq tələbələr üçün komfortlu və funksional tədris məkanı yaradılıb.

Açılış mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev Mərkəzin yenilənməsinin dövlətin ali təhsil sahəsində innovasiya və rəqəmsallaşma siyasətinə göstərdiyi dəstək və qayğının təzahürü olduğunu vurğulayıb. Rektor bildirib ki, Mərkəzdə kibertəhlükəsizlik, kriptoqrafiya və süni intellekt kimi üç mühüm istiqamət üzrə müasir dövrün çağırışlarına cavab verən kadrlar hazırlanacaq. Yaradılan müasir infrastruktur tələbələrin praktiki hazırlığını artıracaq, innovativ düşüncə tərzini inkişaf etdirəcək və onların beynəlxalq əmək bazarının tələblərinə uyğun kompetensiyalar qazanmasına imkan verəcək.

Koreya Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Kang Kymgu çıxışında Azərbaycan ilə Koreya arasında təhsil və texnologiya sahələrində əməkdaşlığın uğurla inkişaf etdiyini və BDU-nun bu prosesdə mühüm rol oynadığını qeyd edib. O bildirib ki, BDU-da Azərbaycan–Koreya Kompüter Elmləri Mərkəzi iki dost ölkə arasında münasibətlərin inkişafının mühüm halqası ola bilər: “İstərdik ki, bu Mərkəzin istifadəçiləri Azərbaycanda informasiya texnologiyaları və kibertəhlükəsizlik sahəsinin güclənməsinə töhfə versinlər. Mərkəzdən istifadə edən tələbələrin Azərbaycan–Koreya əlaqələrinin inkişafında körpü olmalarını arzulayıram”.

Azərbaycan–Koreya Kompüter Elmləri Mərkəzi BDU-da rəqəmsal təhsil və tədqiqat mühitinin inkişafına, innovativ yanaşmaların tətbiqinə və tələbələrin qabaqcıl texnologiyalar sahəsində bilik və bacarıqlarının artırılmasına xidmət edən mühüm platformadır.

*Martın 18-də Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Yalçın Rəfiyev Bakı Dövlət Universitetinin tələbələri ilə görüşüb.*

# Xarici işlər nazirinin müavini Yalçın Rəfiyev BDU tələbələri ilə görüşüb




Tədbirin moderatoru, Universitetin sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev BDU-nun ölkənin müxtəlif dövlət və özəl qurumları ilə sıx əməkdaşlıq etdiyini və belə görüşlərin tələbələrin karyera quruculuğunda mühüm önəm daşıdığını qeyd edib.

BDU rektoru Elçin Babayev isə Bakı Dövlət Universitetinin ölkənin yüksəkixtisaslı kadrlarla təmin edilməsində vacib rolunu diqqətə çatdırıb. O bildirib ki, BDU-nun yaxın əməkdaşlıq etdiyi dövlət qurumlarından biri də Xarici İşlər Nazirliyidir. Nazirliyin strukturlarında fəaliyyət göstərənlərin böyük qismi BDU məzunlarıdır: “BDU məzunları ilə həmişə fəxr edib. Xarici işlər nazirinin 6 müavinindən 5-i, xarici ölkələrdə fəaliyyət göstərən diplomatik nümayəndəliklərimizin rəhbərlərinin də çoxu bizim məzunumuzdur. Təkcə bu faktlar bugünkü görüşün və diplomatik karyera quruculuğunun nə qədər vacib olduğunun göstəricisidir. Belə görüşlər və yaradılan imkanlar tələbələrin həyatında dönüş nöqtəsi ola bilər, ona görə də bundan maksimum yararlanmaq lazımdır”.

Xarici işlər nazirinin müavini Yalçın Rəfiyev məzunu olduğu universitetin tələbələri ilə görüşdən məmnunluq hissi keçirildiyini bildirib. O, BDU məzunlarının diplomatik xidmətin uğurlarında böyük paya sahib olduqlarını vurğulayıb: “Əminik ki, görüşdə iştirak edən gənclərin də arasından gələcəyin peşəkar diplomatları çıxacaq. Tələbəlik dövrünün imkanlarından maksimum çox istifadə etməyinizi, aktiv olmağınızı, daha çox dil öyrənməyi, nitq və yazı qabiliyyətinizi artırmağı tövsiyə edərdim. Bu gün Azərbaycanın xarici siyasəti çoxvektorlu və balanslıdır. Bu balansı milli maraqları qorumaqla düzgün formada, praqmatik şəkildə istifadə etmək həqiqətən böyük səriştə tələb edən məsələdir. Prezident İlham Əliyev ölkənin birinci diplomatı olaraq şəxsi təcrübəsi, peşəkarlığı və qətiyyəti ilə bütün diplomatlar üçün nümunədir”.

Nazir müavini bildirib ki, Azərbaycanın ərazi bütövlüyünün bərpası artıq yalnız milli deyil, beynəlxalq səviyyədə də legitim bir reallıq kimi qəbul olunub. Bu proses beynəlxalq dəstəyin tədricən möhkəmlənməsi ilə müşayiət olunur. Bu, ölkənin uzun illər apardığı ardıcıl diplomatik fəaliyyətin nəticəsidir.

Bu yaxınlarda diplomatik xidmətə qəbul üzrə növbəti qəbul imtahanı keçiriləcəyini bildirən nazir müavini qeyd edib ki, hazırda Nazirlik tərəfindən gənclərin təcrübə imkanlarının artırılması istiqamətində işlər aparılır: “XİN nəzdində “Diplomatiya könüllüləri” qrupu fəaliyyət göstərir, IV kurs tələbələrinin Nazirlik strukturlarında təcrübəyə cəlb olunması son illər genişləndirilir. Buna səbəb diplomatik xidmətin qarşısında duran vəzifələrin artmasıdır. Beynəlxalq münasibətlər sistemi canlı orqanizmdir və daim dəyişir, ona uyğunlaşmaq və düzgün siyasət aparmaq lazımdır. Əgər diqqət etsəniz, həm təhlükəsizlik, həm də iqtisadi baxımdan regionda ən az zərər görən ölkə elə Azərbaycandır. Bunun da əsas səbəbi indiyə qədər aparılan düzgün siyasət, ölkənin maraqlarını hər şeydən üstün tutaraq təşkil edilən diplomatik fəaliyyətdir. Diplomat peşəsi çox şərəfli peşədir. Çünki siz bu fəaliyyətdə milli maraqlara birbaşa xidmət edirsiniz. Məzunları və magistraturada təhsil alan tələbələri prosesdə aktiv iştirak etməyə dəvət edirik. Onu da qeyd edək ki, son illərdə azərbaycanlı diplomatların fəaliyyətini stimullaşdırmaq üçün bir çox imkanlar yaradılıb”.

Daha sonra nazir müavini tələbələri XİN sisteminə işə qəbul qaydaları, diplomatik xidmətin üstünlükləri, bu sahədə yaradılan imkanlarla tanış edib və onların suallarını cavablandırıb.

# 27 Mart - Azərbaycanda “Elm günü”dür

***2018-ci il 9 aprel tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cəmiyyətin inkişafında elmin əhəmiyyətini nəzərə alaraq, 27 Mart - Azərbaycan Respublikasında “Elm günü”nün təsis edilməsi haqqında Sərəncam imzalayıb.***

Hər il bu əlamətdar tarix ilə əlaqədar ölkəmizin ali təhsil müəssisələrində, elmi-tədqiqat institutlarında müasir elmin aktual problemlərinə həsr olunmuş silsilə tədbirlər - elmi konfranslar, seminarlar, simpoziumlar, mühazirələr, dəyirmi masalar keçirilir. Elmi fəaliyyət üzrə müsabiqələr təşkil olunur. Bu ənənə ölkə alimlərini bir araya gətirməklə əldə olunan elmi nəticələrin müzakirəsinə, fundamental və tətbiqi xarakterli birgə tədqiqatların aparılmasına, əldə edilmiş elmi nailiyyətlərin tanıdılmasına imkan yaradır.

Azərbaycanda elm və təhsil sahəsində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, dünya elminin tələblərinə cavab verən tədqiqatların aparılması, elmi-texniki potensialın inkişafı, eləcə də yüksəkixtisaslı kadrların hazırlanması dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Ölkəmizin davamlı inkişafı, iqtisadi, siyasi və hərbi qüdrəti təhsilin keyfiyyəti və səviyyəsi, həmçinin ölkənin elmi potensialı və bu sahələrdəki uğurları ilə bilavasitə bağlıdır.

Öz müstəqilliyini yenidən bərpa etdikdən sonra ölkəmizin davamlı inkişaf strategiyası, müasir dünyada baş verən qlobal siyasi, iqtisadi, sosial və ekoloji problemlər Azərbaycanın elmi əsaslar üzərində inkişafını zərurətə çevirib. Müstəqilliyimizin bərpasından keçən müddət ərzində dövlətin diqqət və qayğısı sayəsində ölkəmizdə elm və təhsil sahələri sürətlə inkişaf edib, bu istiqamətdə nailiyyətlər qazanılıb. Elmin inkişafı istiqamətində ardıcıl olaraq islahatlar həyata keçirilir. Elm və təhsilin inkişafı, elmi və elmi-pedaqoji kadr hazırlığı bütövlükdə ölkəmizin hərtərəfli inkişafının hərəkətverici qüvvəsinə çevrilib. Son illərdə ölkəmizdə milli maraqlara və bəşəri dəyərlərə əsaslanan müasir elm və təhsil sistemi formalaşıb. Ölkədə elmin nüfuzunun yüksəldilməsi, cəmiyyətin inkişafında elmin əhəmiyyətinin artırılması və elmi fəaliyyətin stimullaşdırılması istiqamətində bir sıra dövlət əhəmiyyətli tədbirlər icra olunur.

Elm və təhsilin inkişafına dövlət səviyyəsində göstərilən qayğı birbaşa olaraq dövlətçiliyimizin və müstəqilliyimizin möhkəmləndirilməsinə, xalqımızın tərəqqisinə və rifah halının yüksəldilməsinə xidmət edən məqsədyönlü siyasətin tərkib hissəsidir. Elm, təhsil və sənayenin məharətlə əlaqələndirilməsi, müasir texnologiyalar və innovasiyaların tətbiqi yolu ilə inkişaf etdirilməsi hazırda ən aktual və prioritet məsələdir. Bu gün Azərbaycanda məhz bu istiqamətləri əhatə edən dövlət siyasəti aparılır, iqtisadi potensialı intellekt kapitalına çevirmək sahəsində mühüm və davamlı işlər görülür.

Ötən ilin noyabr ayında Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley yığıncağında hər bir ölkənin inkişafının təbii resurslarla yox, məhz cəmiyyətin intellektual potensialı, texnoloji və elmi inkişafı ilə müəyyən olunduğunu deyən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizdə elmin inkişafına dair yeni məqsədləri qarşıya qoymuşdur: “Yəni, təbii resurslar bizim üçün sadəcə olaraq bir vasitədir, bir imkandır ki, biz təbii resursların ixracından əldə etdiyimiz vəsaiti insan kapitalına yönəldək, texnoloji inkişafa yönəldək ki, gələcəkdə bizim inkişafımız dayanıqlı olsun. Hər kəs yaxşı bilir ki, təbii sərvətlər tükənən sərvətlərdir, gec-tez tükənəcək. Tükənməz sərvət isə intellektual potensialdır, amma o halda əgər buna sərmayə qoyularsa. O sərmayəni dövlət qoymalıdır. Ölkənin elm ictimaiyyəti, alimlər bu istiqamətdə öz səylərini göstərməlidirlər. Ona görə bu gün əsas vəzifələrdən biri texnoloji inkişafdır”.

Daim elmin mərkəzində olan Bakı Dövlət Universiteti də öz strategiyasında təhsil və elmi tədqiqatların sıx inteqrasiyasını, o cümlədən tələbələrin tədris praktikasının birbaşa olaraq tədqiqatla əlaqələndirilməsini əsas götürərək hər il “Elm günü”nə həsr olunmuş Tədbirlər planı hazırlayaraq icra edir. Artıq altı ildir ki, 27 Mart - Azərbaycan Respublikasında “Elm günü”nə həsr olunmuş BDU əməkdaşları arasında “İlin alimi” nominasiyası üzrə müsabiqə elan olunur. “İlin alimi” müsabiqəsinin məqsədi BDU-nun il ərzində aktiv elmi fəaliyyət göstərərək yüksək elmi nəticələrə nail olmuş, nüfuzlu jurnallarda və nəşrlərdə dərc olunmuş elmi məqalələri və digər elmi əsərləri olan, elmi işlərinə istinad olunan, həmçinin yüksək elmi-təşkilati fəaliyyəti ilə fərqlənmiş əməkdaşlarının mükafatlandırılmasıdır. “Elm günü” ilə əlaqədar BDU-nun bütün fakültələrində silsilə elmi seminarlar, elmi və elmi publisistik mühazirələr, ustad dərsləri təşkil olunur.

# BDU-da “Dayanıqlı şəhərlər: Gələcəyin urbanizasiya perspektivləri” mövzusunda panel müzakirə

***Martın 18-də Bakı Dövlət Universitetinin “BDU könüllüləri” təşkilatının və Yasamal rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən “Şəhərsalma və memarlıq həftəsi” çərçivəsində “Dayanıqlı şəhərlər: Gələcəyin urbanizasiya perspektivləri” mövzusunda panel müzakirə olub.***

Əvvəlcə BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov “Şəhərsalma və memarlıq həftəsi”nin əhəmiyyətindən bəhs edib. O bildirib ki, sürətli urbanizasiya şəraitində şəhərlərin planlı və dayanıqlı şəkildə inkişafı yalnız memarlıq baxımından deyil, sosial, ekoloji və iqtisadi amillərin qarşılıqlı şəkildə uzlaşdırılmasını tələb edir.

“BDU könüllüləri” təşkilatının layihələrin idarə edilməsi və təşkilatlarla iş üzrə meneceri Mədinə Xəlilova panel müzakirənin qonaqlarını təqdim edib. O bildirib ki, panel müzakirə müxtəlif sahələr üzrə mütəxəssislərin iştirakı ilə təşkil olunaraq şəhərsalma məsələlərinə kompleks yanaşmanın formalaşdırılmasına xidmət edir.

Panel müzakirədə BDU-nun Ekologiya və torpaqşünaslıq fakültəsinin Ekoloji kimya kafedrasının müdiri, professor Sevinc Hacıyeva şəhərsalma prosesinin sonrakı mərhələsində yaranan ekoloji problemlərə toxunub, müasir şəhərlərin qarşılaşdığı əsas çağırışları diqqətə çatdırıb. O bildirib ki, sürətli urbanizasiya, sənayeləşmə və nəqliyyat vasitələrinin sayının artması ətraf mühitə




mənfi təsir göstərir, havanın keyfiyyətinin pisləşməsinə, səs-küy çirkliliyinin artmasına və iqlim dəyişikliklərinin sürətlənməsinə səbəb olur. Bu baxımdan o, şəhərsalma siyasətində ekoloji tarazlığın qorunmasının prioritet məsələlərdən biri kimi qəbul edilməli olduğunu vurğulayıb.

Yasamal Rayon İcra Hakimiyyətinin Memarlıq-tikinti məsələləri və rayon təsərrüfatı sektorunun müdiri, baş memar Eyvaz Bağırov şəhərsalma prosesi zamanı istismar müddəti başa çatmış tikililərin söküntü mərhələsinə xüsusi diqqət ayırıb və bu prosesin planlı, təhlükəsiz və ekoloji tələblərə uyğun şəkildə həyata keçirilməsinin vacibliyini vurğulayıb. Qeyd edib ki, prosesin icrası zamanı xüsusi dövlət əhəmiyyətli memarlıq abidələrinin mühafizəsi məsələlərinə həssaslıqla yanaşılır və iş buna görə müxtəlif mərhələlərlə icra edilir. Baş memar İcra Hakimiyyəti tərəfindən bu istiqamətdə aparılan layihələrin statistik məlumatları ilə geniş təqdimat edib.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin yanında İctimai Şuranın üzvü, nəqliyyat və logistika üzrə ekspert Rauf Ağamirzəyev şəhərsalma istiqamətləri üzrə ölkədə həyata keçirilən layihələrin məqsədləri, tətbiq olunan yanaşmalar və əldə olunan nəticələr barədə ətraflı məlumat verib. O vurğulayıb ki, layihələrin icrası zamanı inklüzivlik prinsipi xüsusi diqqət mərkəzində saxlanılır və fərqli ehtiyaclara malik olan şəxslərin gündəlik həyatdakı imkanlarının artırılması əsas prioritetlərdən biri kimi nəzərə alınır. Bununla yanaşı, ümumilikdə bütün yaş kateqoriyalarının ehtiyacları, rahatlığı və təhlükəsizliyi layihələndirmə prosesində əsas meyar kimi götürülür.

BDU-nun Sosial iş kafedrasının müdiri Üzeyir Şəfiyev çıxışında şəhərsalmanın sosial və insan amili ilə bağlı tərəflərinə xüsusi diqqət yetirib. O bildirib ki, şəhərlər yalnız fiziki məkan deyil, insanların gündəlik həyatını, davranışlarını və sosial münasibətlərini formalaşdıran mühitdir. Düzgün planlaşdırılmış şəhər mühiti insanların psixoloji rifahına, sosial inteqrasiyasına və ümumi həyat keyfiyyətinə birbaşa təsir göstərir. Üzeyir Şəfiyev bu baxımdan inklüziv şəhərsalma yanaşmasının vacibliyini qeyd edib. Bildirib ki, inklüziv şəhər fiziki imkanları, yaşı, sosial statusundan asılı olmayaraq bütün insanların bərabər şəkildə yararlana bildiyi mühit deməkdir.

# BDU-da elmi seminar: “Elm və təhsil: müasir çağırışlar”

***Martın 19-da Geologiya fakültəsində 27 mart – Azərbaycan Respublikasında “Elm günü”nə həsr olunmuş tədbirlər çərçivəsində “Elm və təhsil: müasir çağırışlar” mövzusunda elmi seminar keçirilib.***

Seminar Geologiya fakültəsi və Yeni Azərbaycan Partiyası (YAP) Yasamal rayon təşkilatının birgə təşkilatçılığı ilə keçirilən tədbirin əsas məqsədi tələbə-gənclərin elmə marağının artırılması və müasir dövrdə təhsil sisteminin inkişaf istiqamətlərinin müzakirəsi olub.

Tədbirdə Milli Məclisin Elm və təhsil komitəsinin üzvü, YAP İdarə Heyətinin üzvü Elnarə Akimova, YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, Geologiya fakültəsinin tədris işləri üzrə dekan müavini İlqar Quliyev və hüquq elmləri doktoru, professor Zahid Cəfərov iştirak ediblər.

Geologiya fakültəsinin tədris işləri üzrə dekan müavini İlqar Quliyev çıxışında ali təhsildə aparılan islahatların əhəmiyyətindən və tələbələrin elmi-tədqiqat fəaliyyətinə cəlb olunmasının vacibliyindən bəhs edib. O, geologiya sahəsində təhsilin nəzəri biliklərlə yanaşı, praktiki bacarıqlar üzərində qurulmasının zəruriliyini vurğulayıb.

Professor Zahid Cəfərov elm və təhsil sahəsində hüquqi çərçivə, akademik etik qaydalar və hüquqi savadlılığın əhəmiyyəti barədə danışıb. O, akademik dürüstlük və şəffaflığın qorunmasının vacibliyini xüsusi qeyd edib.

YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev dövlət gənclər siyasəti və gənclərin ictimai-siyasi fəallığının artırılması istiqamətində görülən işlərdən bəhs edib. O, gənclərin liderlik və təşəbbüskarlıq bacarıqlarının inkişafının vacibliyini vurğulayıb.

Milli Məclisin deputatı Elnarə Akimova çıxışında elm və təhsilin strateji əhəmiyyətindən danışaraq innovasiya, rəqəmsallaşma və süni intellektin inkişafının vacibliyini qeyd edib. O, gəncləri daim öz üzərində işləməyə və qlobal rəqabətə hazır mütəxəssislər kimi formalaşmağa çağırıb.

Geologiya fakültəsinin Ümumi və tarixi geologiya kafedrasının müdiri, professor Nazim İmamverdiyev geologiya elminin fundamental əsasları və Yer tarixinin öyrənilməsinin əhəmiyyətindən bəhs edib. O, tələbələri analitik düşünməyə və elmi yanaşmanı mənimsəməyə səsləyib.

Sonda akademik Vasif Babazadə faydalı qazıntıların kəşfiyyatı və mineral ehtiyatların səmərəli istifadəsi barədə danışıb. O, bu sahədə müasir texnologiyaların tətbiqinin və ixtisaslı kadr hazırlığının vacibliyini vurğulayıb.

# BDU-da Ulu Öndər Heydər Əliyevin milli təhlükəsizlik strategiyasına dair görüş

***Martın 17-də BDU-nun Heydər Əliyev muzeyinin təşkilatçılığı ilə Milli Müdafiə Universitetinin professoru Vüqar Məmmədzadə ilə "Ümummilli Lider Heydər Əliyevin milli təhlükəsizlik strategiyası" mövzusunda görüş keçirilib.***

Professor Azərbaycanın dövlətçilik tarixində milli təhlükəsizlik konsepsiyasının formalaşması və institusional əsaslarının yaradılmasının Ulu Öndərin adı ilə bağlı olduğunu deyib. Qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə bu sahədə mühüm addımlar atılıb, o cümlədən 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi ilə dövlətin suverenliyi, ərazi bütövlüyü və vətəndaşların təhlükəsizliyi hüquqi baxımdan təsbit olunub. Hüquq-mühafizə və təhlükəsizlik sisteminin təkmilləşdirilməsi istiqamətində Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinin fəaliyyəti gücləndirilib, sərhəd təhlükəsizliyinin təmin edilməsi üçün Dövlət Sərhəd Xidmətinin işi formalaşdırılıb. Bu addımlar ölkədə sabitliyin təmin olunması və dövlət institutlarının möhkəmləndirilməsi baxımından mühüm rol oynayıb.



Vüqar Məmmədzadə milli təhlükəsizlik strategiyasının sonrakı dövrdə də Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilərək yeni qanunvericilik aktları və dövlət proqramları ilə zənginləşdirildiyini bildirib. Bu kontekstdə 2004-cü ildə qəbul edilən Milli Təhlükəsizlik Konsepsiyası və 2007-ci ildə təsdiqlənən Milli Təhlükəsizlik Strategiyası ölkənin təhlükəsizlik siyasətinin əsas istiqamətlərini müəyyənləşdirən mühüm sənədlərdir. Bu sənədlər regional və qlobal çağırışlara adekvat cavab verən, siyasi, hərbi, iqtisadi və informasiya təhlükəsizliyini əhatə edən kompleks yanaşmanı özündə birləşdirir.

Görüş mövzu ilə bağlı sualların cavablandırılması ilə başa çatıb.

# İİTKM-in İcraçı direktorunun müavini BDU tələbələrinə Azərbaycanın yaşıl enerji potensialına dair ustad dərsi keçib

***Martın 16-da Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş tədbirlər çərçivəsində "Yaşıl enerji dəhlizləri: Azərbaycanın strateji baxışı" mövzusunda ustad dərsi keçirilib.***

Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin İqtisadiyyat kafedrasının təşkilatçılığı ilə keçirilən ustad dərsində İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin İcraçı direktorunun müavini, iqtisad elmləri doktoru Ramil Hüseyn məruzə ilə çıxış edib.

Məruzədə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində ölkəmizin "yaşıl artım" ölkəsinə çevrilməsi istiqamətində müəyyən edilmiş hədəflərdən bəhs olunub. Bildirilib ki, bu prioritet çərçivəsində yaşıl enerjiyə keçidin dəstəklənməsi, bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi və dayanıqlı enerji sisteminin formalaşdırılması mühüm əhəmiyyət daşıyır.



Diqqətə çatdırılıb ki, qəbul edilmiş yol xəritəsinə əsasən, Azərbaycanda 2030-cu ilədək 6 qiqavat, 2032-ci ilədək isə 8 qiqavat gücündə yaşıl enerji istehsal edən külək və günəş elektrik stansiyalarının istismara verilməsi nəzərdə tutulur. Bununla yanaşı, ölkədə istehsal olunacaq "yaşıl enerji"nin investisiyalaşdırılması və beynəlxalq enerji bazarlarına çıxarılması məsələləri də müzakirə olunub.

Qeyd edilib ki, Azərbaycanın yaşıl enerji potensialının ixracı üçün "Xəzər–Qaradəniz–Avropa", "Azərbaycan–Türkiyə–Avropa" və "Azərbaycan–Gürcüstan–Türkiyə–Avropa" enerji dəhlizləri mühüm strateji əhəmiyyət kəsb edir.

Sonda mövzu ətrafında geniş fikir mübadiləsi aparılıb, iştirakçıların sualları cavablandırılıb.

# BDU-da akademik Nizami Cəfərovun ustad dərsi: "Dilçiliyə girişdən ümumi dilçiliyə"

***Martın 16-da Filologiya fakültəsində 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr edilmiş növbəti ustad dərsi keçirilib.***

Ustad dərsində BDU-nun Ümumi dilçilik kafedrasının müdiri, AMEA-nın həqiqi üzvü, Atatürk Mərkəzinin direktoru, filologiya elmləri doktoru Nizami Cəfərov "Dilçiliyə girişdən ümumi dilçiliyə" mövzusunda məruzə ilə çıxış edib.

O, məruzədə Azərbaycanda ümumi dilçiliyin keçmişi və mövcud vəziyyəti haqqında geniş məlumat verib, "Dilçiliyə giriş" dərslikləri və mühazirələrinin elmi-nəzəri və metodoloji səviyyəsinin yüksəldilməsinin vacibliyini vurğulayıb. Bununla yanaşı, dilçilik klassiklərinin əsərlərinin Azərbaycan dilinə tərcüməsi sahəsində müəyyən uğurların əldə olunduğu qeyd edib, bu istiqamətdə işlərin davam etdirilməsinin zəruriliyini diqqətə çatdırıb.



Ustad dərsində bu sahənin gələcək inkişaf perspektivləri müzakirə olunub. Bildirilib ki, "Ümumi dilçilik" dərslərində dilçiliyin bütün problemlərini əhatə etmək mümkün olmasa da, dil haqqında elmin əsaslarını təşkil edən fundamental mövzular xüsusi diqqət mərkəzində saxlanılmalıdır.

# BDU-da təlim: "Fərdi potensialın kəşfi"

***Martın 17-də Geologiya fakültəsinin Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK), "BDU könüllüləri" təşkilatı və Karyera və məzunlarla iş Mərkəzinin birgə təşəbbüsü ilə tələbələr üçün "Fərdi potensialın kəşfi" mövzusunda maarifləndirici təlim keçirilib.***

Təlimin məqsədi tələbələrin şəxsi inkişafına dəstək göstərmək, peşəkar bacarıqlarının formalaşmasına töhfə vermək və gələcək karyera seçimində düzgün istiqamət müəyyənləşdirmələrinə kömək etməkdir.

Təlimçi, Karyera və məzunlarla iş Mərkəzinin karyera planlaşdırılması üzrə məsləhətçisi Pərvanə Babayeva tələbələrə fərdi potensialın müəyyənləşdirilməsi yolları, effektiv karyera strategiyalarının qurulması barədə geniş məlumat verib. Tələbələri müasir əmək bazarının tələbləri, gənclərin rəqabətqabiliyyətli kadr kimi formalaşmasında zəruri olan kompetensiyalarla tanış edib, özünüinkişaf və davamlı öyrənmənin əhəmiyyətini vurğulayıb.

Təlim çərçivəsində tələbələrlə müxtəlif psixoloji və motivasiyaedici testlər keçirilib, onların güclü tərəflərini daha yaxşı tanımalarına kömək edən praktiki tapşırıqlar yerinə yetirilib. İştirakçılar fərdi potensialın düzgün istiqamətləndirilməsinin karyera inkişafında oynadığı rol haqqında müzakirələr aparıblar. Tələbələr qrup işlərində fəal iştirak edərək, komanda daxilində effektiv əməkdaşlıq, ünsiyyət və liderlik bacarıqlarının formalaşması ilə bağlı tapşırıqları yerinə yetiriblər. Bu, komanda işinin, düzgün kommunikasiya qurmağın vacibliyini daha dərindən anlamağa imkan yaradıb.

Təlimin sonunda tələbələrə karyera planlaşdırılması, şəxsi inkişaf strategiyalarının qurulması, motivasiyanın artırılması və peşə seçimi ilə bağlı faydalı tövsiyələr verilib.

# BDU-da "Akademik yazıya müasir baxış" mövzusunda təlim proqramı başa çatıb



***Martın 17-də BDU-nun Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş tədbirlər çərçivəsində "Akademik yazıya müasir baxış" mövzusunda ikigünlük təlim proqramı başa çatıb.***

Təlimçi, BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasının elmi işçisi, "İlin gənc alimi" müsabiqəsinin qalibi Məhəmməd Bağır Bağırov elmi fəaliyyətə başlamağın ilkin mərhələləri, düzgün istiqamət seçimi və araşdırma mövzusunun müəyyənləşdirilməsi ilə bağlı tövsiyələrini bölüşüb. O, xüsusilə elmi marağın formalaşdırılması, aktual və innovativ mövzuların seçilməsi, elmi rəhbərlə səmərəli əməkdaşlığın qurulması kimi məsələlərin vacibliyini vurğulayıb. Bununla yanaşı, elmi məqalənin peşəkar yazılma strukturu, giriş, metodologiya, nəticə və müzakirə hissələrinin düzgün qurulması, elmi etikaya riayət olunması və plagiatın qarşısının alınması barədə məlumat verib. O, tələbələri mövzuya uyğun elmi jurnalların düzgün seçilməsi, beynəlxalq indekslənmiş jurnalların, "Web of Science" və "Scopus" bazalarının tələbləri və məqalə qəbulu prosesində diqqət edilməli əsas məqamlarla tanış edib, bu cür nəşrlərin elmi karyera baxımından mühüm rol oynadığını vurğulayıb.

Sonda tələbələrin mövzu ilə bağlı sualları cavablandırılıb.

# BDU-da “Yenidən qurulan şəhərlər” mövzusunda “WUF modeli” simulyasiya konfransı

*Martın 16-da “BDU könüllüləri” təşkilatının təşəbbüsü ilə keçirilən “Şəhərsalma və memarlıq həftəsi” çərçivəsində “Yenidən qurulan şəhərlər” mövzusunda “WUF (Ümumdünya Şəhərsalma Forumu - World Urban Forum) modeli” simulyasiya konfransı keçirilib.*

“BDU könüllüləri” təşkilatının layihələrin idarə edilməsi və təşkilatlarla iş üzrə meneceri Mədinə Xəlilova həftə haqqında məlumat verib, simulyasiyanın BMT 2030 Gündəliyi çərçivəsində 9-cu, 11-ci və 17-ci Dayanıqlı İnkişaf Məqsədi uğrunda fəaliyyətin təşviqinə təsirini vurğulayıb. Qeyd edib ki, bu cür təşəbbüslər tələbələrin qlobal problemlər barədə məlumatlılığını artırmaqla yanaşı, onların innovasiya, dayanıqlı şəhər mühiti və beynəlxalq əməkdaşlıq kimi istiqamətlərdə fəal müzakirələr aparmasına və yeni ideyalar irəli sürməsinə imkan yaradır.



Simulyasiya konfransı çərçivəsində iştirakçılar Azərbaycanın müxtəlif şəhərlərini təmsil edərək həmin ərazilərdə aparılan bərpa və yenidənqurma prosesləri, dayanıqlı şəhər inkişafı, müasir infrastruktur həlləri və şəhər planlaşdırılması ilə bağlı məsələlər ətrafında müzakirələr aparıblar. Sessiyalar zamanı şəhərlərin yenidən qurulması prosesində sosial, iqtisadi və ekoloji amillərin təsiri nəzərə alınıb.

Sonra səsləndirilən fikir və təkliflər ümumiləşdirilərək yekun müzakirələr aparılıb. Konfransın sonunda iştirakçılara sertifikat və təşəkkürnamələr verilib.

# BDU-da perinatal hipokineziyanın dovşanların qan göstəricilərinə təsiri tədqiq olunur

*Martın 16-da Biologiya fakültəsində 27 mart – Azərbaycan Respublikasında “Elm günü”nə həsr olunmuş tədbirlər çərçivəsində “Perinatal hipokineziya keçirmiş boğaz dovşanların və onların yenidoğulmuş balalarının qan göstəricilərinin tədqiqi” mövzusunda elmi seminar keçirilib.*

Məruzəçi, Zoologiya və fiziologiya kafedrasının doktorantı Ceyhunə Həmidova perinatal hipokineziyanın ana orqanizmdə və yeni doğulmuş balalarda fizioloji və hematoloji dəyişikliklərə təsiri ilə bağlı apardığı elmi tədqiqatların nəticələrini təqdim edib. Bildirib ki, perinatal hipokineziya dölün və ya yenidoğulmuşun hərəkət aktivliyinin əhəmiyyətli dərəcədə azalmasıdır. Embrional inkişaf dövründə fiziki aktivliyin məhdudlaşdırılması orqanizmin müxtəlif funksional sistemlərinə təsir göstərərək sonrakı inkişaf mərhələlərində müəyyən dəyişikliklərə səbəb ola bilər. Hamilə dovşanlarda perinatal inkişafın müxtəlif dövrlərində hərəkət fəallığının məhdudlaşdırılması müxtəlif stres vəziyyətlərinə səbəb olan narahatlıqla yanaşı, balaların qan təchizatının vəziyyətinə təsir edir. Bu təsir dölün inkişafdan qalmasına gətirib çıxara bilir. Tədqiqatlar göstərib ki, hamilə dovşanlarda təcrübənin ilk günündə qanın laxtalanma sistemində əhəmiyyətli dərəcədə dəyişikliklər müşahidə olunub. Perinatal inkişafın müxtəlif dövrlərinə hipokineziyanın təsiri hamilə dovşanlarda hemoqlobin sisteminə, trombositlərə effektiv təsir göstərib.

Seminar çərçivəsində aparılmış eksperimental tədqiqatların metodikası, istifadə olunan heyvan materialı və əldə edilmiş hematoloji göstəricilərin müqayisəli təhlili barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, tədqiqat nəticələri perinatal hipokineziyanın qan sistemində müəyyən dəyişikliklərə səbəb olduğunu və bu dəyişikliklərin yeni doğulmuş balalarda da müşahidə edildiyini göstərir.

Sonda mövzu ətrafında geniş müzakirələr aparılıb, iştirakçıların sualları cavablandırılıb və aparılmış tədqiqatın nəzəri və praktik əhəmiyyəti vurğulanıb.

# BDU-da “Riyaziyyat müəllimliyi” ixtisası üzrə tədris proqramları müqayisəli təhlil olunub

*Martın 16-da Mexanika-riyaziyyat, Fizika, Coğrafiya və Biologiya fakültələrinin iştirakı ilə 27 mart Azərbaycan Respublikasında “Elm günü”nə həsr edilmiş tədbirlər çərçivəsində ustad dərsi keçirilib.*

Ustad dərsində BDU-nun Mexanika-riyaziyyat fakültəsinin Ali riyaziyyat və riyaziyyatın tədrisi metodikası kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, professor Misir Mərdanov “Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti və Finlandiyanın Helsinki Universitetində “Riyaziyyat müəllimliyi” ixtisası üzrə tədris proqramlarının müqayisəli təhlili” mövzusunda çıxış edib.

Professor Misir Mərdanov adıçəkilən universitetlərdə “Riyaziyyat müəllimliyi” ixtisası üzrə tədris proqramlarını, ayrı-ayrı fənlərə ayrılmış saatları müqayisəli təhlil edib. Qeyd olunan universitetlərdə bu ixtisas üzrə kadr hazırlığının struktur xüsusiyyətləri, məzmunu və tətbiq olunan yanaşmaları iştirakçıların diqqətinə çatdırıb. O, üç universitetin timsalında “Riyaziyyat müəllimliyi” ixtisasının tədrisinin oxşar və fərqli cəhətləri, qiymətləndirmə problemləri, tədris prosesində nümunə kimi götürülməli məqamlar barədə məlumat verib, Riyaziyyatın tədrisi metodikası fənninin fəlsəfəsi, didaktikası, tədris praktikası, etikası və digər məsələlərə aydınlıq gətirib.

Ustad dərsində ölkədə qeyd olunan ixtisas üzrə tədris planları ilə Helsinki Universitetinin tədris planı arasındakı fərqlər də nəzərə çatdırılıb, yekunda Azərbaycan universitetləri üçün real təkliflər təqdim olunub.

# BDU könüllüləri “Könüllü Baharı 2” yaz düşərgəsində iştirak ediblər

*Martın 16-da Gənclər və İdman Nazirliyi, Azərbaycan Gənclər Fondunun dəstəyi ilə Azərbaycan Könüllü Təşkilatları İttifaqı (AKTİ) tərəfindən “Go Camp Volunteers” proqramı çərçivəsində 7–11 mart tarixlərində Şəki Olimpiya İdman Kompleksində “Könüllü Baharı 2” Azərbaycan könüllülərinin yaz düşərgəsi keçirilib.*

“BDU könüllüləri” təşkilatının üzvlərinin də iştirak etdiyi düşərgənin əsas məqsədi könüllü gənclərin şəxsi inkişafının dəstəklənməsi, komanda bacarıqlarının gücləndirilməsi, liderlik potensialının üzə çıxarılması və milli-mənəvi dəyərlərə bağlılığın təşviqi olub. Düşərgə proqramı çərçivəsində “Könüllü zəkası” intellektual oyunu, Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzinin və Şəki rayon Dövlət Yanğından Mühafizə Hissəsinin əməkdaşları tərəfindən yarış, komandalararası voleybol çempionatı, “Bahar Missiyası” adlı kvest keçirilib. Düşərgə müddətində “Bədən dili və təsir bacarığı”, “İdeyadan layihəyə: İdeaton hazırlıq təlimi” və “Xəyal et. Planla. Reallaşdır.” kimi təlim sessiyaları və “Könüllülükdən karyeraya” adlı panel görüşü keçirilib. Düşərgə iştirakçılarının Şəki Xan Sarayı, Yuxarı və Aşağı Karvansaraya ekskursiyaları təşkil olunub.

# BDU tələbələri "Dəmirli" yatağının geoloji-genetik modeli haqqında məlumatlandırılıblar



*Martın 16-da Geologiya fakültəsində 27 mart – Azərbaycan Respublikasında “Elm günü”nə həsr olunmuş tədbirlər planı çərçivəsində “Qarabağ filiz rayonu daxilində porfir tipli mis-molibden filizləşməsi: "Dəmirli" yatağı timsalında geoloji və genetik model” mövzusunda ustad dərsi keçirilib.*

Ustad dərsində "Azerbaijan International Mining Company Limited" şirkətinin kəşfiyyat geologiyası üzrə direktoru, "Society of Economic Geologists (SEG)" təşkilatının seçilmiş üzvü, Faydalı qazıntılar kafedrasının dosenti Anar Vəliyev məruzə ilə çıxış edib.

Məruzə zamanı Qarabağ filiz rayonunun geoloji quruluşu, porfir tipli mis filizləşməsinin struktur-tektonik nəzarət amilləri, hidrotermal dəyişmə sistemləri və filizləşmənin istiqamətləndirilməsi (vektorlaşma) meyarları geniş şəkildə təqdim olunub.

Bildirilib ki, ilk dəfə olaraq şirkətin geniş geoloji-kəşfiyyat materialları əsasında "Dəmirli" yatağı üçün geoloji-genetik model işlənib hazırlanıb. Bu model litoloji və mineraloji tədqiqatların, XRD analizlərinin və digər kompleks geoloji araşdırmaların nəticələrinə əsaslanaraq filizəmələgəlmə prosesinin mümkün mexanizmini izah edir.

Qeyd olunub ki, aparılan tədqiqatların nəticələri yatağın yaxın cinahlarında və ətraf sahələrdə porfir tipli filizləşmə sistemlərinin mövcudluq ehtimalının yüksək olduğunu göstərir. Bu perspektivlər geoloji, struktur, mineraloji və geokimyəvi göstəricilər əsasında elmi şəkildə əsaslandırılıb. Təqdim olunan nəticələrin Qarabağ filiz rayonunda porfir tipli mis sistemlərinin genezisi və filizləşmə perspektivlərinin öyrənilməsi baxımından mühüm elmi və praktiki əhəmiyyət daşıdığı vurğulanıb.

Sonda mövzu ətrafında geniş müzakirələr aparılıb, iştirakçıların sualları cavablandırılıb.

# BDU-da Əmlak Məsələləri Dövlət Xidmətinin "Karyera görüşləri"

*Martın 13-də BDU-da İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin (ƏMDX) "Karyera görüşləri" adlı tədbiri keçirilib. Tədbirin keçirilməsində məqsəd Universitetin tələbə və məzunlarını Xidmətdə mövcud olan karyera imkanları, vakansiyalar və təcrübə proqramları haqqında məlumatlandırmaq, onların dövlət sektorunda peşəkar fəaliyyətə marağını artırmaq olub.*



BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin direktoru Qəşəm Məmmədov tədbir iştirakçılarına Mərkəzin fəaliyyəti, tələbə və məzunlara yönəlmiş xidmətləri, işəgötürənlərlə əməkdaşlıq istiqamətləri barədə məlumat verib.

ƏMDX Aparatının İnsan resurslarının idarə edilməsi şöbəsinin müdiri Hüsaməddin Əlizadə, həmin şöbənin Təlim, inkişaf və qiymətləndirmə sektorunun müdiri Şəmistan Şəmistanzadə tədbir iştirakçılarını Xidmətin tarixi, yaranma mərhələləri və əsas fəaliyyət istiqamətləri ilə tanış ediblər. Təqdimatda Xidmətin strukturuna daxil olan qurumlar, həyata keçirdiyi layihələr, müxtəlif ali təhsil müəssisələri ilə qurduğu əməkdaşlıq əlaqələri, rəsmi sosial şəbəkə hesabları, tələbə və məzunlara yönəlmiş təcrübə və könüllülük fəaliyyətləri öz əksini tapıb.

Tədbirdə "Şəhərsalma və Memarlıq İli" çərçivəsində tələbə və məzunlar üçün nəzərdə tutulan yeni təcrübə proqramları və iştirak imkanları da diqqətə çatdırılıb. Bildirilib ki, "Yer quruluşu", "Torpaq və şəhər kadastrı", "Geodeziya mühəndisliyi", "Ekologiya", "Torpaqşünaslıq və aqrokimya", "Aqronomluq" və "Aqromühəndislik" kimi ixtisaslar üzrə təhsil alan tələbələr qeyd olunan təcrübə proqramında iştirak edə bilərlər.

Tədbir tələbə və məzunların dövlət qurumlarında karyera qurmaq imkanlarını yaxından tanımalarına və peşəkar inkişaf perspektivləri barədə dolğun təsəvvür əldə etmələrinə şərait yaradıb. Tədbir çərçivəsində iştirakçılar Xidmətin nümayəndələri ilə birbaşa ünsiyyət qurmaq, onları maraqlandıran sualları ünvanlamaq və gələcək əməkdaşlıq imkanlarını müzakirə etmək fürsəti əldə ediblər.

# "Müasir dövrdə türk və Azərbaycan dillərində rəsmi üslub"

*Martın 13-də Şərqşünaslıq fakültəsində 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş tədbirlər çərçivəsində Türk filologiyası kafedrasının dosenti, filologiya üzrə elmlər doktoru Kamalə Əhmədovanın "Müasir dövrdə türk və Azərbaycan dillərində rəsmi üslub" mövzusunda ustad dərsi keçirilib.*

Mühazirəçi türk və Azərbaycan dillərində rəsmi üslubun struktur xüsusiyyətlərini müqayisəli şəkildə təhlil edib. Rəsmi üslubun fonetik, leksik, morfoloji və sintaktik səviyyələrdə özünü göstərən əlamətlərini iştirakçıların diqqətinə çatdırıb.

O, hər iki dildə əsmi üslubun əsas xüsusiyyətləri kimi dəqiqlik, obyektivlik, terminlərin geniş istifadəsi, standart ifadələrin tətbiqi və passiv fel konstruksiyalarının üstünlük təşkil etməsini qeyd edib. Ustad dərsində rəsmi ünsiyyətdə qeyri-verbal kommunikasiya vasitələrinin – jest, mimika, səs tonu və davranış etiketi kimi elementlərin rolu da təhlil olunub.

Müasir dövrdə dövlət liderlərinin rəsmi nitq üslubu da nəzərdən keçirilib və türk dilində rəsmi əməli yazı nümunələri (dilekçe, resmi yazı, tutanak və rapor) üzrə qısa izahlar verilib. Mühazirəçi türk və Azərbaycan dillərində rəsmi üslubun struktur və funksional baxımdan oxşar xüsusiyyətlərə malik olması və dövlət idarəçiliyi, hüquqi münasibətlər və rəsmi ünsiyyət sahəsində mühüm rol oynadığını vurğulayıb.

# BDU tələbələri Mərkəzi Elmi Kitabxanada praktik dərs keçiblər

*Martın 13-də İnformasiya və sənəd menecmenti fakültəsinin "Kitabxanaçılıq və informasiya fəaliyyəti" ixtisası üzrə ikinci kurs tələbələri AMEA-nın Mərkəzi Elmi Kitabxanasında (MEK) praktik dərsdə iştirak ediblər. Praktik məşğələ Kitabxana-informasiya resurslarının idarə edilməsi kafedrasının dosenti Rəşad Qardaşovun rəhbərliyi ilə "Elektron kataloq" fənni çərçivəsində keçirilib.*

Əvvəlcə kitabxananın direktoru, texnika elmləri doktoru Hüseyn Hüseynov tələbələrə rəhbərlik etdiyi qurumun fəaliyyəti, əsas iş prinsipləri və müasir kitabxana-informasiya xidmətləri barədə ətraflı məlumat verib. Direktor kitabxanada elektron xidmətlərin inkişafı, elektron kitabxananın formalaşdırılması, nəşrlərin rəqəmsallaşdırılması haqqında danışıb. Bildirib ki, kitabxananın saytında genişləndirilmiş və təkmilləşdirilmiş "Səsli axtarış" funksiyası tətbiq edilib, həmçinin süni intellekt əsaslı "Kitabxana bələdçisi" yaradılıb.

Daha sonra praktik dərs çərçivəsində tələbələr Mərkəzi Elmi Kitabxananın Reproqrafiya, eləcə də Kitabxana resurslarının rəqəmsallaşdırılması və idarə edilməsi şöbələri ilə tanış olublar.

Kitabxananın rəqəmsallaşma, innovasiya və elektron xidmətlər üzrə direktor müavini, tarix üzrə fəlsəfə doktoru Oruc Quliyev və müvafiq şöbələrin əməkdaşları tərəfindən kitabxana prosesləri tələbələrə əyani şəkildə nümayiş etdirilib, tələbələr bəzi mərhələlərdə bilavasitə iştirak ediblər.

# BDU-da "İƏT Modeli Beynəlxalq Münasibətlər Akademiyası – 2025" layihəsinin bağlanış mərasimi

*Artıq 15 ildir ki, Azərbaycanda hər il keçirilən "İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Modeli Beynəlxalq Münasibətlər Akademiyası" layihəsinin bağlanış mərasimi olub.*

Gənclər və İdman Nazirliyi, BDU və İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun Avrasiya Regional Mərkəzinin (İƏGF Avrasiya Regional Mərkəzi) birgə tərəfdaşlığı ilə həyata keçirilən layihədə iştirak etmək üçün 15-dən artıq aparıcı ali təhsil müəssisəsini təmsil edən 600-dən çox gənc müraciət edib. Müraciətçilər arasından mövzuya uyğun bilikləri və xarici dil bacarıqları ilə fərqlənən 100 nəfər gənc seçilib.

BDU-da keçirilən bağlanış mərasimində universitetin beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov bildirib ki, İƏT Modeli Beynəlxalq Münasibətlər Akademiyası iki ay davam edən öyrənmə və əməkdaşlıq prosesidir. Beynəlxalq münasibətlər sahəsində peşəkar kadrların hazırlanması dövlətlərin inkişafı baxımından mühüm əhəmiyyət daşıyır və bu layihə gənclərin nəzəri biliklərini praktiki təcrübə ilə birləşdirən mühüm platformadır.

İƏGF Avrasiya Regional Mərkəzinin baş direktoru Rafiq İsmayılov müasir dövrdə beynəlxalq münasibətlər sisteminin sürətlə transformasiya olunduğunu və Azərbaycanın bu prosesdə öz mövqeyini uğurla nümayiş etdirdiyini deyib. Qeyd edib ki, bu kimi layihələr gənclərin gələcək fəaliyyətində mühüm rol oynayır və onların beynəlxalq müstəvidə fəal iştirakına töhfə verir.

Daha sonra "İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Modeli Beynəlxalq Münasibətlər Akademiyası – 2025" layihəsi müddətində keçirilən fəaliyyətləri əks etdirən videoçarx nümayiş etdirilib.

Sonda layihə çərçivəsində fəallığı ilə seçilən tələbələr sertifikatlarla təltif olunublar.

# AMEA-nın müxbir üzvü Məhəmməd Babanlı BDU tələbələrinə ustad dərsi keçib

*Martın 13-də Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Elm və Təhsil Nazirliyinin Kimya İnstitutunun Elmə dəstək şöbəsinin müdiri Məhəmməd Babanlı Bakı Dövlət Universitetinin (BDU) Kimya fakültəsində 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş tədbirlər çərçivəsində "Topoloji izolyatorların kimyası və materialşünaslığının bəzi məsələləri" mövzusunda ustad dərsi keçib.*

Məruzəçi bildirib ki, son illərdə kimya, fizika və materialşünaslığın qovşağında aparılan multidissiplinar elmi araşdırmaların prioritet istiqamətlərindən biri yeni nəsil qeyri-üzvi funksional materialların – topoloji izolyatorların yaradılması və tədqiqidir. Topoloji izolyator materiyanın xüsusi kvant halıdır və bu materiallar həcmdə izolyator kimi davransa da, səthdə yüksək spin-polyarlaşmış keçiriciliyə malikdir. Bu xüsusiyyətlər topoloji izolyatorlar əsasında keyfiyyətcə yeni elektronika sahələrinin – spintronika və topoloji kvant kompüterlərinin yaradılması üçün geniş imkanlar açır. Həmin materialların tibbdə və təhlükəsizlik sistemlərində istifadə olunan terahers detektorlarında, eləcə də kvant kompütinqi əsasında işləyən yeni nəsil cihaz və qurğularda tətbiqi perspektivlidir.

Məhəmməd Babanlı qeyd edib ki, ölkəmizdə qeyri-üzvi materialşünaslıq sahəsində 50 ildən artıqdır elmi-tədqiqat işləri aparılır və güclü elmi məktəb formalaşıb. O, topoloji izolyator materialları sahəsində sistemli tədqiqatların 2011-ci ildən aparıldığını bildirib və bu müddətdə Azərbaycan alimlərinin Avropa Birliyi və Yaponiyanın aparıcı elmi mərkəzləri ilə geniş beynəlxalq əməkdaşlıq əlaqələri qurduğunu vurğulayıb. Əməkdaşlıq çərçivəsində əldə olunan nəticələrin "Web of Science" bazasına daxil olan yüksək impakt faktorlu jurnallarda çap edilmiş 30-dan artıq elmi məqalədə əks olunduğu diqqətə çatdırılıb.

Məruzəçi əlavə edib edib ki, 2019-cu ildə Azərbaycan və müxtəlif ölkələrdən olan alimlərin antiferromaqnit topoloji izolyatorların kəşfinə həsr olunmuş "Antiferromaqnit topoloji izolyatorların proqnozlaşdırılması və müşahidəsi" adlı birgə məqaləsi "Nature" jurnalında dərc olunub. Bu məqalə 2023-cü ildə Pekində keçirilən "International Congress of Basic Science" beynəlxalq elmi konqresində son beş ilin ən yaxşı elmi məqalələrindən biri kimi qiymətləndirilib.

Sonda məruzə ətrafında müzakirələr aparılıb, iştirakçıların suallarına cavablandırılıb.

# BDU-da panel müzakirə: "Urbanizasiya: müasir şəhərlərin çağırışları və perspektivləri"

Urbanizasiya proseslərinin elmi əsaslarla öyrənilməsi, şəhər mühitinin davamlı inkişaf prinsipləri əsasında formalaşdırılması və bu istiqamətdə gənc tədqiqatçıların elmi diskussiyalara cəlb olunması xüsusi əhəmiyyət kəsb edir: "Bugünkü panel müzakirə urbanizasiya proseslərinin yaratdığı çağırışların daha dərindən təhlil edilməsinə, müxtəlif sahələr üzrə mütəxəssislər və gənc tədqiqatçılar arasında fikir mübadiləsinin aparılmasına, müasir şəhərlərin inkişaf perspektivləri ilə bağlı yeni ideya və yanaşmaların formalaşmasına xidmət edir".

*Martın 11-də BDU-nun Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə 27 mart - Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş tədbirlər çərçivəsində "Urbanizasiya: müasir şəhərlərin çağırışları və perspektivləri" mövzusunda panel müzakirə keçirilib.*

Tədbirin moderatoru, BDU TEC-nin sədr müavini Raul İmanov urbanizasiyanın müasir dövrdə qlobal miqyasda ən aktual sosial-iqtisadi və ekoloji proseslərdən biri kimi çıxış etdiyini vurğulayıb. Bildirib ki, şəhərləşmə prosesi yalnız əhalinin şəhərlərdə cəmləşməsi ilə məhdudlaşmır, şəhər infrastrukturunun inkişafı, dayanıqlı planlaşdırma, ekoloji tarazlığın qorunması, sosial xidmətlərin əlçatanlığı və innovativ idarəetmə mexanizmlərinin tətbiqi kimi çoxşaxəli məsələləri də əhatə edir. Urbanizasiya proseslərinin elmi əsaslarla öyrənilməsi, şəhər mühitinin davamlı inkişaf prinsipləri əsasında formalaşdırılması və bu istiqamətdə gənc tədqiqatçıların elmi diskussiyalara cəlb olunması xüsusi əhəmiyyət kəsb edir: "Bugünkü panel müzakirə urbanizasiya proseslərinin yaratdığı çağırışların daha dərindən təhlil edilməsinə, müxtəlif sahələr üzrə mütəxəssislər və gənc tədqiqatçılar arasında fikir mübadiləsinin aparılmasına, müasir şəhərlərin inkişaf perspektivləri ilə bağlı yeni ideya və yanaşmaların formalaşmasına xidmət edir".

Ekologiya və torpaqşünaslıq fakültəsinin Coğrafi ekologiya kafedrasının müdiri, dosent Məhluqə Yusifova "Urbanizasiya və şəhərlərin ekologiyası" mövzusunda məruzə ilə çıxış edərək müasir urbanizasiya proseslərinin ekoloji mühitə təsiri, şəhər landşaftlarının transformasiyası və dayanıqlı şəhər inkişafı məsələlərinə elmi aspektdən toxunub. Məruzədə qeyd olunub ki, urbanizasiya yalnız demoqrafik və iqtisadi proses deyil, təbii ekosistemlərin dəyişməsi, şəhər ekosistemlərinin formalaşması, atmosfer, su və torpaq mühitinə antropogen təsirlərin artması ilə xarakterizə olunan kompleks ekoloji prosesdir. Şəhərlərin sürətli genişlənməsi nəticəsində yaşıl zonaların azalması, hava çirklənməsi və resurslardan qeyri-səmərəli istifadə kimi problemlər aktuallaşır. Bu məsələlərin elmi əsaslarla araşdırılması müasir şəhər ekologiyasının əsas tədqiqat istiqamətlərindən birini təşkil edir. Dosent Məhluqə Yusifova çıxışında bu mövzunun qlobal müstəvidə aktuallığını da vurğulayaraq 2024-cü ildə Azərbaycanda keçirilən COP29 çərçivəsində müzakirə edilən iqlim dəyişmələri, karbon emissiyalarının azaldılması və ekoloji dayanıqlılığın təmin edilməsi kimi məsələlərin şəhər mühitinin idarə olunması ilə birbaşa əlaqəli olduğunu diqqətə çatdırıb. Həmçinin bildirib ki, bu il ev sahibliyi etdiyimiz Ümumdünya Şəhərsalma Forumu – WUF13 kimi beynəlxalq platformada da dayanıqlı urbanizasiya, inklüziv şəhər planlaşdırılması və ekoloji cəhətdən balanslaşdırılmış şəhər mühitinin formalaşdırılması əsas müzakirə mövzularından biri kimi çıxış edir. Qlobal iqlim gündəliyi ilə şəhər inkişafı siyasətlərinin uzlaşdırılması müasir dövrdə həm ekoloji təhlükəsizliyin, həm də dayanıqlı şəhər idarəetməsinin əsas prioritetlərindən biri hesab olunur.

BDU-nun Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinin əməkdaşı, doktorant İmran Bayramov "Azərbaycanda şəhər planlaşdırması və şəhər məskunlaşmasının xüsusiyyətləri" mövzusunda çıxış edib. O, ölkədə urbanizasiya proseslərinin tarixi formalaşma mərhələləri, şəhər məskunlaşmasının məkan xüsusiyyətləri və prinsipləri barədə məlumat verib. Şəhərlərin formalaşmasının yalnız inzibati və iqtisadi amillərlə deyil, həm də coğrafi mövqe, təbii resurslar, nəqliyyat-kommunikasiya şəbəkələri və regional inkişaf strategiyaları ilə sıx bağlı olduğunu bildirib. Azərbaycanda şəhər məskunlaşmasının xüsusiyyətləri regionların sosial-iqtisadi potensialı və əhali axınları ilə müəyyən olunur. İmran Bayramov Azərbaycanın müxtəlif şəhərlərindən nümunələr təqdim edərək urbanizasiya prosesinin regional inkişaf, iqtisadi fəaliyyətin mərkəzləşməsi və infrastrukturun genişlənməsi ilə qarşılıqlı əlaqəsini izah edib, şəhər planlaşdırılmasının müasir tələblərə uyğun şəkildə aparılmasının dayanıqlı şəhər inkişafı baxımından mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

Panel müzakirə çərçivəsində iştirakçılar tərəfindən mövzu ilə bağlı suallar ünvanlanıb, urbanizasiyanın yaratdığı çağırışlar və mümkün həll yolları ətrafında fikir mübadiləsi aparılıb.

# Türkiyənin Hacettepe Universitetinin professorunun BDU-da elmi seminarı

*Martın 11-də Biologiya fakültəsinin Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə 27 mart - Azərbaycan Respublikasında "Elm günü"nə həsr edilmiş silsilə tədbirlər çərçivəsində Türkiyənin Hacettepe Universitetinin professoru, zooloq və entomoloq Ali Demirsoyun "Qlobal istiləşmə" mövzusunda onlayn elmi seminarı keçirilib.*

Məruzədə professor Ali Demirsoy qlobal istiləşmənin ekosistemlərə təsirini elmi-statistik məlumatlar əsasında təhlil edərək bildirib ki, atmosferdə istixana qazlarının konsentrasiyasının artması biosferdə balansın pozulmasına gətirib çıxarır. Qeyd olunub ki, temperatur artımı nəticəsində bioloji müxtəliflik üçün həyati əhəmiyyət daşıyan təbii arealların dəyişməsi müşahidə olunur, bəzi növlərin yayılma arealı daralır, bəziləri isə yeni ərazilərə miqrasiya edir. Bu proses xüsusilə həşərat faunasına təsir göstərərək kənd təsərrüfatı bitkiləri üçün zərərverici növlərin sayında artım riskini yüksəldir. Bildirilib ki, iqlim dəyişiklikləri ilə əlaqədar ekosistemlərdə baş verən bu cür transformasiyalar uzunmüddətli perspektivdə qida təhlükəsizliyi, su ehtiyatlarının qorunması və biomüxtəlifliyin davamlılığı baxımından ciddi çağırışlar yaradır.

Qlobal iqlim dəyişikliyinin Azərbaycan üçün doğurduğu spesifik risklərdən söz açan professor xüsusilə ölkəmizdə su ehtiyatlarının azalması, Xəzər dənizinin səviyyəsinin aşağı düşməsi və kənd təsərrüfatındakı quraqlıq problemlərinə diqqət çəkib. Ekoloji böhranın təsirlərini azaltmaq üçün operativ şəkildə "yaşıl enerji" layihələrinə keçidi sürətləndirməyin və su idarəçiliyində müasir texnologiyaların tətbiqinə yönəlməyin vacibliyini vurğulayıb.

Elmi seminarda iqlim dəyişikliyi ilə mübarizədə Türkiyə təcrübəsinə də toxunulub. Professor Ali Demirsoy bildirib ki, Türkiyədə iqlim dəyişikliklərinin təsirlərinin azaldılması məqsədilə son illərdə elmi-tədqiqat mərkəzləri, universitetlər və dövlət qurumları arasında koordinasiyalı fəaliyyət genişləndirilib. Bu istiqamətdə iqlim modelləşdirilməsi, biomüxtəlifliyin monitorinqi və su ehtiyatlarının səmərəli idarə olunması üzrə bir sıra elmi layihələr həyata keçirilir. Xüsusilə quraqlıq riskinin yüksək olduğu regionlarda suyun təkrar istifadəsi, damcı suvarma texnologiyalarının tətbiqi və alternativ enerji mənbələrinin inkişafı prioritet istiqamətlər kimi müəyyənləşdirilib. Bu təcrübə regional əməkdaşlıq çərçivəsində Azərbaycan üçün də faydalı model kimi qiymətləndirilə bilər.

Sonda Biologiya fakültəsinin TEC sədri Rasim Abbaszadə silsilə xarakter daşıyan elmi seminarların müxtəlif problemlərə aydınlıq gətirilməsi və tələbələrin innovativ elmi yanaşmalarla tanışlığı baxımından faydalı olduğunu bildirib.

# BDU-da "Sülh və gündəlik həyat: antropoloji baxış" mövzusunda elmi seminar keçirilib

*Martın 18-də Tarix fakültəsinin Arxeologiya və etnoqrafiya kafedrasında "Sülh və gündəlik həyat: antropoloji baxış" mövzusunda elmi seminar keçirilib.*

Arxeologiya və etnoqrafiya kafedrasının müdiri, professor Tarix Dostiyev bildirib ki, tarix boyu insanlar, icmalar, tayfalar və dövlətlər arasında baş verən münaqişə və müharibələrin səbəbləri, onların cəmiyyətin sosial və mədəni həyatına təsiri antropoloji baxımdan təhlil edilir. Qeyd olunub ki, cəmiyyətlər arasında təcavüz meyllərinin yaranma səbəbləri insan təbiətindən başlayaraq iqtisadi və siyasi maraqlara qədər geniş spektri əhatə edir.

Seminarda AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun Antropologiya Mərkəzinin rəhbəri, antropologiya elmləri doktoru, professor Əliağa Məmmədlinin məruzəsi dinlənilib. Məruzədə vurğulanıb ki, müharibə və hərbi münaqişələr insanların həyatında ciddi problemlər yaradır. Bu problemlər sırasında fiziki itkilər, sağlamlıq problemləri, psixoloji travmalar, sosial və ailə çətinlikləri, iqtisadi tənəzzül, yoxsulluq və məcburi köçkünlük kimi hallar xüsusi yer tutur. Sülh və əmin-amanlıq dövrü insanların sosial rifahı və inkişafı baxımından daha üstün mövqedə dayanır və müharibələrin vurduğu ziyanın aradan qaldırılması çox vaxt uzun illər tələb edir. Elmi seminarda münaqişə və sülh antropologiyasının əsas istiqamətləri barədə məlumat verilib. Qeyd olunub ki, bu sahə müharibə, zorakılıq və dinc yanaşı yaşama kimi hadisələri təcrid olunmuş proseslər kimi deyil, mədəniyyətə, sosial münasibətlərə və gündəlik həyat təcrübələrinə bağlı olan sosial-mədəni proseslər kimi araşdırır. Antropoloqların münaqişələrin vasitəçilik yolu ilə həllində və münaqişədən sonrakı yenidənqurma prosesində əldə etdikləri təcrübə bu sahənin mühüm istiqamətlərindən biri kimi qiymətləndirilib.

Qeyd edilib ki, antropoloji yanaşmaya görə, sülh təkcə müharibənin olmaması deyil, həm də davamlı mədəni bərpa və yerli ictimai iştirak tələb edən aktiv sosial prosesdir.

Məruzədə Vətən müharibəsinin nəticələrinin Azərbaycan xalqının milli özünüdərk prosesində və kimlik hissinin möhkəmlənməsində mühüm mərhələ olduğu diqqətə çatdırılıb. Bildirilib ki, münaqişə, sülh və cəmiyyətin transformasiyası ilə bağlı məsələlərin elmi baxımdan araşdırılması sosial və mədəni antropoloqlar qarşısında duran vacib vəzifələrdəndir.

Tədbir mövzu ətrafında müzakirələrlə davam edib.

# BDU-da "Urban Talks" layihəsinin növbəti görüşü

*Martın 4-də BDU-da "BDU könüllüləri" təşkilatının "Urban Talks" layihəsi çərçivəsində "Davamlı şəhər turizmi modelləri və Azərbaycanın kiçik tarixi şəhərlərinə inteqrasiyası" mövzusunda görüş keçirilib.*

BDU-nun Protokol sektorunun əməkdaşı, "Urban Talks" layihəsinin rəhbəri Mirhüseyn Tağıyev layihənin məqsədi və təşkil edilən görüşlər barəsində məlumat verib. Bildirib ki, budəfəki görüş layihə çərçivəsində sayca dördüncü tədbirdir və turizmin ətraf mühitə, sosial struktura və mədəni irsə qarşı həssaslığı kimi aktual məsələlərə həsr olunub.




Sonra BDU-nun baş müəllimi, coğrafiya elmləri namizədi və Azərbaycan Ekoturizm Assosiasiyasının həmtəsisçisi Vüqar Dərgahov davamlı şəhər turizmi anlayışının mahiyyəti və müasir şəhərlərin inkişafındakı rolu barədə təqdimatla çıxış edib. O, davamlı turizmin əsas prinsipləri, mədəni irs və ətraf mühitin qorunması, nəqliyyatın optimallaşdırılması, yaşıl zonaların genişləndirilməsi, icmaların inkişafı və inkluziv bərabərlik kimi istiqamətləri diqqətə çatdırıb.

Görüşdə şəhər planlaşdırılması ilə turizm xidmətlərinin əlaqələndirilməsi, yerli biznes və kiçik sahibkarlığa dəstək, smart turizm və rəqəmsal texnologiyaların tətbiqi, eləcə də nəzarət mexanizmləri və turizm göstəricilərinin ölçülməsi məsələləri müzakirə olunub. Təqdimatda Azərbaycanın kiçik tarixi yaşayış məntəqələrində davamlı turizm tətbiqi üzrə idarəetmə modelləri və beynəlxalq təcrübə nümunələri nümayiş olunub. Bildirilib ki, düzgün planlaşdırma və inteqrasiya olunmuş yanaşma turizmin iqtisadi inkişafı gücləndirməsinə, yerli dəyərlərin qorunmasına xidmət edə bilər.

Qeyd edək ki, "Urban Talks" layihəsi şəhərsalma və dayanıqlı inkişaf mövzularında tələbələr üçün interaktiv müzakirə platforması kimi fəaliyyət göstərir.

# BDU-da elmi seminar: "Tarix elmində riyazi metodlardan istifadənin elmi xüsusiyyətləri və əhəmiyyəti"

*Martın 10-da Tarix fakültəsində 27 mart - Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş tədbirlər çərçivəsində "Tarix elmində riyazi metodlardan istifadənin elmi xüsusiyyətləri və əhəmiyyəti" mövzusunda elmi seminar keçirilib.*

Tarix fakültəsinin elmi işlər üzrə dekan müavini Kəmalə Nəcəfova "Elm günü"nün əhəmiyyəti, ölkəmizdə elm sahəsi ilə bağlı dövlət siyasəti haqqında məlumat verib.

Daha sonra Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Aydın Məmmədov mövzu üzrə məruzə edib. O bildirib ki, müasir tarix elmi bir tərəfdən toplanmış təcrübənin ümumiləşdirilməsi, digər tərəfdən nəzəri və konseptual xarakter daşıyan fundamental problemlərin dairəsinin əhəmiyyətli dərəcədə genişlənməsi ilə xarakterizə olunur. Bir sıra tarixi hadisələrin elmi obyektiv təhlili onları ideoloji doqmalardan və subyektivlikdən təmizləməyi, o cümlədən problemə dəqiq elmlərin elmi metodologiyası baxımından yanaşılmasının tələb edir. Məhz bu mənada riyaziyyat tarixçilərə əhəmiyyətli dərəcədə kömək edə bilər. Elmlərin şahı adlandırılan riyaziyyatın digər elmlərin öyrənilməsində də böyük rolu var. Müasir tarix elmində riyaziyyat mürəkkəb problemləri həll etmək üçün ən optimal vasitələrdən biridir. Qədim dövrlərdən bəri insanlar kainatın yaradılışının sirrini riyazi təfəkkürə söykənərək açmağa, izah etməyə cəhd ediblər. Riyazi təfəkkür tərzi nəinki mürəkkəb hesablamalar aparmaqda, sosial-iqtisadi və siyasi-ictimai problemlərə də çevik və rasional yanaşmada misilsiz rol oynayır. Tarix elminin demək olar ki, bütün sahələrində, ayrı-ayrı tarixi obyektlərin tədqiqi zamanı riyazi metodlardan istifadə son dərəcə böyük əhəmiyyət kəsb edir.

# BDU tələbələri istehlakçı hüquqları ilə bağlı maarifləndirilib

*Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi 15 mart – Ümumdünya İstehlakçı Hüquqlarının Müdafiəsi Günü münasibətilə BDU-nun tələbələri üçün açıq dərs təşkil edib.*

Tədbir zamanı istehlakçı hüquqlarının müdafiəsinin ümumi hüquqi, iqtisadi və sosial əsasları barədə tələbələrə məlumat verilib, mövcud qanunvericilik çərçivəsində bu hüquqların müdafiə mexanizmləri izah olunub.

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin mütəxəssisi Ələkbər Həsənov Agentliyin fəaliyyət istiqamətlərini tələbələrin diqqətinə çatdırıb, BDU ilə Agentlik arasında həyata keçirilən birgə tədbirlərdən danışıb.

Agentliyin İstehlak bazarına nəzarət şöbəsinin müdir müavini Azad Məmmədov və İstehlakçı hüquqlarının müdafiəsi şöbəsinin müdir müavini Samir Əliyev "İstehlakçıların əsas hüquqları və onların müdafiə mexanizmləri" mövzusunda təqdimatla çıxış ediblər. İstehlak bazarında pozuntu hallarının qarşısının alınması istiqamətində görülən preventiv tədbirlər və Agentliyin həyata keçirdiyi təşəbbüslər də diqqətə çatdırılıb. Bildirilib ki, istehlakçıların hüquqi savadlılığının artırılması bazarda sağlam münasibətlərin formalaşmasına və hüquq pozuntularının aradan qaldırılmasına mühüm töhfə verir.

İnteraktiv formatda keçirilən açıq dərs zamanı tələbələrə real təcrübədən nümunələr təqdim olunub, onları maraqlandıran suallar cavablandırılıb.

# BDU-da neftlə çirklənmiş suların bio-nanoadsorbentlərlə təmizlənməsinə dair tədqiqatlar aparılır

*Martın 10-da Ekologiya və torpaqşünaslıq fakültəsində fakültəsində 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş tədbirlər çərçivəsində növbəti elmi seminar keçirilib.*

Seminarda Ekoloji kimya kafedrasının doktorantı Ülkər Nağıyeva "Aztullantılı və tullantısız texnologiyanın tətbiqi ilə neftlə çirklənmiş suların bio-nanoadsorbentlərlə təmizlənməsi" mövzusunda məruzə ilə çıxış edib.

Məruzədə qeyd olunub ki, neft və neft məhsulları ilə çirklənmiş sular müasir dövrdə ciddi ekoloji problemlərdən biridir. Doktorant bu sahədə tətbiq olunan müxtəlif təmizləmə üsulları haqqında ədəbiyyat məlumatlarını təqdim edib və apardığı tədqiqatların neftin təmizlənməsi üçün fındıq qabığı və FeO nanohissəcikləri əsasında yeni bio-nanoadsorbentlərin alınması və tədqiqinə həsr olunduğunu vurğulayıb.

Bildirilib ki, fındıq qabığı təbii bitki mənşəli tullantıdır və Azərbaycanda onun böyük həcmdə mövcudluğu bu materialdan səmərəli istifadə imkanlarını artırır. Nanodoldurucu kimi istifadə olunan FeO nanohissəcikləri isə iqtisadi cəhətdən sərfəli olmaqla yanaşı, toksik deyil, güclü superparamaqnit və yüksək sorbsiya xüsusiyyətlərinə malikdir.

Ülkər Nağıyeva fındıq qabığı və FeO nanohissəcikləri əsasında sintez olunan bio-nanoadsorbentlərin hazırlanması, neftlə çirklənmiş suların təmizlənməsi üzrə aparılan tədqiqatlar, həmçinin sorbsiya kinetikasının öyrənilməsi barədə ətraflı məlumat verib.

Vurğulanıb ki, superparamaqnit FeO nanohissəcikləri maqnit sahəsinin kiçik intensivliklərində belə neftin su səthindən toplanmasına və sorbentdən neftin regenerasiya olunaraq təkrar istifadəsinə geniş imkan yaradır. Məruzədə FeO nanohissəciklərinin adsorbsiya qabiliyyəti haqqında da geniş məlumat verilib.

Sintez olunan bio-nanoadsorbentlərin quruluşu müxtəlif müasir tədqiqat metodları – skanedici elektron mikroskopiya, infraqırmızı spektroskopiya, termoqravimetrik analiz və digər üsullar vasitəsilə tədqiq olunub, sorbentlərin quruluşu ilə xassələri arasındakı əlaqə seminar iştirakçılarının diqqətinə çatdırılıb.

Məruzə zamanı aztullantılı və tullantısız texnologiyaların tətbiqinin müasir dövrdə aktual məsələlərdən biri olduğu vurğulanıb. Qeyd edilib ki, Ülkər Nağıyevanın dissertasiya işinə kimya elmləri doktoru, professor Sevinc Hacıyeva və kimya elmləri doktoru, dosent Flora Hacıyeva elmi rəhbərlik edirlər.

# BDU-da Azərbaycanın palçıq vulkanlarının geoekoloji potensialı öyrənilir

*Martın 18-də Ekologiya və torpaqşünaslıq fakültəsində 27 mart – "Elm günü"nə həsr olunmuş tədbirlər çərçivəsində "Azərbaycanın palçıq vulkanlarının geoekoloji potensialı və UNESCO Qlobal Geopark modelinə inteqrasiya perspektivləri" mövzusunda elmi seminar keçirilib.*

Məruzəçi, Coğrafi ekologiya kafedrasının doktorantı Tahir Yunuslu Azərbaycanın palçıq vulkanlarının təbii-landşaft sistemlərində rolu, geoekoloji xüsusiyyətləri və geopark modeli çərçivəsində qiymətləndirilməsinə dair tədqiqatını təqdim edib. Tədqiqat çərçivəsində Abşeron yarımadasında yerləşən 16 palçıq vulkanının məkan yerləşməsi, geomorfoloji xüsusiyyətləri və ekocoğrafi funksiyaları müasir coğrafi informasiya sistemləri və məsafədən zondlama məlumatları əsasında təhlil olunub. Aparılan məkan analizləri nəticəsində palçıq vulkanlarının landşaft formalaşmasında rolu, geokimyəvi proseslərdə iştirakı və biomüxtəliflik üçün yaratdığı xüsusi ekoloji şərait müəyyən edilib.

Aparılan tədqiqatların nəticələrinə əsasən, palçıq vulkanlarının geopark modeli çərçivəsində qiymətləndirilməsi üçün ekocoğrafi yanaşma tətbiq edilib, bir sıra vulkanların elmi, ekoloji və turizm potensialı müəyyənləşdirilib. Eyni zamanda, onların geoloji irs obyekti kimi qorunmasının və geoturizm istiqamətində istifadəsinin regionların sosial-iqtisadi inkişafına töhfə verə biləcəyi vurğulanıb.

Sonda seminarda tədqiqatın əsas nəticələri və perspektiv istiqamətləri təqdim olunub, palçıq vulkanlarının geopark konsepsiyası çərçivəsində qiymətləndirilməsinin Azərbaycanın təbii irsinin qorunması və beynəlxalq səviyyədə tanıdılması baxımından mühüm əhəmiyyət kəsb etdiyi diqqətə çatdırılıb.

# Xoş sözlər danışılan, küsülüləri barışdıran İlaxır çərşənbə

***Novruz çərşənbələrin sonuncusu özünün təntənəsi, ayin və inancları ilə digər çərşənbələrdən seçilən Torpaq çərşənbəsidir. Bu çərşənbə müxtəlif regionlarda “Axır çərşənbə”, “Böyük çərşənbə”, “Yer çərşənbəsi”, “İlaxır çərşənbə” kimi adlarla tanınır.***

İlaxır çərşənbə torpağın qış yuxusundan ayılması, əkinçilik həyatının başlanğıcını rəmzləşdirir. Hətta bir sıra bölgələrdə, o cümlədən Naxcıvan, Ərdəbil və s. ərazilərdə özünün təntənəsi ilə Novruz şənliyinin özünü belə kölgədə qoyur. İnanclarda özünü kult şəklində göstərmiş torpaq canlı varlıq hesab edilib, müqəddəsləşdirilib. Axır çərşənbə günü havanın necə olmağından asılı olmayaraq, insanlar əkin sahələrinə, bağlara yollanar, ağacların dibini belləyər, torpağı şumlayardılar. Burada məqsəd torpağı yuxudan oyatmaq və əkinçilik vaxtının yetişdiyini xəbər verməkdir. Bu çərşənbə günü yeri murdarlamaq, suya, oda, torpağa tüpürmək günah sayılır. ”Həmin gün qan tökülsə, elin başı il boyu bəlalar çəkər” – deyərlər. İlaxır çərşənbədə torpağa elə qulluq olunur ki, onun ruhu razı qalsın. Torpaq çərşənbəsindəki torpaq ruhu torpağın sahibi olan əyədir. Bu çərşənbədə torpağa qulluq edilməsi onun sahibi olan torpaq əyəsinə hörmət, ehtiram göstərilməsi deməkdir. İnsanlar bunun müqabilində xeyir-bərəkət, bol məhsul diləyirlər.

İlaxır çərşənbə səhər tezdən insanlar su üstünə gedər, suya salam verib, “ağırlığım, qada-bəlam tökül” deyə-deyə 3 dəfə suyun üstündən hoppanarlar. Sonra sudan bir səhəng doldurub gətirər, həyət-bacaya, ev-eşiyə, mal-qara üstünə səpərlər. Bu, ilin xoş keçməsi, ağrı-acının olmaması istəyini ifadə edir. Axır çərşənbə gününün səhəri bulaqdan gətirilən xırda daşların xeyir-bərəkət vermə gücünə inam da torpaq kultu ilə birbaşa bağlıdır.

İlaxır çərşənbələrlə bağlı bütün mərasimlər, adət-ənənələr yenilənməyə, təzələnməyə xidmət edir. Ağac qorxutma ayini ilaxır çərşənbədə icra olunan magik mahiyyətli ənənələrdəndir. Bu ayin bağ-bağçanın təzələnməsinə xidmət edir. Bağdakı bir meyvə ağacı bar vermədikdə bağın sahibi əlinə balta alıb ağacın yanına gəlir, üzünü ağaca tutaraq deyir ki, əgər bu il bar gətirməsən, səni kəsəcəyəm, başqa bir nəfər ağacı qorxudan baltalı şəxsi dayandıraraq deyir ki, kəsmə, mən zamin dururam, gələn il bol məhsul verəcək.

İlaxır çərşənbənin əvəzolunmaz atributlarından biri tonqal qalamaqdır. İnsanlar “ağırlığım, ağrım-acım, qada-bəlam bu oda” deyib ilaxır çərşənbə tonqalının üzərindən tullanırlar. Həmin vaxt icra olunan nəğmələr odun təmizləyici, paklaşdırıcı gücünü təcəssüm etdirən alqış və dualardır. İnsanlar ilaxır çərşənbə tonqalına üzərlik atmaqla, ev-eşiyi, mal-qaranı, ailə üzvlərini bədxah güclərin nəzərindən qoruduqlarına inanardılar. Axır çərşənbə tonqalının özünəməxsus cəhətləri var. Belə ki, axır çərşənbə tonqalındakı od əcdadların şərəfinə yandırılır. Onlar həmin axşam tonqalın oduna yığışırlar. Axır çərşənbə odu bir tərəfdən şər qüvvələri, şər ruhları evdən-ailədən uzaqlaşdırırsa, digər tərəfdən insanları hər cür ağırlıqdan, qada-bəladan, çətinliklərdən, uğursuzluqlardan təmizləyir. Bayramın hər hansı günündə yandırılan tonqalın odu belə bir gücə malik deyil. Axır çərşənbə tonqalı ilə Novruz bayramı tonqalı arasında fərq var. Axır çərşənbə tonqalı getməkdə olan köhnə ili yola salmaq üçün, Novruz tonqalı isə artıq daxil olmuş yeni ilin şərəfinə yandırılır. İnsanlar axır çərşənbə odu ilə çillədən, köhnə ilin ağrı-acısından təmizlənir və yeni il tonqalının ətrafına çillədən təmizlənmiş halda yığışıraq, ondan bərəkət istərlər. Axır çərşənbə gecəsi göyə lopa atmaq adəti də var. İnsanlar göyün üzünə lopa atıb onu işığa qərq etməklə, göyü-səmanı da hər cür pisliklərdən, köhnə ilin ağırlıqlarından təmizləmək istəyirlər.



İnanclarda xüsusilə axır çərşənbə gecəsinin suyundan bəhs olunur. Bu su qeyri-adi, möcüzəli sudur, o, dərd-bəlanı yox edir, xeyir-bərəkət verir. Suyun aydınlıq, paklıq funksiyası olduğundan ilin axır çərşənbəsində bir sıra bölgələrimizdə, o cümlədən Göyçədə hamı bir-birinin üstünə su çiləyir ki, təzə il onlar üçün uğurlu olsun.

Axır çərşənbə suyunun dirilik suyu ilə müqayisə edilməsi bu suyun şəfa verməsinə inam ilə bağlıdır. Naxçıvan bölgəsinin inanclarına görə, ilaxır çərşənbə suyundan güllərin dibinə tökər və saxlayarmışlar. Evdə xəstə olanda isə suya “Qurani-kərim”dən ayə oxuyar, sonra suyu xəstəyə içirdərlər. O zaman xəstə sağalar. Axır çərşənbə suyunun insanlara şəfa verməsinə inanılırdı. İnanca görə, ilin axır çərşənbəsində gecə yarısı yuyunub paklanandan sonra axar suyun qırağında oturub niyyətini ona danışsan, öz istəyinə çatarsan. Dərdini, azarını, ağrını suya söyləsən, su gecə vaxtı hamısını özü ilə aparar.

Novruz suyunun tale söyləmək gücünə də inanılırdı. İlaxır çərşənbədə bir subay oğlana iki boşqab verib suya yollayırlar. Tapşırırlar ki, boşqablardan birini su ilə doldursun. Əgər oğlan sağ əlindəki qabı doldurub gətirsə, niyyəti hasil olar.

Buraya küsülülərin axır çərşənbə suyu ilə barışdırılması adəti də daxildir. Şəkidə çərşənbə axşamlarında küsülülərin barışdırılması mərasimi keçirilir. İlk addım bulaq başında atılır. Bir-birini uzun müddət danışdırmayan qızları araya alır, onlar səhənglərini dəyişdirməyincə əl çəkmirlər. Hər ikisini çimdikləyirlər. Üstlərinə sərin su atırlar. Sonra biri o birinin qabına su doldurub qabağına qoymalıdır, qız elə oradaca barışmaq istəyirsə, küsülü rəfiqəsinin üstünə su çiləyir. Bulaq başında barışanların bir-birinə münasibəti su kimi şəffaf və aydın olur.

Axır çərşənbədə dünyadan köçənlərin ruhu bir anlığa evinə, oğul-uşağına, qohum-əqrabasına baş çəkməyə gəlir. Axşama qədər ev-eşikdə, qapı-bacada xoş ovqatlı, üzügülər olmaq, ətirli-dadlı yeməklərdən bişirmək gərəkdir ki, uluların ruhu gəlib özlərindən sonrakıların gün-güzəranını xoş görsün, qayıdıb arxayın gedə bilsin. Bəzi bölgələrimizdə ilaxır çərşənbədə ulular adını anmaq, ruhlarını şad eləmək üçün evdəki şirin-şəkərdən pay ayırıb qəbir üstünə getmək, “Yasin” surəsini oxutdurmaq savab sayılır.

Axır çərşənbə ayinləri od kultunun ruhlarla bağlı olduğunu göstərir. İnanc mətnlərindən birində deyilir ki, ilin axır çərşənbəsində ürəyində niyyət tutub yat. Gecə yarısı yuxudan durub şamı yandır və onu güzgüyə yaxınlaşdır. Güzgüdə gələcək nişanlını görəcəksən. Güzgüyə yaxınlaşanda qorxsan, niyyətin baş tutmaz.

İlaxır çərşənbənin əsas adətlərindən biri də qurşaqsallama, şalsallama, torba atmaq, baca-baca və ya papaqatdı adətidir.

Bu ayinin məqsədi bir tərəfdən bayrampayı yığmaqdırsa, digər tərəfdən magik mahiyyətli bəxtsınama adətidir. Sevdiyi qızların evinə şal, qurşaq, papaq atan oğlanlar verilən paydan qızın anasının, qızın bu sevgiyə münasibətini öyrənərdilər. Ona görə bəxtlərinə axır çərşənbə gecəsi hansı xəbərin çıxacağını həyəcanla gözləyərdilər. Cavab qoyulan payın çoxluğundan bəlli olardı.

İlaxır çərşənbə ayinlərinin bir çoxu səməni ilə bağlıdır. Onlardan biri səməni nəziri adətidir. Qəlbində niyyəti olan adam böyük tabaqlara buğda töküb göyərdər, sonra əzib şirəsini çıxarar, şirəyə bir az su töküb iki-üç gün qaynatdıqdan sonra qoz-fındıq ləpəsi qatar, xonça sinilərinə töküb yayar, evə aparmayıb, həyətdə saxlayardılar. Gecə yatmayıb, niyyətin qəbul olunması haqqında dua edərdilər. Səhər baxılan bişmişin dadı şirin çıxardısa, deməli, niyyəti qəbul olunub.

İlaxır çərşənbə axşamı hər kəs çalışır ki, öz evində, ailəsi ilə birlikdə bayram süfrəsinin arxasında otursun. İnanca görə, ilaxır çərşənbə günü öz evində olmayan yeddi il ev-eşiyindən, rahatlığından ayrı düşər. İlaxır çərşənbə günü nişanlı qızlara, yeni ailə qurmuş gənc ailələrə bayram xonçası aparılar.

Novruz falları əsasən axır çərşənbə ilə bağlıdır. Fallar niyə məhz axır çərşənbə, məhz yeni il qabağı icra edilir? Bir çox tədqiqatçıların fikrincə, illərin qovuşduğu vaxt xalq arasında qorxulu bir dövr hesab edilir. Bu qorxulu dövrdə bütün qara qüvvələr öz sonlarının yaxınlaşdığını duyaraq son gecə əyləncələrinə toplaşırlar. Fal da məhz həmin dövrə təsadüf edir. Bir çox xalqlarda çərşənbə axşamı ağır, nəhs gün hesab edilib, xeyir iş görmək yasaq olunub. Çərşənbə gününün nəhs gün olması zərbməsəldə də öz əksini tapır: ”Nə sən gəl, nə ilin axır çərşənbəsi”. Bədxah ruhların falda iştirakı vacib olduğundan fal bu dövrdə icra olunur. Şər ruhların fəal olduğu dövrdə, xüsusilə gecələr və şər qarışanda onları sevindirə biləcək bir hərəkət etmək, məsələn, ağlamaq, əli qoynunda oturmaq və s. əski etiqadlara görə günahdır. Bu dövrdə gülmək, şadyanalıq etmək vacib sayılır. İnsanlar müxtəlif əyləncələr keçirməklə bədxah qüvvələrə meydan oxumuşlar.

İlaxır çərşənbə inamları, falları olduqca zəngindir. Bu inamlardan birində deyilir ki, axır çərşənbə axşamında bir neçə parça kömürü, bir ovuc duz və bir-iki dənə də qara pulu bir kuzəyə qoyub damdan atarlar. Deyilənə görə, kömür qara günlərin, duz acgözlüyün, qara pul isə yoxsulluğun əlamətidir. Onları kuzəyə qoyub damdan atmaqda məqsəd qara gündən, yoxsulluqdan canını qurtarmaq arzusu ilə bağlıdır. İlaxır çərşənbə inamlarının bir çoxu insanların bol məhsul, bərəkət arzusu ilə bağlıdır. Belə ki, axır çərşənbə gecəsinin səhəri evin damına buğda atarlar ki, bərəkət artıq olsun və ya axır çərşənbədə un çuvalının ağzını açıq qoyarlar ki, bərəkət paylananda bağlı qalmasın.

İlaxır çərşənbədə hava qaralanandan sonra qulaq falına və ya qapıpusmaya çıxarlar. Ürəyində niyyət tutub və özü ilə bir qab su, güzgü, açar götürüb qonşu qapılarına gedərlər. Eşidilən ilk sözlə niyyət arasında uyğunluq varsa, arzu, istək də həyata keçəcək. Başmaq falında isə ilaxır çərşənbə gecəsi ərgən qızlar evin qapısında arxası qapıya durub ayaqlarındakı ayaqqabının sağ tayını sağ əllə sağ çiynindən geriyə doğru atarlar. Əgər ayaqqabının burnu qapıya tərəf düşsə, demək, yaxın vaxta həmin qız ərə gedəcək və səadətinə qovuşacaq. İlaxır çərşənbədə icra olunan fallardan biri də “iynə falı”dır. Su dolu kasaya uclarına pambıq sarınmış iki iynə salırlar. Suda üzən iynələr ulduz tərəfdən bir-birinə yaxınlaşsa, bu, niyyət tutanın istəyinə çatacağına işarədir. İlaxır çərşənbə gecəsində icra olunan fallardan biri də “üzüksalma” adlanır. Həmin çərşənbədə ərgən qızlar falı icra etmək üçün bir evə yığışıb, dilək tası qurardılar. Ortalığa dərin bir mis qab qoyular, hər qız öz üzüyünü həmin qabın içinə atar. Üzükləri qabın içində iki-üç kərə qarışdırıb, balaca bir oğlan uşağını da məclisə gətirərdilər. Uşağa deyərdilər ki, indi biz növbə ilə bayatı oxuyacağıq. Hər dəfə bayatı oxunub başa çatan kimi tasın içindəki üzüklərdən birini götürərsən. Bayatıdan sonra kimin üzüyü qabdan çıxarılarsa, onun diləyi həmin bayatıdakı mətləbə yaxın bir axarda yozulardı.

İlin axır çərşənbəsində kuzə falı, alma falı, cıdır falı, şam falı, həmçinin bir sıra oyunlar, o cümlədən “Bənövşə”, ”Beşdaş”, “Papaqapdı”, “Cıdır” və s. oyunlar, “Xanbəzəmə”, ”Kosa-kosa” və s. tamaşalar oynanılır. Bu tamaşalar bütün hallarda ilin dəyişməsi - qışın getməsi və yazın qarşılanması ilə bağlıdır.

İlaxır çərşənbə süfrəsində düzəldilən xonçaya yeddiləvin // yeddilöyün (“yeddi növ” deməkdir) deyilir. Xonça sini və məcməyiyə düzülmüş yeddi cür nemət – çörək, duz, üzərlik, kömür, güzgü, su və yumurtadan ibarət olur. Bu zaman süfrədə şirniyyat, çərəz, şam, səməni və s. olmalıdır. Azərbaycanın bəzi bölgələrində, xüsusilə Ordubadda ilaxır çərşənbə “yeddiləvin bayramı” adı ilə məşhurdur. Bu bayramda bazardan hər nə alınsa, yeddi növ olmalıdır. İlaxır çərşənbə və Novruz bayramı süfrəsi üçün tutulmuş “yeddi sin” xonçasında “s” hərfi ilə başlayan yeddi təam olmalıdır: su, səməni, sünbül, sumaq, soğan, sulaq, sarımsaq. Bəzi tədqiqatçıların fikrincə, “yeddi sin” xonçasında yalnız şirin şeylər - su, səməni, sünbül, süd, səbzi, səməni halvası və sucuq olmalıdır. Ərdəbildə “yeddi sin” xonçasına qoyulanlar aşağıdakı rəmzi mənaları bildirir: sirkə - güc, sarımsaq - səhhət, səbzi - ümid, sumaq - niyyət, bolluq, sikkə - zənginlik, saat - uzun ömür, su - aydınlıq.

Qoy İlaxır çərşənbə xalqımıza səadət dolu gözəl günlər gətirsin! Süfrəniz ruzi-bərəkətli, arzu və istəkləriniz çin olsun! İlaxır çərşənbəniz mübarək olsun!

***Məhəmməd Məmmədov***
*Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti*

# BDU-da Məzunlar Cəmiyyətinin növbəti seminarı - "İKT sahəsində təşkilati davranış və idarəetmə"

***Martın 5-də Bakı Dövlət Universitetinin Məzunlar Cəmiyyətinin IV seminarı keçirilib.***

"İKT sahəsində təşkilati davranış və idarəetmə" mövzusunda keçirilən seminarın qonaqları BDU məzunları – "Megasec" MMC-nin direktoru Qabil Qasımov, icraçı direktoru Ayan Etibar və şirkətin biznesin inkişafı üzrə meneceri Arzu Rəhimli Dadaşova olub.

Universitetin sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev bildirib ki, indiyədək BDU ölkəmiz üçün 200 mindən artıq yüksəkixtisaslı kadr yetişdirib. Bu gün ölkədə ictimai-siyasi, iqtisadi, sosial, mədəni həyatın elə bir sahəsi yoxdur ki, BDU məzunları orada əsas rol oynamasınlar: "Məzunlarımız istehsalatdan tutmuş idarəetməyə, elmdən biznesə qədər bütün sahələrdə fəal şəkildə təmsil olunurlar. BDU-nun Məzunlar Cəmiyyəti isə xüsusilə ölkənin sosial-iqtisadi inkişafında seçilən məzunlarımızın karyera yolları, uğur hekayələrinin tələbələrimizlə bölüşməsi baxımından mühüm platformadır".

Prorektor qeyd edib ki, bu cür seminarlar tələbələrin real iş mühiti haqqında biliklərini artırır, onların gələcək peşə seçimlərinə müsbət təsir göstərir və universitet-məzun əlaqələrinin




davamlılığını təmin edir. O, son illər ölkədə rəqəmsallaşma, informasiya texnologiyaları sahəsinin yüksək sürətlə inkişaf etdiyini, "Megasec" MMC-nin süni intellekt və İT həllər üzrə nüfuzlu şirkətlərdən biri olduğunu diqqətə çatdırıb.

"Megasec" MMC-nin direktoru Qabil Qasımov çıxışında şəxsi inkişafının təməlinin məhz Bakı Dövlət Universitetində qoyulduğunu qeyd edib. O, universitet illərində qazandığı biliklərin, formalaşan analitik düşüncə tərzinin və müəllimlərin verdiyi istiqamətin bu gün peşəkar fəaliyyətində mühüm rol oynadığını bildirib. Qabil Qasımov müasir dövrdə sürətlə inkişaf edən texnologiyaların yalnız texniki yenilik kimi deyil, insanların gündəlik həyatını asanlaşdıran, biznes proseslərini optimallaşdıran və idarəetmədə effektiv qərarların verilməsində əsas rol oynayan mühüm alətə çevrildiyini diqqətə çatdırıb. O, xüsusilə informasiya təhlükəsizliyinin rəqəmsal transformasiya dövründə prioritet məsələ olduğunu qeyd edərək, bu sahədə ixtisaslı mütəxəssislərə olan tələbatın artdığını bildirib. Qabil Qasımov rəhbərlik etdiyi şirkətin 78 əməkdaşından 48-nin, İdarə Heyətində təmsil olunanların isə hamısının BDU məzunu olduğunu diqqətə çatdırıb, tələbələrə uğurlu karyera qurmaq üçün yalnız nəzəri biliklərlə kifayətlənməməyi, praktiki bacarıqlar əldə etməyi, daim öz üzərlərində işləməyi, məsuliyyətli olmağı, vaxtlarını düzgün planlamağı, qrup halında işləməyə üstünlük verməyi tövsiyə edib.

Seminarın davamında "Megasec" MMC-nin icraçı direktoru Ayan Etibar və şirkətin biznesin inkişafı üzrə meneceri Arzu Rəhimli Dadaşova müasir texnologiya dövründə rəqəmsal transformasiyanın idarəetməyə təsiri, eləcə də rəhbər və işçi münasibətlərində etimad amilinin əhəmiyyətindən bəhs ediblər. Bildiriblər ki, texnologiyanın sürətli inkişafı bir tərəfdən iş proseslərini asanlaşdırsa da, digər tərəfdən düzgün idarə olunmadıqda etibarın azalması, kommunikasiya boşluqları və informasiya təhlükəsizliyi riskləri yarada bilər.

Çıxışlar zamanı texnologiyadan istifadə zamanı yaranan risklərin minimuma endirilməsi, korporativ mühitdə sağlam iş münasibətlərinin qorunması və insan faktorunun önəminin itirilməməsi xüsusi vurğulanıb. Eyni zamanda, məhsulların texnologiya dövründə bazara çıxarılması strategiyaları, innovativ yanaşmaların tətbiqi, müştəri ehtiyaclarının düzgün analiz edilməsi və rəqabət mühitində davamlı inkişaf mövzularına da toxunulub. Spikerlər real iş təcrübələrindən nümunələr təqdim edərək tələbələrlə praktiki biliklərini bölüşüblər.

BDU rektorunun rəqəmsallaşma və informasiya texnologiyaları üzrə müşaviri Güman Qarayev çıxışında bu cür seminar və görüşlərin mütəmadi olaraq təşkil olunacağını bildirib, Universitetdə rəqəmsallaşma istiqamətində görülən işlərdən danışıb. Güman Qarayev qeyd edib ki, tələbələrin informasiya texnologiyaları sahəsində bilik və bacarıqlarının artırılması, onların real iş mühiti ilə daha yaxından tanış olması üçün İT yönümlü təcrübə və əməkdaşlıq imkanları bundan sonra da genişləndiriləcək.

Sonda tələbələrin çoxsaylı sualları cavablandırılıb.

# BDU-da elmi seminar: "Qafqazda müasir çağırışlar: süni intellekt, elm və innovasiya"

***Martın 5-də Tarix fakültəsinin Qafqaz xalqları tarixi kafedrasının təşkilatçılığı ilə "Qafqazda müasir çağırışlar: süni intellekt, elm və innovasiya" mövzusunda elmi seminar keçirilib.***

Kafedranın müdiri, tarix elmləri doktoru, professor İradə Hüseynova bildirib ki, Avropa və Asiyanın kəsişməsində yerləşən Cənubi Qafqaz regionu həm geosiyasi, həm də mədəni və iqtisadi baxımdan mühüm əhəmiyyətə malikdir. Strateji kommunikasiya xətlərinin kəsişməsində yerləşməsi və zəngin enerji resurslarına malik olması regionun geosiyasi rolunu daha da artırır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən irəli sürülən müasir inkişaf çağırışları Cənubi Qafqazda post-münaqişə mərhələsində davamlı sabitliyin təmin olunmasına, regional əməkdaşlıq mexanizmlərinin gücləndirilməsinə və təhlükəsizlik arxitekturasının elmi-nəzəri əsaslar üzərində yenidən formalaşdırılmasına yönəlib. Bu kontekstdə süni intellekt sahəsində elmi və institusional problemlərin təhlili, prioritet istiqamətlərin müəyyənləşdirilməsi və gələcək perspektivlərin qiymətləndirilməsi xüsusi aktuallıq kəsb edir.

Sonra AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Bəxtiyar Həsənov mövzu ilə bağlı məruzə edib. Bildirib ki, müasir dövrdə qlobal dəyişikliklərin mərkəzində rəqəmsal transformasiya, süni intellekt, elmi inkişaf və innovasiya dayanır. Qafqaz regionu da bu proseslərdən kənarda qalmır və yeni texnologiyaların tətbiqi, innovativ iqtisadiyyatın qurulması, elmi potensialın gücləndirilməsi baxımından mühüm mərhələyə qədəm qoyur. Vurğulanıb ki, süni intellekt elmi tədqiqatların metodologiyasına ciddi təsir göstərərək məlumatların təhlilini avtomatlaşdırıb, tədqiqatların sürətini artırıb və daha mürəkkəb problemlərin araşdırılmasına imkan yaradıb. Bununla yanaşı, bəzi ekspertlər mümkün risklər və mənfi təsirlərlə bağlı da xəbərdarlıqlar edirlər.

Məruzədə qeyd olunub ki, regionun əsas müasir çağırışları sırasında geosiyasi transformasiya, post-münaqişə dövründə bərpa, iqtisadi inteqrasiya, ekoloji təhlükəsizlik, sülhün möhkəmləndirilməsi, regional əməkdaşlıq modellərinin inkişafı və rəqəmsal iqtisadiyyata keçid üçün birgə tədqiqatların aparılması xüsusi yer tutur. Azərbaycan, Gürcüstan və Ermənistan süni intellekt strategiyaları və elmi potensialın artırılması istiqamətində müxtəlif proqramlar həyata keçirirlər.

Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev tərəfindən "Azərbaycanın 2025–2028-ci illər üçün Süni İntellekt Strategiyası", "Uşaqların rəqəmsal mühitdə zərərli məzmun və təsirlərdən qorunması ilə bağlı tədbirlər haqqında" və "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının yaradılması haqqında" mühüm sənədlər imzalanıb. Şuraya Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sədrlik edir.

Sonda mövzu ətrafında fikir mübadiləsi aparılıb.

# BDU-da ağır psixi pozuntuları olan pasiyentlərin psixososial reabilitasiyası problemi tədqiq olunur

***Martın 11-də Sosial elmlər və psixologiya fakültəsinin Psixologiya kafedrasında "Azərbaycanda ağır psixi pozuntuları olan pasiyentlərin psixoloji ehtiyacları və psixososial reabilitasiyanın tədqiqi problemi" mövzusunda elmi seminar keçirilib.***

Kafedranın doktorantı Səyyarə Yusubova mövzu üzrə məruzə edib. Məruzəçi ağır psixi pozuntuları olan pasiyentlərin psixoloji və sosial ehtiyaclarını, onların cəmiyyətə uyğunlaşması prosesində qarşılaşdıqları çətinlikləri və psixososial reabilitasiyanın bu prosesdə oynadığı mühüm rolu diqqətə çatdırıb. Qeyd edib ki, ağır psixi pozuntuların yalnız tibbi deyil, sosial və psixoloji aspektlə-



rinin də kompleks şəkildə öyrənilməsi zəruridir. Bu kateqoriyadan olan pasiyentlərin psixoloji ehtiyaclarının müəyyənləşdirilməsi onların emosional sabitliyinin təmin olunması, sosial münasibətlər sisteminə adaptasiyası və həyat keyfiyyətinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Psixososial reabilitasiyanın müasir elmi yanaşmaları, bu sahədə beynəlxalq təcrübə və onların Azərbaycanda tətbiqi imkanlarından da danışan Səyyarə Yusubova psixososial reabilitasiyanın yalnız klinik müalicə ilə məhdudlaşmadığını, pasiyentlərin sosial bacarıqlarının inkişaf etdirilməsi, əmək fəaliyyətinə cəlb olunması, ailə və cəmiyyətlə münasibətlərinin bərpası kimi mühüm komponentləri də özündə ehtiva etdiyini, bu baxımdan multidissiplinar yanaşmanın – psixiatr, psixoloq, sosial işçi və digər mütəxəssislərin birgə fəaliyyətinin vacibliyini xüsusi vurğulayıb.

Seminarda həmçinin Azərbaycanda ağır psixi pozuntuları olan şəxslərin psixoloji ehtiyaclarının öyrənilməsi istiqamətində aparılan elmi tədqiqatların mövcud vəziyyəti təhlil edilib, psixososial reabilitasiya xidmətlərinin institusional inkişafı və bu sahədə elmi-metodoloji bazanın gücləndirilməsinin zəruriliyi diqqətə çatdırılıb. Eyni zamanda, pasiyentlərin cəmiyyətə reinteqrasiyası prosesində sosial dəstək mexanizmlərinin formalaşdırılması, stiqma və diskriminasiya hallarının azaldılması, eləcə də psixi sağlamlıq sahəsində profilaktik və reabilitasiya yönümlü proqramların genişləndirilməsinin əhəmiyyəti qeyd olunub.

Seminar çoxsaylı sualların cavablandırılması ilə başa çatıb.

# BDU və “PROSOL” QSC arasında əməkdaşlıq imkanları müzakirə olunub

***Martın 4-də BDU-nun Karyera və məzunlarla iş Mərkəzi və “PROSOL” QSC-nin əməkdaşları arasında görüş keçirilib.***

Görüşün məqsədi universitet–şirkət əməkdaşlığının genişləndirilməsi, tələbələrin əmək bazarına hazırlığının artırılması və rəqəmsal bacarıqlarının inkişaf etdirilməsi istiqamətində birgə layihələrin müzakirəsi olub.

Görüş zamanı Mərkəzin nümayəndələri Universitetdə həyata keçirilən karyera yönümlü layihələr, tələbə və məzunların peşəkar inkişafına xidmət edən proqramlar, işəgötürənlərlə qurulan əməkdaşlıq mexanizmləri barədə ətraflı məlumat veriblər. Tələbələrin real iş mühiti ilə tanışlığının artırılması,



praktiki bilik və bacarıqlarının inkişaf etdirilməsi üçün şirkətlərlə birbaşa əlaqələrin əhəmiyyəti vurğulanıb. Mərkəz əməkdaşları tərəfindən “Rəqəmsal Tələbə İnkişaf Proqramı”, “Rəqəmsal Bacarıqlar Bootcampı” və “Mentorluq proqramı” kimi layihə istiqamətləri üzrə əməkdaşlıq təklifləri, həmçinin tələbələrin istehsalat təcrübəsinə cəlb edilməsi məsələləri irəli sürülüb.

“PROSOL” QSC-nin nümayəndələri şirkətin fəaliyyəti, həyata keçirdiyi layihələr və xüsusilə kibertəhlükəsizlik sahəsində gördüyü işlər barədə təqdimatla çıxış ediblər. Bildirilib ki, şirkət ali təhsil müəssisələri ilə əməkdaşlığa xüsusi önəm verir və gənclərin bu strateji sahədə maarifləndirilməsini prioritet hesab edir. Rəqəmsallaşma və süni intellekt sahələri üzrə birgə layihələrin həyata keçirilməsinin mümkünlüyü qeyd edilib. Şirkət nümayəndələri tələbələr üçün ustad dərsləri və “workshop”ların təşkili, universitetdə müasir rəqəmsal laboratoriyaların yaradılması istiqamətində dəstək ola biləcəklərini vurğulayıblar.

Tərəflər əməkdaşlığın davamlı xarakter alması, tələbələrin müasir əmək bazarının tələblərinə uyğun hazırlanması və kibertəhlükəsizlik kimi strateji sahədə ixtisaslı kadrların formalaşdırılmasının vacibliyini qeyd ediblər.

# BDU-da ustad dərsi: “Manas” eposu və türk dastançılıq ənənələri”



***Martın 5-də İnformasiya və sənəd menecmenti fakültəsində 27 mart – Azərbaycan Respublikasında “Elm günü” ilə bağlı silsilə tədbirlər çərçivəsində professor-müəllim heyətinin və tələbələrin iştirakı ilə ““Manas” eposu və türk dastançılıq ənənələri” mövzusunda ustad dərsi keçirilib. Ustad dərsində Beynəlxalq Aytmatov Akademiyasının fəxri üzvü, manasşünas alim Adil Cəmil mövzu üzrə məruzə edib.***

Məruzədə dünya ədəbiyyatında həcmcə ən böyük epos nümunəsi olan “Manas” dastanı haqqında geniş məlumat verilib, qırğız türklərinin ərsəyə gətirdiyi bu zəngin abidənin yalnız türk dünyasının deyil, dünya xalqlarının şifahi ədəbiyyatındakı yeri və mövqeyi təhlil edilib. Qeyd olunub ki, türk xalqlarının tarixini, qəhrəmanlığını və əyilməziyini, adət-ənənələrini yaşadan, gələcək nəsillərə ötürən “Manas” eposu bu gün türk birliyinin möhkəmləndirilməsində mühüm rola malikdir. Məruzəçi vurğulayıb ki, 1995-ci ilin avqustunda Qırğızıstanda “Manas” dastanının 1000 illiyinə həsr olunmuş yubiley tədbirində Ulu Öndərimiz Heydər Əliyev bu möhtəşəm abidə haqqında yüksək fikirlər söyləyib, dastanı Azərbaycan xalqının da mədəni, mənəvi sərvəti hesab edib. Ulu Öndər tarixi çıxışında deyirdi: ““Manas” qırğız xalqının böyük mədəni və mənəvi sərvətidir, bütün dünya sivilizasiyasının, bəşəriyyətin dəyərli sərvətidir, türk dünyasının, türkdilli xalqların, İslam dünyasının böyük mənəvi sərvətidir. “Manas” eyni zamanda Azərbaycan xalqına məxsusdur, Azərbaycan xalqının da mənəvi, mədəni sərvətidir. Manas bizim hamımızın, xalqlarımızın hamısının ulu babasıdır”.

Məruzədə dastanın elmə məlum olan variantları, müxtəlif dillərə tərcümələri, bu istiqamətdə aparılmış tədqiqat işləri barədə dolğun informasiyalar diqqətə çatdırılıb. “Manas”ın nəşr tarixindən bəhs edən məruzəçi bildirib ki, eposun bir neçə boyu ilk dəfə 1856-cı ildə Qazax ziyalısı Çokan Valixanov tərəfindən yazıya alınıb: “Akademik Radlov 1885-ci ildə eposu alman dilinə çevirərək (sətri tərcümə ilə) nəşr etdirib. Qardaş Türkiyədə isə dastanı ilk dəfə nəsr şəklində çap etdirən Abdulkadir İnan olmuşdur”. Araşdırmada həmçinin eposun Azərbaycan elmi-ədəbi fikrində yeri şərh olunub, “Manas” eposu ilə “Kitabi-Dədə Qorqud”, “Koroğlu” dastanları arasında paralellər aparılıb, bütün bu mədəni abidələrin türk xalqlarının ortaq dəyərləri olduğu xüsusi vurğulanıb.

Ustad dərsi maraqla dinlənilib, mövzu ilə bağlı geniş fikir mübadiləsi aparılıb.

# BDU-da müasir Azərbaycan-ingilis ədəbi əlaqələri müzakirə olunub



***Martın 5-də Filologiya fakültəsinin təşkilatçılığı ilə 27 mart – Azərbaycan Respublikasında “Elm günü”nə həsr olunmuş tədbirlər çərçivəsində “Müasir Azərbaycan-ingilis ədəbi əlaqələri” mövzusunda elmi seminar keçirilib.***

Seminarda Azərbaycan Dillər Universitetinin professoru, filologiya elmləri doktoru Şahin Xəlili məruzə edib.

Professor qeyd edib ki, XVIII əsrdən başlayaraq Azərbaycanla ingilisdilli ölkələr arasında formalaşan ədəbi münasibətlər yalnız təsadüfi əlaqələr deyil, uzunmüddətli mədəni və estetik qarşılıqlı təsirin nəticəsidir. Bu əlaqələrin bütün inkişaf mərhələlərinin tam və hərtərəfli şəkildə araşdırılması üçün yalnız ayrı-ayrı faktların deyil, bütöv tarixi-ictimai proseslərin nəzərə alınması vacibdir. Çıxışda vurğulanıb ki, Azərbaycan–ingilis ədəbi münasibətləri əsasən folklor paralelləri, epos və dastan ənənələri, eləcə də klassik mətnlərin tərcüməsi və qavranılması müstəvisində formalaşıb. Xüsusilə “Kitabi-Dədə Qorqud” və “Koroğlu” dastanlarının ingilis dilinə tərcümələri bu əlaqələrin mühüm mərhələsi kimi dəyərləndirilib.

Professor çıxışı zamanı müasir ingilis şairlərinin yaradıcılığına da toxunaraq vurğulayıb ki, onların şeirlərinin Azərbaycan dilinə tərcüməsi iki xalq arasında ədəbi əlaqələrin inkişafında mühüm rol oynayır. Bu tərcümələr vasitəsilə müasir ingilis poeziyasına xas estetik düşüncə, fəlsəfi yanaşma və dünyagörüşü Azərbaycan oxucusuna çatdırılır. Alimin fikrincə, müasir poeziya müstəvisində aparılan bu cür tərcümə fəaliyyəti Azərbaycan-ingilis ədəbi əlaqələrini yeni mərhələyə yüksəldir.

Şahin Xəlili bildirib ki, Avropa, o cümlədən Böyük Britaniya ilə Azərbaycan arasında yaranmış ədəbi əlaqələr təkcə bədii mətnlərin ötürülməsi ilə məhdudlaşmır, həm də mədəni düşüncə, estetik baxış və ideya mübadiləsi səviyyəsində özünü göstərir. Bu baxımdan, Azərbaycan–ingilis ədəbi əlaqələri milli ədəbiyyatın dünya ədəbiyyatı kontekstində öyrənilməsi üçün mühüm elmi baza yaradır.

Seminarın sonunda tələbələrin sualları cavablandırılıb.

# BDU-da “Elmin izi ilə – Budaq Budaqov” adlı tədbir

***Martın 11-də Coğrafiya fakültəsində Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə görkəmli alim, akademik Budaq Budaqovun xatirəsinə həsr olunmuş “Elmin izi ilə – Budaq Budaqov” adlı tədbir keçirilib.***

27 mart – Azərbaycan Respublikasında “Elm günü” və Qərbi Azərbaycan həqiqətlərinə həsr edilmiş silsilə tədbirlər planı çərçivəsində təşkil olunan tədbirin məqsədi görkəmli alimin zəngin elmi irsini gənc nəslə tanıtmaq və tələbələr arasında elmə marağı artırmaqdır.

Coğrafiya fakültəsinin dekanı, professor Məqsəd Qocamanov görkəmli alim Budaq Budaqovun zəngin elmi fəaliyyəti və dəyərli tədqiqatları ilə Azərbaycanda coğrafiya elminin inkişafına mühüm töhfələr verdiyini qeyd edib. Uzun illər AMEA-nın akademik Həsən Əliyev adına Coğrafiya İnstitutuna rəhbərlik etmiş Budaq Budaqovun geomorfologiya, ekologiya, landşaftşünaslıq, toponimika, əhali coğrafiyası, Xəzərin problemləri və digər tədqiqat sahələrində əldə etdiyi elmi nailiyyətlər bu gün də aktuallığını qoruyub saxlayır və gənc tədqiqatçılar üçün mühüm elmi mənbə hesab olunur. Görkəmli alimin əsas elmi nailiyyətləri Böyük Qafqazın Azərbaycan hissəsinin geomorfologiyasının, yeni tektonik hərəkətlərin və qədim buzlaşmanın aşkara çıxarılması ilə sıx bağlıdır. Akademikin rəhbərliyi və yaxından iştirakı ilə respublikada səhralaşma proseslərinin elmi əsasları araşdırılıb, landşaftın geokimyasına dair problemlər tədqiq olunub. Belə alimlərin həyat yolu və fəaliyyəti gənc nəsil üçün nümunədir və onların irsinin yaşadılması böyük əhəmiyyət daşıyır.

Sonra fakültənin dosentləri Şəkər Məmmədova və Rəna Umudova, baş müəllim Qabil Səmədov və digərləri çıxış edərək Budaq Budaqovun elmi fəaliyyəti və yüksək insani keyfiyyətlərindən danışıblar. Çıxış edənlər onunla bağlı xatirələrini iştirakçılarla bölüşərək akademikin tələbələrə və gənc alimlərə göstərdiyi diqqət və qayğını xüsusi vurğulayıblar.

Sonda görkəmli alim haqqında videoçarx nümayiş etdirilib, tələbələr arasında onun həyatı və elmi fəaliyyəti ilə bağlı bilik yarışı keçirilib.

# ADU tələbələri BDU-nun Jurnalistika fakültəsi ilə tanış olublar

***Martın 3-də Azərbaycan Mətbuat Şurasında təcrübə keçən Azərbaycan Dillər Universitetinin bir qrup tələbəsi Jurnalistika fakültəsində olub.***

Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev tələbələrə fakültə haqqında məlumat verib, bu cür görüşlərin gənc jurnalistlərin peşəkar formalaşmasında mühüm əhəmiyyət daşıdığını bildirib. Qeyd edib ki, nəzəri biliklərlə yanaşı, praktik təcrübənin artırılması və real media mühitinə inteqrasiya jurnalist hazırlığında əsas istiqamətlərdəndir.

Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının müdiri Aynur Nəsirova jurnalistikada elmi əsaslı araşdırmanın vacibliyindən, analitik təfəkkürün və geniş dünyagörüşünün formalaşdırılmasının əhəmiyyətindən söz açıb. Müasir media mühitində peşəkar jurnalistin yalnız informasiya ötürücüsü deyil, eyni zamanda cəmiyyətdəki prosesləri dərin təhlil edən tədqiqatçı olduğunu deyib.




Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri Xatirə Hüseynova müasir dövrdə media mühitinin sürətlə transformasiya olunduğunu və rəqəmsal platformaların informasiya istehsalı ilə yanaşı, ictimai rəyin formalaşmasında da mühüm rol oynadığını bildirib. Yeni media alətləri yalnız texniki bacarıq deyil, həm də analitik düşüncə, media etikası və informasiya təhlükəsizliyi bilikləri tələb edir. Buna görə də media savadlılığını artırmaq, dezinformasiyaya qarşı həssas olmaq və peşəkar məsuliyyət prinsiplərinə sadiq qalmaq gənc jurnalistlər üçün mütləqdir.

Jurnalistika fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Samir Mirzəyev tələbələri Jurnalistika fakültəsində yaradılan Azərbaycan Mətbuat Şurasının, Medianın İnkişafı Agentliyinin, AZƏRTAC-ın xüsusi auditoriyaları, "ARB24"ün "Newslab" təlim otağı, "Xalq qəzeti" debat otağı, "Füyuzat" Media mərkəzi və Milli mətbuat tarixi auditoriyası ilə tanış edib.

Daha sonra BDU-nun Tədris tele-radio studiyasının müdiri Ramin Rzayev tələbələrə studiyanın maddi-texniki bazası, tələbələrin burada həyata keçirdikləri praktik yayım və montaj proseslərində iştirakı haqqında ətraflı məlumat verib.

# BDU-da "Danışır təcrübə" layihəsinin ilk görüşü

***Martın 3-də Jurnalistika fakültəsinin tələbələri üçün "Danışır təcrübə" layihəsinə start verilib. Layihənin ilk qonağı tanınmış telejurnalist, aparıcı Günel Gözəlova olub.***

Jurnalistika fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Samir Mirzəyev layihənin tələbə jurnalistlərin inkişafında böyük rol oynayacağını, peşəkarların təcrübələrinin nəzəri bilikləri möhkəmləndirəcəyini qeyd edib. Bildirib ki, ölkəmizdə yüzlərlə peşəkar jurnalist kadrının formalaşmasında əvəzsiz məktəb rolunu oynayan BDU-nun Jurnalistika fakültəsi hər zaman uğurlu məzunları ilə fəxr edib: "Belə məzunlarımızın təcrübələri tələbələr üçün gələcəkdə jurnalistikanın hansı sahəsi üzrə ixtisaslaşacaqları ilə bağlı vahid fikir formalaşdırmağa imkan yaradacaq".



Daha sonra söz qonağa verilib. Günel Gözəlova qeyd edib ki, ən müxtəlif sahələri özündə birləşdirməyi bacaran jurnalistikanın əhatə dairəsi çox genişdir. Bu imkandan faydalanan gənc jurnalistlər düzgün seçim etməyi bacarmalı və günün nəbzini tutmalıdır: "Bu fakültə hər zaman yetirmələri ilə fərqlənib. Bunun səbəbi təqdimetmə və tanıtma bacarığıdır. Müasir jurnalistikamızda yaranan problemlərin bir çoxuna səbəb də məhz bu bacarıqların olmamasıdır. Gərək jurnalistlərimiz özlərinə güvənsin və doğrunun ardınca getməyi bacarsın. Ancaq onda prinsiplərimiz qoruna, onillərdir formalaşan dəyərlərimiz sonrakı dövrlərə ötürülə bilər".

Müasir teleməkanda Azərbaycan dilinin istifadəsindəki nöqsanlardan da danışan tanınmış telejurnalist Günel Gözəlova dilimizin düzgün istifadəsinin jurnalistikamızın başlıca normalarından olduğunu vurğulayıb: "Bu gün efirdə ifadələrin düzgün tələffüz edilə bilmədiyinin şahidi oluruq. Bunun üçün yalnız praktika deyil, nəzəri bilik çox önəmlidir. Nəzəri biliyimizi praktikamızla cilalamaq işin əsas açar nöqtəsidir".

Görüş tələbələrin çoxsaylı suallarının cavablandırılması ilə başa çatıb.

# BDU-da professor Nadir Məmmədlinin ustad dərsi

***Martın 10-da Jurnalistika fakültəsinin təşkilatçılığı ilə 27 mart - Azərbaycan Respublikasında "Elm günü"nə həsr edilmiş tədbirlər çərçivəsində AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor Nadir Məmmədlinin "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" mövzusunda ustad dərsi keçirilib.***




Jurnalistika fakültəsinin elmi işlər üzrə dekan müavini, dosent Sevinc Əliyeva "Elm günü"nün əhəmiyyətindən danışıb. Bildirib ki, elm yalnız laboratoriyalarda və kitabxanalarda aparılan tədqiqat deyil. Elm həm də cəmiyyətin düşüncə tərzini formalaşdıran, həqiqəti axtaran və insanlığı daha işıqlı gələcəyə aparan bir qüvvədir. Buna görə də alimlərin zəhməti hər zaman böyük hörmət və ehtirama layiqdir. O, qonaq, tanınmış alim Nadir Məmmədli haqqında da tələbələrə ətraflı məlumat verib, onun 13 kitab, 5 monoqrafiya, 100-dən artıq elmi, 200-ə qədər publisistik məqalə müəllifi, "Filologiya məsələləri" elmi jurnalının redaksiya heyətinin üzvü olduğunu vurğulayıb.

Nadir Məmmədli qeyd edib ki, müasir dövrdə elmi və rəsmi ünsiyyətdə Azərbaycan dilinin düzgün, aydın və terminoloji baxımdan dəqiq işlədilməsi böyük əhəmiyyət daşıyır. Onun sözlərinə görə, akademik mühitdə dil normalarına riayət olunması elmi fikrin daha sistemli və anlaşıqlı şəkildə təqdim edilməsinə imkan yaradır. Eyni zamanda, işgüzar kommunikasiya sahəsində dil mədəniyyətinin inkişafı cəmiyyətin ümumi nitq səviyyəsinin yüksəlməsinə və rəsmi ünsiyyətin daha səmərəli qurulmasına xidmət edir.

Dilçi alim Türkoloji Qurultayın yenidən təşkil olunması prosesində iştirak edən şəxslərdən biri kimi qurultayın məqsədləri və əhəmiyyəti barədə fikirlərini bölüşüb. O bildirib ki, türk dünyasının ortaq dil, mədəniyyət və elmi irsinin araşdırılması baxımından belə platformaların fəaliyyəti mühüm rol oynayır. Bu cür qurultaylar müxtəlif ölkələrdən olan alim və tədqiqatçıları bir araya gətirərək elmi əməkdaşlığın genişlənməsinə şərait yaradır. Ortaq layihələrin həyata keçirilməsi, yeni tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsi və türk xalqlarının zəngin irsinin gələcək nəsillərə ötürülməsi baxımından da xüsusi əhəmiyyət daşıyır.

Sonda fakültənin dekanı Vüqar Əliyev də belə görüşlərin tələbələrin elmi dünyagörüşünün formalaşmasında mühüm əhəmiyyət daşıdığını qeyd edib. O, Türkoloji Qurultayın türk dünyasının elmi və mədəni əlaqələrinin gücləndirilməsində xüsusi rol oynadığını vurğulayıb.

Görüş zamanı tələbələrin sualları cavablandırılıb, dilçilik elmi və türkoloji araşdırmalarla bağlı fikir mübadiləsi aparılıb.

# BDU tələbələri idman jurnalistikasında media etikasına dair məlumatlandırılıb

***Martın 10-da "BDU könüllüləri" təşkilatının Jurnalistika fakültəsi üzrə üzvlərinin təşkilatçılığı ilə tanınmış idman jurnalisti Gündüz Abbaszadənin "İdman jurnalistikasında peşəkarlıq, təcrübə və media etikası" mövzusunda görüşü keçirilib.***

Jurnalistika fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Samir Mirzəyev tələbə jurnalistlərin praktik bacarıqlarının formalaşmasında peşəkarlarla görüşlərin xüsusi əhəmiyyət daşıdığını deyib. Bildirib ki, nəzəri biliklər praktik yönləndirmələr ilə daha güclü və effektiv olur.

Daha sonra Gündüz Abbaszadə idman mediasında qazandığı təcrübəni tələbələrlə bölüşüb. İdman jurnalistlərinə dünyanın müxtəlif ölkələrində keçirilən yarışları izləmək, fərqli idman mühitləri ilə tanış olmaq imkanının yaradıldığını və bunun yalnız ixtisasla bağlı deyil, ümumi dünyagörüşünün formalaşmasında böyük rol oynadığını qeyd edib.

İdman jurnalistikasının yalnız yarışların nəticələrini çatdırmaqdan ibarət olmadığını deyən Gündüz Abbaszadə onun ictimai rəyə təsir edən məsuliyyətli informasiya fəaliyyəti olduğunu bildirib: "Jurnalistlər məlumatları təqdim edərkən obyektivlik, dəqiqlik və qərəzsizlik prinsiplərinə ciddi riayət etməlidirlər. Emosional mühitdə fəaliyyət göstərsələr də, tərəfsizlik prinsipini qorumalı, hansısa komanda və ya idmançıya şəxsi simpatiyanın xəbərin məzmununa təsir etməsinə yol verməməlidirlər. Jurnalistin əsas vəzifəsi faktları olduğu kimi təqdim etmək, manipulyasiya və ya sensasiya yaratmaq məqsədilə məlumatları təhrif etməməkdir".

Sonda tələbələrin sahə ilə bağlı sualları cavablandırılıb.

# “Elm günü”nə həsr olunmuş seminar: “BDU – Azərbaycanın elmi potensialında”

*Martın 3-də İnformasiya və sənəd menecmenti fakültəsində 27 mart – Azərbaycan Respublikasında “Elm günü” ilə bağlı silsilə tədbirlər çərçivəsində növbəti elmi seminar keçirilib. Elmi seminarda BDU-nun Kitabxanaşünaslıq kafedrasının dosenti Pərviz Kazimi “BDU – Azərbaycanın elmi potensialında” mövzusunda məruzə edib.*



Məruzədə əvvəlcə elmin tarixinə nəzər salınıb, ölkəmizin bu sahədə qazandığı nailiyyətlərdən bəhs olunub. Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə ölkəmizdə elmin inkişafı üçün müstəsna xidmətlər göstərdiyi diqqətə çatdırılıb, bu gün həmin siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi vurğulanıb: “Dövlət başçısının 2018-ci il 9 aprel tarixli Sərəncamına əsasən, hər il martın 27-nin “Elm günü” kimi qeyd olunması, ölkəmizdə elmin inkişafına hərtərəfli diqqətin göstərilməsi bu fəaliyyət sahəsinin dövlətimiz üçün prioritet istiqamət olduğunun bariz nümunəsidir”.

Məruzədə elmşünaslıqda yeni istiqamətlər, müasir trendlər, xüsusilə Azərbaycan elminin dünya elminə inteqrasiyası kimi mühüm məsələlərə toxunulub, ölkənin ilk və nüfuzlu ali təhsil müəssisəsi olan BDU-nun beynəlxalq reytinqlərdə son illər əldə etdiyi yüksək göstəricilər faktlarla şərh olunub. BDU alimləri tərəfindən aparılan tətbiqi xarakterli tədqiqatlar diqqətə çatdırılıb, alınmış mühüm nəticələrin nüfuzlu beynəlxalq elmi bazalarda indeksləşdirilmiş jurnallarda əksini tapdığı qeyd olunub, bu dinamikanın davamlı inkişaf etdirildiyi xüsusi vurğulanıb. BDU alimlərinin Hirş indeksləri və istinad göstəriciləri barədə dolğun məlumatlar təqdim edilib.

Seminarda mövzu ətrafında geniş müzakirələr aparılıb.

# BDU-da elmi seminar: "Yaxın və Orta Şərqin yeni təhlükəsizlik arxitekturasında Azərbaycanın yeri və rolu"

*Martın 4-də Tarix fakültəsində “Yaxın və Orta Şərqin yeni təhlükəsizlik arxitekturasının yaranmasında Azərbaycanın yeri və rolu” mövzusunda elmi seminar keçirilib.*

Seminarın aktuallığı barədə məlumat verən Asiya və Afrika ölkələri tarixi kafedrasının müdiri İqbal Ağayev bildirib ki, sürətlə dəyişən geosiyasi mühitdə beynəlxalq təhlükəsizlik məsələlərinin elmi təhlili xüsusi əhəmiyyət daşıyır. Onun sözlərinə görə, qlobal sabitlik sistemi bir çox tədqiqatçıların soyuq müharibədən sonrakı dövrlə müqayisə etdiyi struktur transformasiya mərhələsini yaşayır. Bu proses xüsusilə qlobal və regional güclərin maraqlarının kəsişdiyi Yaxın Şərqdə daha aydın müşahidə olunur.

Elmi işlər üzrə dekan müavini Kəmalə Nəcəfova qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sülh gündəliyi Cənubi Qafqazda gərginliyin azalmasına, qarşılıqlı etimadın möhkəmlənməsinə və regionun ümumi inkişafına xidmət edən mühüm platformadır. Bu yanaşma bölgənin uzunmüddətli sülh və sabitlik perspektivlərini gücləndirir.

Elmi seminarda “NOV MEDİA GROUP” MMC-nin baş direktoru, "Caucasus Policy Analysis Center (CPAC)" beyin mərkəzinin aparıcı analitiki Elmira Talıbzadənin məruzəsi dinlənilib. Məruzəçi vurğulayıb ki, İran, İsrail və ABŞ-nin iştirak etdiyi son proseslər klassik çəkindirmə modellərinin hibrid müharibə, yüksək texnologiyalı zərbə əməliyyatları və informasiya qarşıdurması şəraitində yenidən qiymətləndirilməsini zəruri edir. Qeyd olunub ki, 2024-cü ilin sonu – 2026-cı ilin əvvəlləri arasında beynəlxalq beyin mərkəzləri regionda 300-dən çox hərbi xarakterli hadisəni, o cümlədən raket zərbələri, kiberhücumlar və proksi qrupların fəaliyyətini qeydə alıb.

Məruzədə realizm, neorealizm və konstruktivizm kimi beynəlxalq təhlükəsizlik nəzəriyyələrinin aktuallığı təhlil edilib. Bildirilib ki, realist məktəb dövlətin təhlükəsizlik sistemində əsas aktor olduğunu qəbul edir və mövcud dinamika bu yanaşmanın aktuallığını qoruduğunu göstərir. Eyni zamanda 2025-ci il üzrə region ölkələrinin müdafiə xərcləri, o cümlədən İsrail və Səudiyyə Ərəbistanının büdcələrinin müqayisəli təhlili iştirakçıların diqqətinə çatdırılıb.

Məruzəçi təhlükəsizliyin enerji ölçüsünü də xüsusi vurğulayıb. Qeyd olunub ki, gündəlik 18–20 milyon barel neftin tranzit keçdiyi Hörmüz boğazı qlobal iqtisadiyyatın strateji nəqliyyat arteriyalarından biridir. Burada yarana biləcək hər hansı məhdudiyyət qlobal neft qiymətlərində qısa müddətdə 25–40 faiz artıma səbəb ola bilər ki, bu da Avropa İttifaqı, Çin və Böyük Xəzər regionu ölkələrinin iqtisadiyyatına birbaşa təsir göstərir.

Elmi seminar mövzu ilə bağlı müzakirələrlə yekunlaşıb.

# BDU-da süni intellektin həyat elmlərində tətbiqinə dair elmi seminar

*Martın 4-də Biologiya fakültəsində 27 mart – Azərbaycan Respublikasında “Elm günü”nə həsr olunmuş elmi seminar təşkil edilib. Seminar “Həyat elmlərində süni intellekt qərarverici amil kimi: erkən aşkarlama, hibrid model mexanizmlərinin qurulması” mövzusuna həsr olunub.*

Hindistanın Assam ştatında fəaliyyət göstərən Assam Qabaqcıl Səhiyyə İnnovasiyaları İnstitutunun layihə rəhbəri Kauşik Daşın məruzəçi olduğu seminarda süni intellektin biotibb və həyat elmlərində tətbiq istiqamətləri, xüsusilə məlumat əsaslı qərarvermə mexanizmləri, klinik qərar dəstəyi sistemləri və tibbi təsvirlərin analizi üzrə metodoloji yanaşmalar təqdim edilib.

Məruzənin əsas istiqaməti erkən diaqnostika məqsədilə hibrid modelləşdirmə mexanizmlərinin qurulması – statistik və maşın-öyrənməsi alqoritmlərinin fizioloji və mexaniki modellərlə inteqrasiyası məsələlərini əhatə edib. Bu çərçivədə aşağı sahəli maqnit-rezonans tomoqrafiyası (Low-Field MRT) texnologiyaları üzrə tədqiqat və inkişaf işləri, siqnalın emalı, görüntünün rekonstruksiyası və modellərin generalizasiya qabiliyyəti kimi parametrlər müzakirə olunub. Bildirilib ki, süni intellekt bioloji proseslərin modelləşdirilməsində və erkən aşkarlama sistemlərinin qurulmasında mühüm rol oynayır.

# BDU-da elmi seminar: “Azərbaycan və Koreya dillərində yönlük halın ifadə vasitələrinin müqayisəli tədqiqi”

*Martın 3-də Şərqşünaslıq fakültəsində 27 mart - Azərbaycan Respublikasında “Elm günü”nə həsr edilmiş tədbirlər çərçivəsində elmi seminar keçirilib. Seminarda Uzaq Şərq dilləri və ədəbiyyatı kafedrasının müəllimi Nəzrin Abbasova “Azərbaycan və Koreya dillərində yönlük halın ifadə vasitələrinin müqayisəli tədqiqi” mövzusunda məruzə ilə çıxış edib.*

Məruzəçi Koreya və Azərbaycan dillərində hal kateqoriyasının ismin qrammatik funksiyasını ifadə etmək üçün istifadə olunduğunu və hər iki dildə ismin 6 halının mövcud olduğunu qeyd edib. Koreya dilində hal şəkilçilərinin kontekstdən asılı olaraq müxtəlif məna çalarları yaratdığını, Azərbaycan dilində isə bunun daha sabit olduğunu vurğulayıb. Məruzəçi hər iki dildə hallanmanın söz kökünə şəkilçilər əlavə etməklə baş verdiyini, lakin Koreya dilində sözlərə şəkilçi əlavə etmə qaydasının fərqli olduğunu, bunun Koreya və Azərbaycan dillərinin qrammatikasında maraqlı fərqliliklər yaratdığını nümunələrlə təhlil edib.

# BDU-da mülkiyyət hüququna xitam verilməsi hallarına dair elmi seminar keçirilib

*Martın 3-də Hüquq fakültəsinin təşkilatçılığı ilə 27 mart - Azərbaycan Respublikasında “Elm Günü”nə həsr olunmuş “Mülkiyyətçinin iradəsi ilə və iradəsinə zidd mülkiyyət hüququna xitam verilməsinin bəzi cəhətləri” mövzusunda elmi seminar keçirilib.*

Tədbiri giriş sözü ilə açan Mülki hüquq kafedrasının müdiri Şükür Yusifov “Elm günü” münasibətilə keçirilən elmi seminarların hüquq elminin inkişafında mühüm rol oynadığını qeyd edib. O, seminarın mövzusunun müasir mülki hüquq baxımından aktual olduğunu vurğulayaraq, mülkiyyət hüququnun xitamı ilə bağlı məsələlərin həm nəzəri, həm də praktiki əhəmiyyət daşıdığını bildirib. Şükür Yusifov bu cür elmi müzakirələrin gənc tədqiqatçıların elmi fəaliyyətinin təşviqinə və hüquqi problemlərin dərindən araşdırılmasına töhfə verdiyini diqqətə çatdırıb.

BDU-nun Mülki hüquq kafedrasının doktorantı Nərmin Eminli məruzə ilə çıxış edib. Məruzəçi mülki hüquqda mülkiyyət hüququ institutunun mühüm əhəmiyyət kəsb etdiyini vurğulayaraq, bu hüququn cəmiyyətin iqtisadi əsaslarının formalaşmasında və mülki dövriyyənin sabitliyinin təmin olunmasında xüsusi rol oynadığını bildirib.

Çıxış zamanı məruzəçi mülkiyyət hüququnun toxunulmazlığı prinsipinə diqqət çəkib, bu prinsipin Azərbaycan Respublikasının Konstitusiyasında birbaşa təsbit olunduğu qeyd edib. Bildirib ki, ölkənin iqtisadi rifahı və hüquqi dövlət quruculuğu birbaşa mülkiyyət hüquqlarının etibarlı müdafiəsindən asılıdır. Bu baxımdan mülkiyyət hüququna xitam verilməsinin əsasları və qaydalarının qanunvericilikdə dəqiq tənzimlənməsi mühüm əhəmiyyət daşıyır.

Məruzədə mülkiyyət hüququna xitam verilməsinin mülkiyyətçinin iradəsi ilə baş verən halları, o cümlədən özgəninkiləşdirmə, imtina və könüllü sərəncam vermə, eləcə də mülkiyyətçinin iradəsinə zidd olaraq baş verən hallar, xüsusilə rekvizisiya, mülkiyyət obyektinin məhvi, subyektin ölümü və hüquq qabiliyyətinin xitamı Mülki Məcəllənin müvafiq normaları əsasında geniş şəkildə təhlil olunub. Seminarın sonunda mövzu ətrafında müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# BDU-da sahibkarlığa yönəldilmiş dövlət investisiyalarının səmərəliliyinin qiymətləndirilməsinə dair tədqiqatlar aparılır

***Martın 2-də Coğrafiya fakültəsində "Azərbaycanda sahibkarlığa yönəldilmiş dövlət investisiyalarının səmərəliliyinin qiymətləndirilməsi" mövzusunda elmi seminar keçirilib.***

Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi metodikası kafedrasının müdiri, dosent Saleh Nağıyev kiçik və orta sahibkarlığın inkişafına yönəldilmiş dövlət investisiyalarının əhəmiyyətini vurğulayıb. Bildirib ki, son illər həyata keçirilən iqtisadi islahatlar Azərbaycanda sahibkarlığın inkişafına təkan verib, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında və iqtisadiyyatın inkişafında sahibkarlığın rolunu artırıb. Bununla yanaşı, ölkədə keyfiyyətli məhsul bolluğunun yaradılması, rəqabətə davamlı istehsal sahələrinin inkişafı və əhalinin məşğulluğunun təmin olunması üçün sahibkarlığın daha sürətlə inkişafına ehtiyac var.

Daha sonra İqtisadi və sosial coğrafiya kafedrasının müəllimi Nuranə Əliyevanın mövzu ilə bağlı məruzəsi dinlənilib. O, müasir dövrdə dövlət investisiyalarının sahibkarlığın inkişafına təsiri barədə geniş məlumat verib. Tədqiqat çərçivəsində müxtəlif sahibkarlıq subyektlərinə dövlət investisiyalarının qoyuluşunun onların inkişafına müsbət təsir göstərməsi və bunun elmi üsullarla müəyyən edilməsi məqsədi ilə reqressiya, korrelyasiya və digər kəmiyyət metodlarından istifadə olunduğu qeyd olunub. Kiçik və orta sahibkarlığın inkişafının regional xüsusiyyətlərinin təhlil olunduğu, eləcə də investisiyaların səmərəliliyinə təsir edən daxili və xarici amillərin qiymətləndirildiyi diqqətə çatdırılıb, sahibkarlıq mühitində dövlətin investisiya yönümlü fəaliyyətinin əhəmiyyəti, bu investisiyaların iqtisadi artıma təsiri və onların səmərəliliyinin qiymətləndirilməsi metodları izah edilib.

Seminarda professorlar Məqsəd Qocamanov, Çingiz İsmayılov, Aydın İbrahimov coğrafiya elmləri doktoru Şəkər Məmmədova tədqiqat mövzusunun aktual, metodik yanaşmanın isə innovativ olduğunu vurğulayıb, bu istiqamətdə elmi tədqiqatların davam etdirilməsini tövsiyə ediblər.

# BDU-nun magistrantları Əkinçilik Elmi-Tədqiqat İnstitutunda elmi-praktiki təlimdə

***Martın 2-də Biologiya fakültəsinin Molekulyar biologiya və biotexnologiyalar kafedrasının I kurs magistrantları kafedranın müəllimi, dosent Roza Məmmədovanın rəhbərliyi ilə Əkinçilik Elmi-Tədqiqat İnstitutunun Modern seleksiya və molekulyar biologiya laboratoriyasında təşkil olunmuş elmi-praktiki təlimdə iştirak ediblər.***

Təlim institutun laboratoriya müdiri Həlimə Məmmədova və Genetik Ehtiyatlar İnstitutunun İmmunogenetika şöbəsinin müdiri Elçin Hacıyev tərəfindən aparılıb. Çıxışlarda molekulyar-genetik analizlərin metodoloji əsasları, laboratoriya təhlükəsizliyi qaydaları, eləcə də molekulyar marker sistemlərinin seleksiya işlərində və genetik müxtəlifliyin qiymətləndirilməsində tətbiqi barədə ətraflı məlumat verilib.

Müasir laboratoriya şəraitində keçirilən təlim bitki yarpaq toxumasından DNT-nin izolyasiyası və molekulyar markerlərlə iş prinsiplərinin praktiki mənimsənilməsinə həsr olunub. Təlim zamanı magistrantlar nümunələrin hazırlanması, hüceyrə lizisi, sentrifuqalama və genetik materialın təmizlənməsi mərhələlərini bilavasitə yerinə yetiriblər. İnteraktiv formatda təşkil olunan məşğələlər iştirakçıların laborator prosesləri fərdi şəkildə icra etməsinə imkan yaradıb.

Qeyd olunub ki, təlimin keçirilməsində məqsəd magistrantların bitki genomikası və molekulyar genetika sahəsində nəzəri biliklərini praktik mühitdə möhkəmləndirmək, elmi-tədqiqat bacarıqlarını inkişaf etdirmək və müasir laborator texnologiyalarla işləmək səriştəsini artırmaqdır.

# BDU-da "Müasir linqvistik paradiqmalar" mövzusunda elmi seminar

***Martın 3-də Filologiya fakültəsinin təşkilatçılığı ilə 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş "Müasir linqvistik paradiqmalar" mövzusunda elmi seminar keçirilib.***

Seminarda Azərbaycan Dillər Universitetinin Ümumi dilçilik kafedrasının müdiri, filologiya elmləri doktoru Azad Məmmədov məruzə ilə çıxış edib.

Filologiya fakültəsinin dekan müavini Anar Fərəcov bildirib ki, müasir dövrdə dilçilik elmi sürətlə inkişaf edir və yeni yanaşmaların, xüsusilə müasir linqvistik paradiqmaların öyrənilməsi bu sahədə aparılan elmi araşdırmalar üçün böyük əhəmiyyət daşıyır. Çıxış zamanı məruzəçi Azad Məmmədov müasir linqvistik paradiqmalar kontekstində sosiolinqvistikanın roluna toxunub. O qeyd edib ki, dil və cəmiyyət arasındakı münasibətlərin öyrənilməsi dilin yalnız struktur deyil, eyni zamanda funksional və sosial tərəflərinin araşdırılmasını zəruri edir.

Məruzədə dilin cəmiyyət daxilində təsir və yönləndirmə vasitəsi kimi çıxış etməsi, eləcə də dil vasitəsilə manipulyasiya imkanları məsələləri diqqətə çatdırılıb. Bildirilib ki, sosiolinqvistika çərçivəsində bu proseslərin funksionalizm yanaşması əsasında tədqiqi daha dolğun nəticələr əldə etməyə imkan verir.

Çıxışçı qeyd edib ki, hazırda sosiolinqvistik tədqiqatlarda funksional yanaşmaya kifayət qədər yer verilməməsi bu sahədə yeni elmi istiqamətlərin formalaşdırılmasını zəruri edir. Bu baxımdan formalizm və funksionalizm paradiqmalarının müqayisəli şəkildə araşdırılmasının əhəmiyyəti vurğulanıb.

Seminar müzakirələrlə davam edib və iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# BDU-da "Elm günü"nə həsr olunmuş "Xəmsə" intellektual oyununun seçim mərhələsi

***Martın 4-də BDU-nun Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə 27 mart - Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş tədbirlər çərçivəsində "Xəmsə" intellektual oyununun seçim mərhələsi keçirilib.***

Ekologiya və torpaqşünaslıq fakültəsi üzrə TEC sədri Raul İmanov intellektual oyun barəsində tələbələri məlumatlandırıb, belə intellektual yarışların tələbələrin elmi dünyagörüşünün formalaşmasında, analitik düşünmə və komanda bacarıqlarının inkişafında mühüm rol oynadığını deyib.

Ümumilikdə, 8 komanda - "Alfa&Omega", "Minas Morgul", "Aurora", "Quantum", "Torrent", "Apex predator", "Teseyin gəmisi" və "Mexaniki portağallar"ın mübarizə apardığı seçim mərhələsində iştirakçılar müxtəlif sahələri əhatə edən suallar üzrə bilik və çevik düşünmə bacarıqlarını nümayiş etdiriblər. Oyunun nəticələrinə əsasən, 4 komanda - "Alfa&Omega", "Minas Morgul", "Teseyin gəmisi" və "Torrent" növbəti mərhələyə vəsiqə qazanıb.

# BDU-da Azərbaycanın orta əsr şəhərlərinin arxeoloji memarlığı tədqiq olunur

***Martın 2-də Tarix fakültəsində 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş "Azərbaycanın orta əsr şəhərlərinin arxeoloji memarlığı" mövzusunda elmi seminar keçirilib.***

Tarix fakültəsinin elmi işlər üzrə dekan müavini Kəmalə Nəcəfova bildirib ki, şəhərlər qədim dövrlərdən etibarən istehsal, mədəniyyət və intellektual potensialın cəmləşdiyi, cəmiyyətin sosial-iqtisadi, siyasi və mədəni inkişafında mühüm rol oynayan mərkəzlər olub. Qeyd edilib ki, Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2025-ci il tarixli Sərəncamına əsasən, 2026-cı il "Şəhərsalma və Memarlıq İli" elan edilib. Bu çərçivədə fakültədə il ərzində şəhərsalma və memarlıq ənənələrinin çoxəsrlik tarixinə həsr olunan mövzuların müzakirəsi nəzərdə tutulub.

Elmi seminarda Arxeologiya və etnoqrafiya kafedrasının müdiri, tarix üzrə elmlər doktoru, dosent Tarix Dostiyevin məruzəsi dinlənilib. Məruzəçi bildirib ki, Azərbaycanda arxeologiya elminin mühüm vəzifələrindən biri erkən, qədim, antik və orta əsr şəhərlərinin öyrənilməsi, şəhərsalma və memarlıqda ənənə və innovasiyaların müəyyənləşdirilməsi, urbanizasiya proseslərinin xüsusiyyətlərinin araşdırılmasıdır.

Məruzədə İslam sivilizasiyasının mühüm fenomeni olan orta əsr urbanizasiyası, Azərbaycanda müsəlman tipli şəhərlərin formalaşması və inkişafı, şəhərsalma fəaliyyətinin genişlənməsi, sosial-psixoloji mühitdə baş verən dəyişikliklər təhlil olunub. Qədim Gəncə, Beyləqan, Şəmkir, Şabran və Xarabagilan şəhər yerlərində, həmçinin Bakı, Şamaxı, Dərbənd və Naxçıvan şəhərlərində aparılan arxeoloji qazıntıların nəticələrinə əsaslanaraq erkən və klassik İslam dövrü şəhərlərinin topoqrafiyası, hərbi və mülki memarlıq nümunələri, dini və xatirə kompleksləri, şəhər abadlığı, eləcə də ümummüsəlman səciyyəsi və məhəlli xüsusiyyətləri barədə ətraflı məlumat verilib.

Məruzəçi tarixi şəhərlərə və onların memarlıq irsinə xüsusi önəm verilməsinin vacibliyini vurğulayıb, tarixi şəhərlərin özünəməxsus siluetinin keçmişin dərkində mühüm rol oynadığını qeyd edib. Bildirilib ki, şəhərlərin plan quruluşunun və memarlıq komplekslərinin düzgün şərhi arxeoloji tədqiqatlar baxımından xüsusi əhəmiyyət kəsb edir.

Elmi seminarda mövzu ətrafında geniş müzakirələr aparılıb.

# BDU tələbəsi kapoeyra üzrə ölkə kubokunun qalibi olub



***Martın 3-də Biologiya fakültəsinin IV kurs tələbəsi Xədicə Zeynallı Bakıda keçirilən kapoeyra üzrə ölkə kubokunda uğurlu nəticə əldə edib. Yarış Azərbaycan Kapoeyra Federasiyası və Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə Bakının 2026-cı il üçün "Dünyanın İdman Paytaxtı" seçilməsi münasibətilə təşkil olunub.***

Turnirdə ölkənin müxtəlif bölgələrini təmsil edən klublar və nümayəndəliklər iştirak edib, uşaqlar, yeniyetmələr, gənclər və böyüklər arasında müxtəlif kateqoriyalar üzrə yarışlar keçirilib.

Yekun nəticələrə əsasən, Xədicə Zeynallı 16+ yaş peşəkar qrup üzrə birinci yerə layiq görülüb, həmçinin yarışın ən yaxşı qadın idmançısı kimi fərqlənib.

# BDU tələbələri Autizm Mərkəzində

*Martın 2-də Sosial elmlər və psixologiya fakültəsinin Psixologiya kafedrasının professoru Elnarə Şəfiyeva, dosenti Məryəm Mustafayeva və müəllim Emiliya İgidovanın rəhbərliyi ilə "Klinik psixologiya" ixtisaslaşması üzrə I kurs magistrantları Autizm Mərkəzində oldular. Səfərin əsas məqsədi tələbələrin nəzəri biliklərini praktik mühitdə möhkəmləndirməsi və klinik bacarıqlarının inkişafı olub. Magistrantlar autizm spektr pozuntusu olan uşaqlarla aparılan diaqnostik və korreksiyaedici proseslə yaxından tanış oldular.*



Mərkəzin rəhbəri Aytən Eynalova qurumun fəaliyyət istiqamətləri, reabilitasiya proqramları və valideynlərlə iş prinsipləri barədə məlumat verib. Daha sonra klinik psixoloq Milana Həsənova tələbələri terapiya otaqları və mərkəzin digər bölmələri ilə tanış edib, tətbiq olunan müasir psixoloji yanaşmalar haqqında danışıb. Tələbələr müşahidələr zamanı mütəxəssislərlə fikir mübadiləsi apararaq real klinik halların təhlilində iştirak ediblər. Sonda belə praktik görüşlərin gələcək klinik psixoloqların peşəkar formalaşmasında mühüm əhəmiyyət daşıdığı vurğulanıb.

# BDU tələbələri WUF13 barədə məlumatlandırılıb

*Martın 2-də Kimya fakültəsində Tələbə Elmi Cəmiyyəti (TEC) və Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı ilə "Şəhərsalma və Memarlıq İli" çərçivəsində Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) həsr olunmuş infosessiya keçirilib.*

Tədbirdə TEC-nin fakültə sədri Dərya Həsənova bildirib ki, Ümumdünya Şəhərsalma Forumu BMT-nin Məskunlaşma Proqramının (UN Habitat) ərsəyə gətirdiyi dayanıqlı şəhər inkişafı mövzusuna həsr edilmiş dünyanın ən böyük beynəlxalq platformalarından biridir. 2026-cı il mayın 17–22-də Azərbaycanın paytaxtı Bakı WUF13-ə ev sahibliyi edəcək. "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusunda keçiriləcək Forum qlobal şəhər problemlərinin həllində və dayanıqlı inkişaf strategiyalarının formalaşdırılmasında mühüm rol oynayır.

Tələbələr Forumun əhəmiyyəti, eləcə də bu sahədə gələcəkdə həyata keçiriləcək təşəbbüslər barədə ətraflı məlumat əldə ediblər. Tədbirdə gənclərin şəhərsalma və memarlıq sahəsində beynəlxalq təşəbbüslərə qoşulmasının vacibliyi qeyd olunub.

# BDU-da "Ekstremal şəraitdə psixoloji yardım" mövzusunda təlim

*Martın 2-də BDU-nun Psixoloji yardım sektoru "Ekstremal şəraitdə psixoloji yardım" mövzusunda təlim təşkil edib.*

Təlim zamanı ABŞ-nin Con Hopkins Universiteti tərəfindən hazırlanmış fövqəladə vəziyyətlər üçün İlkin Psixoloji Yardım (Psychological First Aid – PFA) modeli və onun əsas mərhələləri barədə iştirakçılara ətraflı məlumat verilib. Stres, onunla mübarizə yolları, özünə qayğı anlayışı, bu yanaşmanın gündəlik həyatda tətbiqi mövzuları ətrafında geniş fikir mübadiləsi aparılıb.

Təlimdə vurğulanıb ki, ilkin psixoloji yardım yalnız psixoloq və həkimlər tərəfindən deyil, digər peşə qruplarının nümayəndələri tərəfindən də uyğun formada göstərilə bilər. Bu yanaşma fövqəladə vəziyyətlərdə cəmiyyətin psixoloji davamlılığının artırılmasına mühüm töhfə verir.

Praktik məşğələlər çərçivəsində terapevtik ünsiyyətin əhəmiyyəti, aktiv dinləmə bacarıqları, empatik yanaşma və təhlükəsizlik hissinin yaradılması mövzularında müzakirələr aparılıb, situativ məşqlər icra olunub.

# BDU komandası "Sumqayıt Cup" respublika üzrə proqramlaşdırma müsabiqəsinin qalibi olub

*Martın 3-də BDU-nun "BDU 1" komandası "Sumqayıt Cup" respublika üzrə proqramlaşdırma müsabiqəsində III yeri tutub. Komandanın rəhbəri BDU rektorunun katibliyinin mütəxəssisi İsmayıl Zeynalov, üzvləri Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin II kurs tələbələri Mehdi Məmmədov, Elşən Məhərrəmov və I kurs tələbəsi Kamil Hüseynovdur.*



Müsabiqə İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi, Təhsil İnstitutu, Sumqayıt İnnovasiya Mərkəzi, Sumqayıt Dövlət Universiteti və Universitet Tələbələrinin Beynəlxalq Proqramlaşdırma Müsabiqəsinin (ICPC) Azərbaycan icmasının birgə təşkilatçılığı ilə Sumqayıt şəhərində keçirilib.

Müsabiqənin keçirilməsində məqsəd iştirakçılar arasında proqramlaşdırma və alqoritmik düşüncə bacarıqlarını inkişaf etdirmək, sağlam rəqabət mühiti yaratmaq və innovasiya yönümlü istedadları üzə çıxarmaq olub. Müsabiqə İKT sahəsinə olan marağı artırmaqla yanaşı, təhsil müəssisələri və müvafiq qurumlar arasında əməkdaşlıq imkanlarının genişlənməsinə də töhfə verib.

# BDU-da elmi seminar: "Abşeron yarımadasında mühəndis-geoloji şəraitin seysmikliyə təsiri"

*Martın 2-də Geologiya fakültəsində 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş tədbirlər çərçivəsində "Abşeron yarımadasında mühəndis-geoloji şəraitin seysmikliyə təsiri (Nərimanov rayonu timsalında)" mövzusunda elmi seminar keçirilib.*

Seminarda müasir dövrdə mühəndis-geoloji və seysmik tədqiqatların aktuallığının xüsusilə urbanizasiya proseslərinin sürətləndiyi ərazilərdə daha da artdığı, bu istiqamətdə aparılan araşdırmaların mühüm praktik əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Məruzəçi, Seysmologiya və Yer təkinin fizikası kafedrasının qiyabi doktorantı İlhamə Cəlilova mövzu ilə bağlı məruzə edib. Məruzə kompleks çöl tədqiqatları, laborator analizlər və elmi ədəbiyyatın müqayisəli təhlili əsasında hazırlanıb.

Məruzədə Abşeron yarımadasının geoloji quruluşu, litoloji müxtəlifliyi, tektonik qırılma zonaları və seysmik fəallıq səviyyəsi barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, ərazidə yayılmış qumlu-gilli çöküntülər, süxurların fiziki-mexaniki xüsusiyyətləri, sıxlıq və məsaməlilik göstəriciləri, həmçinin qrunt sularının səviyyə dəyişmələri zəlzələ dalğalarının yayılma xüsusiyyətlərinə və intensivliyinə birbaşa təsir göstərir. Bildirilib ki, zəif möhkəmlənmiş süxurların üstünlük təşkil etdiyi sahələrdə seysmik dalğaların amplitudasının artması tikililər üçün əlavə risk faktorları yaradır.

Nərimanov rayonu timsalında aparılan mühəndis-geoloji təhlillər göstərib ki, ərazinin geoloji mühitinin düzgün qiymətləndirilməsi layihələndirmə və tikinti mərhələsində mühüm əhəmiyyət daşıyır. Tədqiqat çərçivəsində rayonun müxtəlif hissələrində qruntların növü, daşıma qabiliyyəti, deformasiya xüsusiyyətləri və hidrogeoloji şəraiti müqayisəli şəkildə araşdırılıb, seysmik riskin qiymətləndirilməsi üçün elmi əsaslandırılmış yanaşmalar təqdim olunub. Həmçinin intensiv çoxmərtəbəli tikinti, yeraltı kommunikasiyaların genişlənməsi və torpaq qatının strukturuna müdaxilə kimi antropogen amillərin mühəndis-geoloji mühitə təsiri xüsusi vurğulanıb.

Məruzəçi dayanıqlı şəhərsalma prinsiplərinin tətbiqi, mühəndis-geoloji xəritələşdirmənin təkmilləşdirilməsi, seysmik rayonlaşdırma işlərinin aktuallaşdırılması və tikinti normalarına ciddi riayət olunmasının vacibliyini elmi arqumentlərlə əsaslandırıb. Qeyd edilib ki, kompleks geoloji və geofiziki tədqiqatlar seysmik təhlükələrin azaldılması və əhalinin təhlükəsizliyinin təmin olunması baxımından mühüm rol oynayır.

Seminar interaktiv müzakirələrlə davam edib, iştirakçılar tərəfindən mövzu ətrafında suallar ünvanlanıb və elmi fikir mübadiləsi aparılıb. Çıxış edənlər tədqiqatın həm nəzəri, həm də praktik əhəmiyyətini yüksək qiymətləndirib, gələcəkdə Abşeron yarımadasının digər inzibati rayonları üzrə də oxşar kompleks araşdırmaların aparılmasının məqsədəuyğun olduğunu bildiriblər.

# BDU tələbələri ahıl şəxslər üçün sosial xidmət müəssisəsini ziyarət ediblər

*Martın 3-də Jurnalistika fakültəsinin Tələbə Gənclər Təşkilatının (TGT) üzvləri növbəti sosial layihə çərçivəsində ahıl şəxslər üçün sosial xidmət müəssisəsini ziyarət ediblər.*

TGT-nin Jurnalistika fakültəsi üzrə sədri Namiq İslamzadə ahıllara qayğının dövlətin əsas prioritetlərindən biri olduğunu bildirib. Belə görüşlərin həm tələbələr, həm də yaşlı nəslin nümayəndələri üçün mənəvi dəyər daşıdığını diqqətə çatdırıb.

Daha sonra iştirakçılar birlikdə Azərbaycan kinosunun sevilən nümunələrindən olan "Bəyin oğurlanması" filmini izləyiblər. Sonda çay süfrəsi təşkil olunub. Ahılların xatirələri dinlənilib, müəssisənin sakinlərinə hədiyyələr təqdim edilib.

# BDU-nun dosenti Əsmətxanım Məmmədovanın 85 illik yubileyinə həsr olunmuş tədbir

***Martın 5-də Şərqşünaslıq fakültəsinin Tələbə Elmi Cəmiyyətinin (TEC) və Tələbə Gənclər Təşkilatının (TGT) birgə təşkilatçılığı ilə Orta Şərq dilləri və ədəbiyyatı kafedrasının dosenti Əsmətxanım Məmmədovanın 85 illik yubileyinə həsr olunmuş "Şərq qadınının uğur yolu" adlı tədbir keçirilib.***



Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan həyatını elmin inkişafına və gənc nəslin potensialının artırılmasına həsr etmiş tanınmış şərqşünas alim Əsmətxanım Məmmədovanın fəaliyyətinin nümunə olduğunu deyib. Qeyd edib ki, dosent Əsmətxanım Məmmədova 1941-ci ildə ziyalı ailəsində dünyaya göz açıb, orta məktəbi bitirdikdən sonra 1960-cı ildə BDU-nun Şərqşünaslıq fakültəsinin fars şöbəsinə qəbul olunub. 1965-ci ildə Universiteti fərqlənmə diplomu ilə bitirərək, fakültənin Yaxın Şərq dilləri kafedrasında baş laborant kimi elmi fəaliyyətə başlayıb. 1966-1969-cu illərdə AMEA-nın Şərqşünaslıq İnstitutunun aspirantı, 1967-1968-ci illərdə Leninqrad Dövlət Universitetinin Rus dili kafedrasının Eksperimental Fonetika Laboratoriyasının təcrübəçisi olub. 1969-cu ildən BDU Şərqşünaslıq fakültəsinin dosentidir. 1972-ci ildə "Fars dili söz vurğusunun fonetik təbiəti və yeri" adlı namizədlik dissertasiyasını müdafiə edib. Bu günə qədər Əsmətxanım Məmmədovanın fars dilinin fonetika, orfoqrafiya, morfologiya, sintaksis, leksika, üslubiyyatına aid olmaqla, 200-dək məqaləsi ölkə daxilində və xaricində işıq üzü görüb. Onun fars vurğusunun təbiətinə aid tədqiqatı fars dilinin tədrisində xüsusi yer tutur və mütəxəssislər tərəfindən yüksək qiymətləndirilir. 2007-ci ildə çap etdirdiyi "Fars dilində vurğu" adlı eksperimental tədqiqat işi yalnız fars dilçiliyi üçün deyil, həm də ümumi dilçilik üçün faydalı elmi ümumiləşdirmələr və təcrübi nəticələrlə zəngindir. Əsmətxanım Məmmədovanın yaradıcılığının başqa bir qolunu da onun fars dilindən etdiyi tərcümələr təşkil edir. O, müasir fars nəsrinə dair 10-dan çox kiçik və böyük həcmli kitabın mütərcimidir.

Əsmətxanım Məmmədovanın ictimai-siyasi fəaliyyətindən də söz açan dekan bildirib ki, o, 1995-2005-ci illərdə Milli Məclisin I və II çağırış deputatı olub. Tanınmış alim xidmətlərinə görə "Qabaqcıl təhsil işçisi" fəxri nişanı, 3–cü dərəcəli "Əmək" ordeni, "Bakı Dövlət Universitetinin 100 illiyi (1919–2019)" yubiley medalı, Azərbaycan Yazıçılar İttifaqının "Qızıl Qələm" diplomu və müxtəlif fəxri mükafatlarla təltif edilib.

Tədbirdə çıxış edən fakültənin professor-müəllim heyəti dosent Əsmətxanım Məmmədovanın elmi və pedaqoji fəaliyyətindən danışaraq, alimin çoxşaxəli fəaliyyətinə nəzər salıblar. Onun elmi və bədii yaradıcılığının gənc nəslin inkişafında və ümumiyyətlə ölkəmizdə orta Şərq dillərinin öyrənilməsində əvəzsiz nümunə olduğunu vurğulayıblar.

Daha sonra yubilyar Əsmətxanım Məmmədova elmə və alimə göstərilən bu yüksək dəyərə görə təşəkkürünü bildirib: "Elmə və onun inkişafına çalışmış insanlara dəyər verən millər hər zaman qalibdir".

Sonda Əsmətxanım Məmmədovanın həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

# Bu gün görkəmli jurnalist Nəsir İmanquliyevin anım günüdür

***Martın 7-də Azərbaycanın görkəmli jurnalisti, tanınmış ictimai xadim, professor Nəsir İmanquliyevin vəfatından 28 il ötür.***

Peşəkar redaktor, publisist və pedaqoq Nəsir İmanquliyev ömrünü Azərbaycan mətbuatı və mədəniyyətinin inkişafına, peşəkar jurnalist kadrların hazırlanmasına həsr edib.

Nəsir İmanquliyev 22 dekabr 1911-ci ildə Bakıda anadan olub. 1925-1926-cı illərdə Bakı şəhərində peşə məktəbini bitirib, 1934-cü ildə Bakı şəhərində Lassal adına Neft Texnikumuna daxil olub. Dövri mətbuatda ilk yazıları tələbəlik illərində çap olunmağa başlayıb. Tələbəlik illərindən başlayaraq, "Kommunist", "Yeni yol", "Gənc işçi", "Vətənin səsi" qəzetlərində ədəbi işçi, ədəbi şöbənin müdir müavini, şöbə müdiri, məsul katib, redaktor vəzifələrində çalışıb. İkinci dünya müharibəsi zamanı 1942-ci ildə siyasi işçi kimi Krım cəbhəsinə göndərilib, orada "Vuruşan Krım" qəzetinin məsul katibi kimi çalışıb, həmçinin hərbi hissədə tərcüməçi kimi xidmət edib. Bir il sonra "Kommunist" qəzetinə məsul katib təyin olunub, bu qəzetdə vətənpərvərlik mövzusuna həsr edilmiş bir çox məqalələri işıq üzü görüb.

Nəsir İmanquliyev 1947-ci ildən Bakı Dövlət Universitetində pedaqoji fəaliyyətə başlayıb. 1948-1950-ci illərdə Filologiya fakültəsində təhsilini iki ilə müvəffəqiyyətlə başa vurub. 1947-1998-ci illərdə Bakı Dövlət Universitetində Jurnalistika fakültəsinin Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasında müəllim, dosent, professor olub. O, respublika üçün gənc jurnalist kadrların hazırlanması işində fəal iştirak edib, bu işə öz əvəzsiz töhfəsini verib. 1958-ci ildə Azərbaycanda yeni tipli "Bakı" və "Baku" (1953) axşam qəzetlərinin baş redaktoru təyin edilib.

Azərbaycan Mədəniyyət Nazirliyinin Radiolaşdırma Baş İdarəsinin rəisi və Azərbaycan SSR Nazirlər Soveti yanında Radio və Televiziya verilişləri Komitəsi sədrinin birinci müavini vəzifələrində işləyib. 1976-cı ildə "Azərbaycan SSR Əməkdar mədəniyyət işçisi", 1990-cı ildə "Əməkdar jurnalist" fəxri adlarına layiq görülüb.

Professor Nəsir İmanquliyev 1998-ci il martın 7-də Bakı şəhərində vəfat edib.

2011-ci ilin dekabrında Azərbaycan Respublikasının Prezidentinin sərəncamına əsasən Azərbaycanda Nəsir İmanquliyevin 100 illiyinə həsr olunmuş silsilə yubiley tədbirləri keçirilib.

Nəsir İmanquliyev Azərbaycan milli mətbuatının inkişafı uğrunda yorulmadan qələm çalıb, milli ənənələrə bağlı orijinal bir jurnalistlik məktəbi yaradıb. Ömrünün 50 ilini Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində milli kadrların hazırlanmasına sərf etmiş alim-publisist zəngin pedaqoji fəaliyyəti ilə Azərbaycan jurnalistlərinin böyük bir nəslinin formalaşmasında mühüm rol oynayıb. O, "Radio proqramı", "Vətənin səsi", "Bakı" və "Baku" qəzetlərinin ideya rəhbəri-qurucusu, Bakı Dövlət Universitetinin professoru, görkəmli jurnalist, ictimai xadim kimi çoxsahəli fəaliyyətində, xalqa, vətənə, millətə əsl sədaqət nümunəsi göstərib.

Nəsir İmanquliyevin işıqlı xatirəsi onu sevənlərin, tələbələrinin qəlbində əbədi yaşayacaq!

# Audiovizual Şura BDU tələbələri üçün növbəti seminar təşkil edib

***Martın 12-də Audiovizual Şura Jurnalistika fakültəsinin tələbələri üçün növbəti seminar təşkil edib. Tədbir BDU, Audiovizual Şura, Medianın İnkişafı Agentliyi arasında imzalanmış anlaşma memorandumu çərçivəsində keçirilib.***

BDU-nun Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının müdiri Aynur Nəsirova audiovizual media və onun tənzimləməsi məsələlərinin öyrənilməsinin vacib olduğunu, gənc jurnalistlərin bu istiqamətdə məlumatlılığının artırılması istiqamətində işlərin davam etdiriləcəyini qeyd edib.

Audiovizual Şurada sədrin müşaviri Haşim Əliməmmədzadə Şuranın fəaliyyət istiqamətləri, həyata keçirilən tənzimlənmə tədbirləri, o cümlədən audiovizual media subyektlərinin maarifləndirilməsi işi barədə tələbələrə ətraflı məlumat verib. Audiovizual Şuranın Hüquq və beynəlxalq əməkdaşlıq şöbəsinin baş məsləhətçisi Ayxan Sadıqlı "Azərbaycan media məkanında media subyektinin və jurnalistin hüquqi statusu" mövzusunda təqdimatla çıxış edərək, tələbələrə audiovizual media subyektləri və onların fəaliyyətinin hüquqi normalarından söz açıb.

# BDU-da Xalq şairi Səməd Vurğun irsinə həsr olunmuş elmi seminar

***Martın 19-da İnformasiya və sənəd menecmenti fakültəsində Xalq şairi Səməd Vurğunun 120 illiyinə həsr olunmuş elmi seminar keçirilib. Elmi seminarda BDU-nun Redaksiya-nəşriyyat işi kafedrasının müdiri, dosent Knyaz Aslan "Xalq şairi Səməd Vurğunun irsində kitab və mütaliə" mövzusunda məruzə edib.***



Knyaz Aslan bildirib ki, Azərbaycanın görkəmli şəxsiyyətlərinin yubileylərinin keçirilməsi, onların irsinin təbliği hər zaman xalqımızın Ümummilli Lideri Heydər Əliyevin diqqət mərkəzində olmuşdur: "Ulu Öndər Səməd Vurğunun yaradıcılığını hər zaman yüksək qiymətləndirmiş, hələ sovet dövründə böyük şairin 70 illik yubileyinin ittifaq səviyyəsində qeyd olunmasına nail olmuşdur. Müstəqillik illərində də Ümummilli Lider şairin ədəbi-bədii irsini geniş şəkildə təbliğ etmişdir". Natiq bildirib ki, həmin missiya bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən davam etdirilir. Prezident İlham Əliyevin "Xalq şairi Səməd Vurğunun 120 illiyinin qeyd edilməsi haqqında" 23 fevral 2026-cı il tarixli Sərəncamının əhəmiyyətini vurğulayan natiq bildirib ki, ölkə rəhbərinin mütəfəkkir şairin yaradıcılığına verdiyi yüksək qiymət Səməd Vurğun irsinin müxtəlif aspektlərdən araşdırılmasını elm və təhsil müəssisələrinin qarşısında mühüm vəzifə kimi qoyur.

Məruzədə ustad sənətkarın yaradıcılığında kitab və mütaliə məsələləri geniş şəkildə təhlil olunub. Bildirilib ki, Səməd Vurğun həm bədii əsərlərində, həm də elmi-publisistik məqalələrində kitaba, mütaliəyə yüksək qiymət vermiş və təbliğ etmişdir. Məruzəçi şairin əsərlərində bu mövzuların əksini tapdığı poetik nümunələri və elmi qənaətləri səsləndirib, şairin yaradıcılığının ölkəmizdə mütaliə mədəniyyətinin inkişafında və oxucu zövqünün formalaşmasında mühüm rol oynadığını vurğulayıb.

Səməd Vurğunun ev-muzeyinin direkoru – görkəmli ədibin nəticəsi Vurğun Vəkilov çıxış edərək tədbirin təşkilinə görə BDU rəhbərliyinə, eləcə də məruzəçiyə və seminar iştirakçılarına təşəkkürünü bildirib.

Müzakirələrlə davam edən seminarın sonunda iştirakçıların sualları cavablandırılıb.

# Filosof, sosioloq həmkarım, məntiqi təfəkkür sahibi, gözəl idarəçi

***Fazil müəllimin vəfatı ilə bağlı dərin hüzn hissi keçirsək də, onun 85 illik yubileyinin qeyd olunması xatirəsinə ehtiramın ifadəsi kimi xüsusi əhəmiyyət kəsb edir. Sevinc və kədərin vəhdəti fonunda onun şəxsiyyətinə xas olan yüksək mənəvi və peşəkar keyfiyyətlər daha aydın şəkildə dərk olunur. Müəllim kimi geniş rəğbət qazanması, alim kimi tanınması, elm və təhsil proseslərini səmərəli idarə etməsi, eyni zamanda insani münasibətlərdə səmimiyyəti Fazil müəllimin xarakterik cəhətləri kimi yadda qalır.***



Uzun illər pedaqoji fəaliyyətlə məşğul olan bir müəllim kimi qeyd etməliyəm ki, tələbələrin nailiyyətləri müəllim üçün ən böyük mənəvi qazancdır. Bu baxımdan Fazil Qulammirzə oğlu Vahidov mənim üçün xüsusi əhəmiyyət daşıyan tələbələrdən biri olmuşdur. Onun filologiya fakültəsində təhsil almasına baxmayaraq, sonradan fəlsəfə sahəsində uğurlu elmi fəaliyyət göstərməsi diqqətəlayiqdir. “Ömər Faiq Nemanzadənin ictimai-siyasi və fəlsəfi görüşləri” mövzusunda müdafiə etdiyi namizədlik dissertasiyası bu istiqamətdə sanballı tədqiqat kimi qiymətləndirilə bilər. Sonrakı dövrlərdə onun elmi maraq dairəsi daha da genişlənmişdir.

Fazil müəllimin peşəkar fəaliyyətində müəllimlik xüsusi yer tutmuşdur. İlk illərdə müəyyən həyəcan hissi keçirməsinə baxmayaraq, o, qısa müddətdə pedaqoji ustalığını inkişaf etdirmiş və tələbə auditoriyasının sevimli müəllimlərindən birinə çevrilmişdir. Onun dərs demə üslubu ciddi hazırlıqla yanaşı, yaradıcı yanaşma və sərbəst təfəkkürə əsaslanırdı. Mühazirələrində irəli sürdüyü ideyalar tez-tez sonradan elmi tədqiqatların mövzusuna çevrilirdi.

Müxtəlif dövrlərdə onunla elmi və pedaqoji əməkdaşlıq etmişik. Bu əməkdaşlıq çərçivəsində Fazil Vahidov elmi kadrların hazırlanmasında mühüm rol oynamış, dissertasiya şuralarında fəal iştirak etmiş, elmi katib kimi çalışmış və çoxsaylı dissertantlara rəhbərlik etmişdir. Bəzi hallarda yerli və xarici (o cümlədən İran İslam Respublikasından olan) tədqiqatçılara birgə elmi rəhbərlik etmiş və müsbət nəticələr əldə olunmuşdur.

Fazil müəllim həmçinin Bakı Dövlət Universitetində inzibati fəaliyyətlə də məşğul olmuş, “Sosial elmlər və psixologiya” fakültəsinin dekanı kimi savadlı, prinsipial və təşkilatçı rəhbər kimi tanınmışdır. Onun idarəçilik fəaliyyəti zamanı fakültədə tədris və imtahan prosesləri yüksək səviyyədə təşkil olunmuşdur.

“Sosiologiya” kafedrasının yaradılması və inkişafı prosesində Fazil müəllimin rolu xüsusi qeyd olunmalıdır. O, kafedranın formalaşdırılması, fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi və elmi potensialının gücləndirilməsində mühüm töhfələr vermişdir. Eyni zamanda, sosiologiya sahəsində dərs vəsaitlərinin hazırlanması və tərcüməsi istiqamətində də fəal iştirak etmişdir. Rus dilindən Azərbaycan dilinə tərcümə olunmuş “Ümumi sosiologiya” dərs vəsaitinin elmi redaktoru kimi onun əməyi nəşrin keyfiyyətinin yüksəldilməsində əhəmiyyətli olmuşdur. Bundan əlavə, “Qərbi Avropada və ABŞ-da sosiologiya tarixi” dərsliyinin hazırlanmasında, xüsusilə Oqyust Kont və Herbert Spenserin sosioloji baxışlarına dair bölmələrin tərcüməsində onun peşəkarlığı aydın şəkildə özünü göstərmişdir.

Fazil Vahidovun elmi fəaliyyətində əməkdaşlıq əlaqələri də mühüm yer tutmuşdur. O, həmkarı Tahir Ağayevlə birgə hazırladığı “Sosiologiya” dərs vəsaiti ilə ali məktəb tələbələri üçün dəyərli mənbə yaratmışdır. Bu nəşr müasir tələblərə cavab verən elmi-pedaqoji vəsait kimi qiymətləndirilə bilər.

Eyni zamanda, Fazil müəllim universitetin ictimai-elmi həyatında fəal iştirak etmiş, çıxışları ilə geniş auditoriyanın marağını qazanmışdır. Onun natiqlik qabiliyyəti, prinsipial mövqeyi və elmi dünyagörüşü ona həmkarları və tələbələri arasında hörmət qazandırmışdır.

Fazil müəllim yalnız alim və pedaqoq kimi deyil, həm də yüksək mənəvi keyfiyyətlərə malik insan kimi yadda qalmışdır. O, mehriban ailə başçısı olmuş, övladları və nəvələri ilə nümunəvi ailə mühiti yaratmışdır.

Nəticə etibarilə, Fazil müəllimin çoxşaxəli fəaliyyəti - pedaqoji, elmi, təşkilati və ictimai istiqamətlər üzrə gördüyü işlər onun Azərbaycan elmi və təhsil mühitində layiqli yer tutduğunu göstərir. Onun əziz xatirəsi daim ehtiramla anılacaqdır.

***İzzət Rüstəmov***
*Fəlsəfə elmləri doktoru, professor*

# Fəziləti, əxlaqı və davranışı ilə xatirələrdə yaşayan alim

***İctimai elmlər sahəsində, istər sovet dövründə, istərsə də müstəqillik illərində formalaşmış elmi istiqamətlər çərçivəsində əldə olunan nailiyyətlərin xatırlanması və dəyərləndirilməsi mühüm əhəmiyyət kəsb edir.***

Ekologiya, politologiya, fəlsəfə, sosiologiya və süni intellekt kimi sahələrdə fəaliyyət göstərən alimlərin elmi uğurları ölkənin intellektual potensialının göstəricisidir. Bu kontekstdə alimlərin əsas vəzifələrindən biri keçmiş elmi irslə müasir elmi nailiyyətlər arasında əlaqələri müəyyənləşdirmək və onları elmi əsaslarla izah etməkdir.

Azərbaycan elmi mühitində müxtəlif nəsilləri təmsil edən istedadlı alimlər yetişmişdir. Yaşlı nəslin nümayəndələrinin sayı zamanla azalsa da, onların qoyduqları elmi irs və dəyərlər yaşamaqda davam edir. Bu nəslin görkəmli nümayəndələrindən biri də özünəməxsus elmi dəsti-xətti ilə seçilən Fazil Vahidov olmuşdur.

Fazil Vahidov elmi mühitdə tanınan alimlərdən biri kimi, zəngin elmi və pedaqoji fəaliyyəti ilə seçilmişdir. Onunla ilk tanışlığım Bakı Marksizm-Leninizm Universitetində təhsil aldığım dövrə təsadüf edir. Həmin dövrdə universitetin rektoru Vəli Məmmədovun təşəbbüsü ilə “Elmi kommunizm” və “Kommunist əxlaqının əsasları” fənləri üzrə mühazirələr oxuyan müəllimlər arasında Fazil Vahidov da yer alırdı. Onun mühazirələri dinləyicilər tərəfindən xüsusi maraqla qarşılanırdı.

1976-1978-ci illərdə aparılan tədris prosesində Fazil müəllimin bilik və təcrübəsindən geniş istifadə olunurdu. O, mühazirələrində marksist-leninçi fəlsəfə, elmi dünyagörüşü, şəxsiyyətin formalaşması, ictimai şüur və ideologiya kimi mövzulara sistemli yanaşır, bu məsələləri dövrün aktual problemləri ilə əlaqələndirirdi. Bu isə dinləyicilərdə mövzuya marağın artmasına səbəb olurdu.

Fazil Vahidovun pedaqoji fəaliyyətində diqqəti cəlb edən cəhətlərdən biri də onun interaktiv tədris üsullarından istifadə etməsi idi. O, mühazirələr zamanı dinləyicilərə suallar ünvanlayır, kazus metodundan istifadə edərək onların mövzuya münasibətini öyrənir, daha sonra isə elmi əsaslandırılmış izahlarla mövzunu geniş şəkildə şərh edirdi. Xüsusilə “Mənəvi azadlıq və şəxsiyyət məsuliyyəti” mövzusunda mühazirələri azadlıq anlayışının fəlsəfi mahiyyətinin, onun hüquqi və mənəvi aspektlərinin dərin təhlili ilə yadda qalırdı. Bu kontekstdə o, Jan-Pol Sartrın azadlıq konsepsiyasına da müraciət edirdi.

Fazil müəllimin elmi fəaliyyəti haqqında məlumatlar onun 1972-ci ildə “Ömər Faiq Nemanzadənin ictimai-siyasi və fəlsəfi görüşləri” mövzusunda namizədlik dissertasiyası müdafiə etməsi ilə daha da aydınlaşır. Bu tədqiqat onun elmi istiqamətinin formalaşmasında mühüm rol oynamışdır.

Onunla ikinci görüşüm Azərbaycanın müstəqillik dövrünə təsadüf edir. 2005-2006-cı illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunda çalışdığım zaman sənədlərimi Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin nəzdində fəaliyyət göstərən Müdafiə Şurasına təqdim edərək dissertasiyamı müdafiə etdim. Bu dövrdə Fazil müəllimlə yenidən görüşmək və fikir mübadiləsi aparmaq imkanı yarandı.

Söhbətlər zamanı onun insanlara qarşı diqqətli və qayğıkeş münasibəti bir daha aydın hiss olunurdu. O, müxtəlif bölgələrdən olan alimlərin fəaliyyəti ilə maraqlanır, onların elmi uğurlarını yüksək qiymətləndirirdi. Bu xüsusiyyətlər onun yüksək mənəvi keyfiyyətlərinin, humanist dünyagörüşünün və ədalətsevərliyinin göstəricisi idi.

Belə şəxsiyyətlərin həyat yolu və fəaliyyəti haqqında deyilmiş müdrik fikirlərdən biri bu kontekstdə xüsusi əhəmiyyət kəsb edir. Görkəmli Azərbaycan mütəfəkkiri Mirzə Fətəli Axundov qeyd edirdi ki, insan üçün ən böyük səadət sağlığında xalqın sevgisini qazanmaq və vəfatından sonra xatirəsinin ehtiramla yad olunmasıdır.

***Əli İbrahimov***
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu “Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq fəlsəfəsi” şöbəsinin aparıcı elmi işçisi, f.ü.f.d.,dosent*

# Zəhmətkeş alim, xeyirxah insan Fazil Vahidovun ömür kitabından səhifələr

***Fazil Qulammirzə oğlu Vahidov 1941-ci ilin mart ayında Ağsu rayonunun Nuran kəndində anadan olmuşdur. 1958-ci ildə Ağsu qəsəbə orta məktəbini bitirmiş, 1958-1963-cü illərdə Bakı Dövlət Universitetinin Filologiya fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə 1963-cü ildə Kürdəmir rayonunda müəllim kimi başlamış, 1965-1967-ci illərdə Böyük Kəngərli kənd məktəbində direktor vəzifəsində çalışmışdır.***

1967-1970-ci illərdə Bakı Dövlət Universitetinin Fəlsəfə kafedrasında aspirant olmuş, 1970-ci ildən etibarən həmin universitetdə elmi-pedaqoji fəaliyyətini davam etdirmişdir. 1972-ci ildə “Ömər Faiq Nemanzadənin ictimai-siyasi və fəlsəfi görüşləri” mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək fəlsəfə elmləri namizədi elmi dərəcəsi almış, 1974-cü ildən isə BDU-nun dosenti olmuşdur.

1992-2006-cı illərdə Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin dekanı olmuş, “Ümumi sosiologiya” və “Sosioloji tədqiqatın metodologiyası və metodikası” fənlərini tədris etmişdir. Fazil Vahidov səksənə yaxın elmi məqalə və tezisin, bir monoqrafiya, bir broşura və dörd kitabın müəllifi olmuş, yeddi elmlər namizədi yetişdirmişdir. 2007-ci ildə “İlin müəllimi” fəxri adına layiq görülmüşdür. 26 noyabr 2024-cü ildə vəfat etmişdir.

Onun 2026-cı ilin mart ayında tamam olan 85 illik yubileyi münasibətilə xatirəsinin əbədiləşdirilməsi məqsədilə fakültə rəhbərliyi və Sosiologiya kafedrasının təşəbbüsü ilə xatirə kitabının hazırlanmasına başlanılmışdır. Bu məqsədlə onunla birlikdə çalışmış həmkarlarına və tələbələrinə müraciət edilmiş, qısa müddətdə çoxsaylı xatirə materialları toplanmışdır. Həmçinin həyat yolunun daha dolğun işıqlandırılması üçün ailə üzvləri ilə əlaqə saxlanılmış, qızları Kəmalə və Günay xanımların təqdim etdiyi məlumatlar bu işə mühüm töhfə vermişdir.

Fazil Vahidov çoxuşaqlı ailədə böyümüş, ailənin kiçik övladı olmuşdur. Atası Qulammirzə kişi uzun illər kolxoz sədri kimi fəaliyyət göstərmiş, xeyirxahlığı və humanistliyi ilə seçilmişdir. Müharibə illərində ehtiyacı olan ailələrə göstərdiyi yardım onun ailəsində formalaşan mənəvi dəyərlərin əsasını təşkil etmişdir. Bu mühit Fazil müəllimin şəxsiyyətinin formalaşmasına əhəmiyyətli təsir göstərmişdir.

Uşaqlıq və məktəb illəri müharibədən sonrakı dövrün çətinlikləri ilə müşayiət olunmuşdur. Maddi çatışmazlıqlara baxmayaraq, təhsilə olan marağı və əzmi onu ali təhsil almağa və elmi fəaliyyətə yönəltmişdir. Aspiranturaya qəbul olunması ailəsi tərəfindən böyük sevinc hissi ilə qarşılanmışdır. Bakı Dövlət Universitetində fəaliyyət göstərmək onun əsas arzularından biri olmuş və bu arzunu reallaşdıraraq uzun illər universitetin elmi-pedaqoji həyatında mühüm rol oynamışdır. Onun fəaliyyətinin erkən dövrlərində professor Həsən Şirəliyevin dəstəyi xüsusi əhəmiyyət kəsb etmişdir. Fazil müəllim həmkarları və yaxınları tərəfindən yüksək mənəvi keyfiyyətləri ilə seçilən bir şəxs kimi xatırlanır. O, iş yoldaşları haqqında heç vaxt mənfi fikir bildirməz, qohumlarına və ehtiyacı olan insanlara daim dəstək göstərərdi. Bu xüsusiyyətlər onun ictimai nüfuzunu daha da artırmışdır.

Ailə həyatı da onun həyatında mühüm yer tutmuşdur. Azərbaycan Pedaqoji Universitetinin məzunu Şövkət xanımla qurduğu ailədə üç övlad böyütmüşdür. 2003-cü ildə həyat yoldaşının vəfatı onun üçün ağır mənəvi sarsıntı olsa da, o, övladlarına bağlılığını qoruyaraq həyatını onlara və peşəsinə həsr etmişdir. Fazil Vahidov ömrünün son illərinə qədər elmi-pedaqoji fəaliyyətini davam etdirmiş, universitetlə əlaqəsini kəsməmişdir. Onun zəhmətkeşliyi, məsuliyyət hissi və humanist davranışları həyatının bütün mərhələlərində özünü göstərmişdir. Bu gün Fazil Vahidov fiziki olaraq aramızda olmasa da, onun xatirəsi onu tanıyanların yaddaşında yaşayır. O, tələbələrinin yaddaşında qayğıkeş müəllim, həmkarlarının xatirəsində prinsipial və bacarıqlı rəhbər, ailəsinin qəlbində isə fədakar ata kimi qalmaqdadır. Onun həyat yolu ləyaqətlə yaşanmış bir ömrün nümunəsi olmaqla yanaşı, həm də Azərbaycan elmi və təhsil tarixinin bir parçasıdır.

***Nəzakət Kərimova***
*Sosial elmlər və psixologiya fakültəsinin Sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini*

# Türkiyənin Ege Universitetinin professoru BDU-da ustad dərsi keçib

***Martın 3-də Coğrafiya fakültəsində 27 mart - Azərbaycan Respublikasında “Elm günü”nə həsr olunmuş tədbirlər çərçivəsində Türkiyənin Ege Universitetinin Tibb fakültəsinin Uşaq sağlamlığı və xəstəlikləri kafedrasının professoru, tibb elmləri doktoru, molekulyar və diaqnostik genetika sahəsində tanınmış alim Afiq Bərdəlinin “FMF (Ailəvi Aralıq dənizi qızdırması) xəstəliyinin coğrafiyası” mövzusunda ustad dərsi keçirilib.***

Coğrafiya fakültəsinin dekanı, professor Məqsəd Qocamanov müasir dövrdə xəstəliklərin yayılmasının coğrafi tədqiqinin və nozocoğrafi tədqiqatların əhəmiyyətini vurğulayıb. O, Türkiyədə çalışan tanınmış azərbaycanlı alim, genetik xəstəliklər, uşaq xəstəlikləri, molekulyar və diaqnostik genetika sahəsində ixtisaslaşmış həkim Afiq Bərdəlinin elmi tədqiqatları barədə məlumat verib.

Professor Afiq Bərdəli Ailəvi Aralıq dənizi qızdırmasının əsasən Aralıq dənizi regionunda yayılmış genetik xəstəliklərdən biri kimi iltihabla müşayiət olunan təkrarlanan qızdırma tutmaları ilə xarakterizə olunduğunu deyib. Bu xəstəlik immun sisteminin anadangəlmə




düzgün işləməməsi nəticəsində yaranır və bədənin öz toxumalarına qarşı həddindən artıq reaksiya verməsi ilə müşahidə olunur. FMF qızdırma epizodları qarın ağrısı, dəri səpkiləri və ümumi halsızlıq kimi əlamətlərlə ortaya çıxır. Xəstəlikdən ən çox təsirlənən orqanlar qarın boşluğu (periton), ağciyər plevrası, oynaqlar, böyrəklər və dəridir. Professor Ailəvi Aralıq dənizi qızdırmasının yayılma coğrafiyası, simptomatik inkişaf xüsusiyyətləri, qarşısının alınması yolları ilə bağlı iştirakçıları məlumatlandırıb.

# AMEA-nın muxbir üzvü Ramiz Alıquliyev BDU-da ustad dərsi keçib

***Martın 4-də AMEA-nın muxbir üzvü, texnika elmləri doktoru, İnformasiya Texnologiyaları İnstitutunun şöbə müdiri Ramiz Alıquliyev Tətbiqi-riyaziyyat və kibernetika fakültəsində “Xüsusi süni intellektdən super süni intellektə doğru: təkamül və perspektivlər” mövzusunda ustad dərsi keçib.***

Məruzəçi süni intellektin keçdiyi yol barədə məlumat verib, ölkəmizdə rəqəmsal inkişaf, kibertəhlükəsizlik və süni intellekt sahələrinin inkişafı istiqamətində görülən işlərdən bəhs edib. O, hazırda istifadə edilən sistemlərin xüsusi süni intellekt mərhələsinə aid olduğunu deyib. Bu sistemlər yalnız konkret tapşırıqları (səs tanıma, tibbi diaqnostika, avtonom nəqliyyat idarəsi və s.) yerinə yetirir. Çox



effektiv olsa da, bu sistem yalnız bir sahədə fəaliyyət göstərə bilir. Dünyanın aparıcı texnologiya mərkəzləri, o cümlədən “OpenAI” və “DeepMind” artıq növbəti mərhələ - ümumi süni intellekt üzərində çalışır.

Ümumi süni intellekt insan kimi düşünə, öyrənə və müxtəlif sahələrdə qərar verə bilən sistem deməkdir. Bu mərhələ reallaşarsa, texnologiya tarixində tamamilə yeni bir dövr başlayacaq. Super süni intellekt mərhələsi isə insan zəkasını bütün sahələrdə üstələyə bilən sistemdir: “Texnologiyanın insanı, yoxsa insanın texnologiyanı idarə edəcəyi əsas suallardan biridir. Süni intellektin gələcəyi onun inkişaf sürətindən deyil, onu necə idarə edəcəyimizdən asılıdır”.

Məruzəçi süni intellektin perspektivləri və gətirdiyi risklərdən də danışıb.

Ustad dərsinin sonunda Ramiz Alıquliyev seminar iştirakçılarının çoxsaylı suallarını cavablandırıb.

# Akademik Vaqif Fərzəliyev BDU-da ustad dərsi deyib

***Martın 5-də Kimya fakültəsinin təşkilatçılığı ilə 27 mart – Azərbaycan Respublikasında “Elm günü”nə həsr olunmuş tədbirlər çərçivəsində Kimya fakültəsində akademik Vaqif Fərzəliyevin “Xüsusi təyinatlı sürtkü yağlarının yaradılması” mövzusunda ustad dərsi keçirilib.***

Fakültə dekanı Fuad Kərimli ölkəmizdə “Elm günü”nün əhəmiyyəti, eləcə də tanınmış alimlərin gənc nəslin formalaşmasında və elmi potensialın inkişafında oynadığı mühüm rol barədə ətraflı məlumat verib.



Akademik Vaqif Fərzəliyev məruzəsində neft yağları və onlara artan tələbatdan söz açıb, tədbir iştirakçılarını ölkəmizin müdafiə qabiliyyətinin gücləndirilməsində istifadə olunan T-55, T-72 və T-90 tankları üçün xüsusi təyinatlı sürtkü yağlarının yaradılması istiqamətində rəhbərlik etdiyi Aşqarlar Kimyası İnstitutunda aparılan elmi-tədqiqat işləri haqqında məlumatlandırıb. O, institutun fəaliyyəti dövründə əldə etdiyi elmi nailiyyətlər və layiq görüldüyü mükafatlar haqqında da danışıb.

Məruzədə xüsusi təyinatlı yağların əsas komponentləri, onların tətbiqi zamanı qarşıya çıxan problemlər, tullantısız texnologiyaların qurulması məsələləri geniş təqdim olunub. Akademik M-16İXP-3 və M-16İXP-U markalı xüsusi təyinatlı yağların ölkəmizin müdafiə sənayesindəki əhəmiyyətinə xüsusi diqqət yetirib. Çıxış zamanı bu sahədə əldə etdiyi uğurlar və həmin tədqiqatlara görə layiq görüldüyü Dövlət mükafatı da iştirakçıların diqqətinə çatdırıb.

# “Xüsusi bilik sahələrinin beynəlxalq akkreditasiyası” mövzusunda ustad dərsi keçirilib



***Martın 10-da Elm Gününə həsr olunmuş tədbir çərçivəsində Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin Politologiya və Sosiologiya kafedrasının təşkilatçılığı ilə “Xüsusi bilik sahələrinin beynəlxalq akkreditasiyası imkanları (siyasi aspektdən yanaşma)” mövzusunda ustad dərsi təşkil olunub.***

Ustad dərsinin qonağı Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin Keyfiyyətə təminat idarəsinin rəisi, ədliyyə müşaviri, hüquq elmləri üzrə fəlsəfə doktoru Cabir Ahmet olub. Tədbirdə universitetin müəllim heyəti, doktorantlar, tələbələr və elmi ictimaiyyət nümayəndələri iştirak edib.

Məruzə zamanı müasir elmi və praktik fəaliyyət sahələrində “xüsusi bilik” anlayışının mahiyyəti və onun tətbiq imkanları geniş şəkildə təhlil olunub. Bildirilib ki, qlobal informasiyalaşma şəraitində xüsusi biliklərin sərhədləri dəyişir və ənənəvi yanaşmalar artıq müasir dövrün tələblərinə tam cavab vermir. Bu baxımdan, xüsusilə süni intellekt texnologiyalarının inkişafı fonunda əvvəllər yalnız dar ixtisaslaşmış mütəxəssislərə aid edilən biliklərin ictimai əlçatanlığı məsələsi yeni elmi və metodoloji müzakirələr yaradır.

Ustad dərsi çərçivəsində elmi, eksperimental və sınaq tədqiqatlarının beynəlxalq səviyyədə tanınması üçün akkreditasiya mexanizmlərinin rolu xüsusi qeyd edilib. Vurğulanıb ki, tədqiqat proseslərinin normativ tələblərə uyğunlaşdırılması, standartlaşdırma sisteminin inkişafı və keyfiyyət idarəetmə mexanizmlərinin tətbiqi elmi müəssisələrin beynəlxalq elmi sistemə inteqrasiyası baxımından mühüm əhəmiyyət daşıyır.

Qeyd olunub ki, Azərbaycanın qlobal elmi və texnoloji sistemlərə inteqrasiyası, elmi müəssisələrin institusional və texniki potensialının gücləndirilməsi, eləcə də tədqiqat nəticələrinin beynəlxalq səviyyədə tanınması dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Son dövrdə bu sahənin texnik tənzimlənməsi və milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğun formalaşdırılmasına dair qanunvericilik və institusional sahədə əsaslı tədbirlər həyata keçirilir.

# “100 illik qurultayın işığında türkologiyanın inkişaf yolu” – BDU-da ustad dərsi

***Martın 4-də Şərqşünaslıq fakültəsində 27 mart – Azərbaycan Respublikasında “Elm günü”nə həsr olunmuş tədbirlər çərçivəsində fakültənin məzunu, türkoloq-alim, filologiya elmləri doktoru, professor Tofiq Məliklinin “100 illik qurultay işığında türkologiyanın inkişaf yolları” mövzusunda ustad dərsi keçirilib.***

Əvvəlcə Şərqşünaslıq fakültəsinin elmi işlər üzrə dekan müavini Nigar İsmayılzadə tanınmış türkoloq-alim Tofiq Məliklinin həyat və yaradıcılığı haqqında məlumat verib. Professor Tofiq Məlikli ustad dərsində XX əsrin əvvəllərində keçirilmiş Birinci Türkoloji Qurultayın türk dünyası üçün əhəmiyyəti, qurultayın elmi irsinin müasir türkologiyanın formalaşmasına təsirini geniş təhlil edib. Məruzədə qurultayın ortaq əlifba, dil birliyi, terminologiya və milli-mədəni kimlik məsələlərinin müzakirəsində oynadığı rola xüsusi diqqət yetirilib. Professor Tofiq Məlikli türkologiyanın keçdiyi inkişaf mərhələlərini elmi faktlar əsasında şərh edib, 100 illik elmi irsin bu gün də aktual olduğunu vurğulayıb. O, müasir dövrdə türkologiyanın yalnız filoloji sahə kimi deyil, həm də mədəniyyətlərarası əlaqələrin, diplomatik münasibətlərin və regional əməkdaşlığın mühüm istiqaməti kimi dəyərləndirildiyini qeyd edib.

# BDU-da karbon nanodoldurucuların elektromaqnit udma və zəiflətmə göstəricilərinə təsiri öyrənilir

***Martın 3-də Fizika fakültəsində karbon tərkibli nanodoldurucuların elektromaqnit udma və zəiflətmə göstəricilərinə təsiri öyrənilir.***

Fakültədə 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş tədbirlər çərçivəsində "Polimer–maqnit nanohissəcikləri–karbon nanoborularından ibarət sistemlərdə QHs tezlik diapazonunda elektromaqnit ekranlama və udulma prosesləri" mövzusunda elmi seminar keçirilib. Nanomaterialların kimyəvi fizikası kafedrasının müəllimi Həbibə Şirinova mövzu üzrə məruzə edib. Məruzədə yüksək tezliklər diapazonunda elektromaqnit şüalanmanın təsir mexanizmləri, bu şüalanmanın materiallarla qarşılıqlı təsiri və müasir nanokompozit sistemlərin elektromaqnit ekranlama qabiliyyəti ətraflı şəkildə təqdim olunub. Xüsusilə polimer matris əsasında maqnetit və karbon tərkibli nanodoldurucuların birgə tətbiqinin kompozit materialların elektromaqnit udma və zəiflətmə göstəricilərinə təsiri elmi əsaslarla izah edilib.

Təqdimatda nanohissəciklərin paylanmasının, fazalararası qarşılıqlı təsirin, həmçinin dielektrik və maqnit itkilərinin elektromaqnit udulma mexanizmlərində rolu xüsusi vurğulanıb. Bildirilib ki, QHz tezlik diapazonunda fəaliyyət göstərən rabitə sistemlərinin, radar qurğularının və simsiz texnologiyaların sürətli inkişafı elektromaqnit müdafiə materiallarına olan tələbatı əhəmiyyətli dərəcədə artırır.

Qeyd olunub ki, hazırlanmış nanokompozit sistemlər yüksək ekranlama effektivliyi ilə yanaşı, aşağı çəki, elastiklik və texnoloji uyğunluq baxımından perspektivli materiallar hesab olunur. Aparılmış eksperimental tədqiqatların nəticələri komponentlərin optimal nisbətinin və struktur xüsusiyyətlərinin elektromaqnit dalğalarının həm əks olunması, həm də udulması proseslərini effektiv şəkildə tənzimləməyə imkan verdiyini göstərib.

Seminar iştirakçıları mövzuya böyük maraq göstərib, müzakirələr zamanı müdafiə sənayesi, telekommunikasiya, aviasiya və elektron avadanlıqların elektromaqnit uyğunluğu sahələrində tətbiq perspektivləri ilə bağlı suallar səsləndirilib.

Sonda məruzəçi aparılan tədqiqatların gələcək istiqamətləri, o cümlədən daha geniş tezlik diapazonunda ölçmələrin aparılması və yeni nəsil çoxfunksiyalı nanokompozit materialların hazırlanması planları barədə məlumat verib.

# BDU-da "Memarlıq və şəhər sosiologiyası" adlı tədbir

***Martın 3-də Sosial elmlər və psixologiya fakültəsinin Sosial iş kafedrasının təşkilatçılığı ilə "Memarlıq və şəhər sosiologiyası" adlı tədbir keçirilib.***

Sosial iş kafedrasının müdiri Üzeyir Şəfiyev qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 22 dekabr 2025-ci il Sərəncamı ilə 2026-cı il "Şəhərsalma və Memarlıq İli" elan edilib. Azərbaycanın BMT-nin Məskunlaşma Proqramı ilə əməkdaşlığı, milli şəhərsalma forumları və 2026-cı ildə 17-22 may tarixlərində Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) ölkəmizin davamlı urbanizasiya prosesindəki artan rolunu və beynəlxalq əməkdaşlığının uğurunu nümayiş etdirir.

Kafedra müdiri diqqətə çatdırıb ki, "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusunda keçiriləcək WUF13 şəhərsalma ilə bağlı ən aktual məsələləri müzakirə etmək üçün dünyanın müxtəlif ölkələrindən olan hökumət nümayəndələri, alimlər, biznesmenlər, icma rəhbərləri və digər maraqlı tərəfləri bir araya gətirən qlobal platformadır.



2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsinin təsadüfi olmadığını bildirən Üzeyir Şəfiyev Azərbaycan Prezidenti İlham Əliyevin bu istiqamətdə çıxışlarının şəhər sosiologiyası baxımından mühüm məna kəsb etdiyini vurğulayıb: "Hazırda respublikamızda paytaxtdan başlayaraq ölkənin bütün bölgələrinə qədər genişmiqyaslı şəhərsalma layihələri həyata keçirilir. "Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"nın əsas xüsusiyyətlərindən biri çoxmərkəzli inkişaf modelinin tətbiqidir. Bu modelə əsasən, bütün fəaliyyətlərin bir mərkəzdə cəmlənməsi əvəzinə, Bakı şəhəri boyunca bir-biri ilə əlaqəli mərkəzlər və alt-mərkəzlər şəbəkəsi formalaşdırılır".

Sonra Üzeyir Şəfiyev Qərb tədqiqatçılarının şəhər sosiologiyası istiqamətindəki tədqiqatlarına istinad edərək, sosial sahə mütəxəssislərinin "Şəhərsalma və Memarlıq İli" çərçivəsində həyata keçirə biləcəkləri layihələrlə bağlı təkliflərini səsləndirib. Tədbirin sonunda tələbələri maraqlandıran suallar cavablandırılıb.

# BDU-da "Sağlam təməl, sağlam gələcək" mövzusunda maarifləndirici tədbir

***Martın 4-də BDU-da "Sağlam sabah" layihəsi çərçivəsində Bakı Baş Səhiyyə Mərkəzi və BDU-nun nəzdində fəaliyyət göstərən 5 nömrəli tələbə poliklinikasının birgə təşkilatçılığı ilə "Sağlam təməl, sağlam gələcək" mövzusunda maarifləndirici tədbir keçirilib.***

Tələbə poliklinikasının baş həkimi Sevinc Höccətova belə layihələrin gənclərin maarifləndirilməsi və sağlamlığının qorunmasında önəmli rol oynadığını deyib. BDU-da tələbə poliklinikası ilə birgə keçirilən layihələr haqqında məlumat verib.

Bakı Baş Səhiyyə Mərkəzinin nəzdində fəaliyyət göstərən 2 nömrəli uşaq poliklinikasının həkim-pediatrı Vüsalə Əliyeva, Hövsan Sağlamlıq Mərkəzinin psixoloqu Nərmin Musayeva, 20 nömrəli şəhər poliklinikasının həkim-ginekoloqu Esmira İsmayılova sağlam həyat tərzi, dövri viruslar və aktual xəstəliklərdən söz açıblar. Tələbələrin tədris dövründə diqqət etməli olduqları gigeynik qaydalar və digər məsələlərlə bağlı danışıblar.

Tədbirin davamında gənclərə sağlam həyatın əsas şərtləri, narkomaniya, tütün, alkoqol və digər psixoaktiv maddələr kimi zərərli vərdişlərin mənfi təsirləri, sağlam qidalanma, gənclərin psixi vəziyyəti, zorakılığın növləri, ondan qorunma yolları, özünümüdafiə və qorunma strategiyaları, gənc qızların və oğlanların reproduktiv sağlamlığı və s. kimi mövzulara toxunulub, tələbələri ən çox narahat edən məsələlərə aydınlıq gətirilib.

Qeyd edək ki, paytaxt ərazisində fəaliyyət göstərən ali və orta məktəblərin tələbə-şagird heyətinin cəlb olunduğu "Sağlam sabah" layihəsinin əsas məqsədi gənc və yeniyetmələrə sağlam həyat tərzinin təbliğidir.

# "Zəfər" yatağının geoloji-genetik modeli tədqiq olunur

***Geologiya fakültəsində 27 mart - Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş silsilə tədbirlər çərçivəsində ""Zəfər" yatağının flüid daxilolmaları və geoloji-genetik modeli" mövzusunda elmi seminar keçirilib.***

Seminarda "Azerbaijan International Mining Company Limited" şirkətinin kəşfiyyat işləri üzrə baş geoloqu, Faydalı qazıntılar kafedrasının qiyabi doktorantı Cavid İbrahimov mövzu üzrə məruzə edib.

Məruzəçi Zəfər yatağının geoloji quruluşu, struktur-tektonik xüsusiyyətləri və hidrotermal dəyişmə mərhələlərini kompleks şəkildə təqdim edib. Bildirib ki, yataq Tetis metallogenik qurşağı daxilində formalaşıb və onun təşəkkülü regional geodinamik proseslərlə sıx bağlıdır. Flüid daxilolmalarının mikrotermometrik tədqiqatları nəticəsində homogenləşmə temperatur intervalları və məhlulların duzluluq göstəriciləri müəyyən edilib, əldə olunan parametrlər əsasında filizəmələgəlmə prosesinin fiziki-kimyəvi modeli qurulub. Seminarda mövzu ətrafında geniş müzakirələr aparılıb, iştirakçıların sualları cavablandırılıb. Vurğulanıb ki, təqdim olunan nəticələr regionun porfir-epitermal sistemlərinin genezisi və metallogenik inkişaf perspektivlərinin öyrənilməsi baxımından mühüm elmi və praktik əhəmiyyətə malikdir.

# BDU-da Birinci Türkoloji Qurultaya həsr olunmuş elmi seminar keçirilib

***Martın 4-də Filologiya fakültəsinin təşkilatçılığı ilə 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş tədbirlər çərçivəsində "Birinci Türkoloji qurultayda türk dillərinin tarixi və inkişafı məsələləri" mövzusunda elmi seminar keçirilib.***

Seminarda BDU-nun Türkologiya kafedrasının professoru, filologiya elmləri doktoru Elbrus Əzizov məruzə ilə çıxış edib.

Məruzədə 1926-cı ilin 26 fevral – 6 mart tarixlərində Bakıda keçirilmiş Birinci Türkoloji Qurultayın türk xalqlarının elmi, mədəni və ictimai fikir tarixində tutduğu mühüm mövqedən ətraflı bəhs olunub. Qeyd edilib ki, qurultay yalnız elmi hadisə deyil, türk xalqlarının ortaq mədəni və dil irsinin sistemli şəkildə öyrənilməsi istiqamətində yeni bir mərhələnin başlanğıcı olub.

Elbrus Əzizov çıxışında bildirib ki, qurultayda türk dillərinin tarixi inkişaf mərhələləri, genetik və tipoloji xüsusiyyətləri, qarşılıqlı qohumluq əlaqələri, qədim türk yazılı abidələrinin – xüsusilə Orxon-Yenisey kitabələrinin dilçilik baxımından təhlili əsas müzakirə mövzuları sırasında yer alıb. Bu müzakirələr türkologiyanın metodoloji əsaslarının formalaşmasına mühüm təsir göstərib.

Məruzədə qurultay çərçivəsində əlifba, orfoqrafiya və terminologiya məsələlərinin də geniş şəkildə müzakirə edildiyi diqqətə çatdırılıb. Bildirilib ki, həmin dövrdə türk xalqları üçün vahid və ya uyğunlaşdırılmış əlifba sisteminin yaradılması ideyası elmi baxımdan ciddi əsaslandırılmağa çalışılıb və bu istiqamətdə irəli sürülən fikirlər sonrakı onilliklərdə aparılan islahatlara zəmin yaradıb.

Məruzənin sonunda bildirilib ki, Birinci Türkoloji Qurultayda müzakirə olunan problemlər və irəli sürülən elmi qənaətlər bu gün də türk dillərinin tarixi və inkişafının öyrənilməsi baxımından mühüm əhəmiyyət daşıyır və müasir türkoloji araşdırmalar üçün zəngin elmi mənbə rolunu oynayır.

BDU-nun Azərbaycan dilçiliyi kafedrasının professoru İlhamə Hacıyeva və baş müəllimi Ramil Bayramov çıxışlarında Birinci Türkoloji Qurultayın türk xalqlarının elmi və mədəni həyatında mühüm rola malik olduğunu vurğulayıblar.

# BDU tələbələri Həsən bəy Zərdabi adına Təbiət Tarixi Muzeyində elmi ekskursiyada

***Martın 3-də Ekologiya və torpaqşünaslıq fakültəsinin Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş tədbirlər çərçivəsində Həsən bəy Zərdabi adına Təbiət Tarixi Muzeyinə elmi ekskursiya təşkil olunub.***



Ekskursiyanın məqsədi tələbələrin təbiət elmləri sahəsində nəzəri biliklərini praktiki müşahidələrlə möhkəmləndirmək, biomüxtəliflik, geoloji inkişaf mərhələləri, paleontoloji tapıntılar və ekosistemlərin formalaşması barədə əyani təsəvvür yaratmaq olub. Muzey əməkdaşları tərəfindən iştirakçılara Azərbaycanın flora və faunasını əks etdirən zəngin kolleksiyalar, nadir fosillər, mineral və süxur nümunələri haqqında ətraflı məlumat verilib.

Tələbələr sərgilənən eksponatlarla yaxından tanış olaraq canlı aləmin təkamül mərhələləri, iqlim dəyişmələrinin təbiətə təsiri və təbii sərvətlərin qorunmasının əhəmiyyəti barədə geniş məlumat əldə ediblər. Azərbaycanın müxtəlif coğrafi bölgələrinə aid nümunələr gənclərdə elmi marağın artmasına və tədqiqat istiqamətlərinin formalaşmasına töhfə verib. Ekskursiya interaktiv müzakirələr və sual-cavab sessiyası ilə davam edib, tələbələrin mövzu ilə bağlı fikirləri dinlənilib və elmi baxışlarının genişləndirilməsi istiqamətində tövsiyələr təqdim olunub.

# BDU tələbələri Heydər Əliyev Muzeyini ziyarət ediblər

***Martın 10-da İnformasiya və sənəd menecmenti və Şərqşünaslıq fakültələrinin tələbələri Universitetin Heydər Əliyev Muzeyini ziyarət ediblər.***



Muzeyin müdiri Afət Seyidzadə 1997-ci ildən Ulu Öndər Heydər Əliyevin şəxsi razılığı ilə Universitetdə fəaliyyətə başlayan Muzey haqqında tələbələrə ətraflı məlumat verib. Bildirib ki, Heydər Əliyev Muzeyi Ümummilli Liderin zəngin irsinin təbliği və öyrənilməsində mühüm əhəmiyyətə malikdir.

Muzeyin sol tərəfində BDU-nun dünya şöhrətli məzunu və fəxri doktoru olan böyük şəxsiyyətin həyatının müxtəlif dövrlərini əks etdirən fotoşəkil və sənədlər nümayiş olunur. Monitorda isə "elektron muzey" formatında Ümummilli Liderin həyatı və zəngin fəaliyyətinə dair məlumatlar təqdim edilir. Muzeyin sağ hissəsində isə Ulu Öndərin BDU ilə bağlı fəaliyyəti, Universitetə doğma, əziz münasibətinə dair məlumatlar yer alır.

Qeyd edək ki, Muzey Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar BDU-nun Tədbirlər Planı çərçivəsində 2023-cü ildə ən müasir standartlarla əsaslı şəkildə yenidən qurulub.

# BDU-da "Gənclər üçün şəxsi inkişaf və karyera fürsətləri" adlı məlumat sessiyası keçirilib

***Martın 19-da BDU-da Karyera və məzunlarla iş Mərkəzinin və Gənclərin İnkişaf və Karyera Mərkəzinin (GİKM) birgə təşkilatçılığı ilə "Gənclər üçün şəxsi inkişaf və karyera fürsətləri" adlı məlumat sessiyası keçirilib. Tədbirin əsas məqsədi gənclərin şəxsi inkişaf imkanları, karyera planlaşdırılması və əmək bazarında uğur qazanmaq üçün vacib bacarıqlar barədə məlumatlandırılması olub.***

BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin Karyera planlaşdırılması şöbəsinin müdiri Günel Qurbanova Mərkəzin tələbə və məzunların peşəkar inkişafına dəstək məqsədilə həyata keçirdiyi layihələr, maarifləndirici tədbirlər, seminar və "workshop"lar, peşəkar bacarıqların inkişafına xidmət edən təlim proqramları haqqında ətraflı məlumat verib.

Təqdimat zamanı tələbə və məzunların əmək bazarına daha hazırlıqlı daxil olmaları üçün işəgötürənlərlə əməkdaşlıq çərçivəsində təşkil olunan görüşlər, təcrübə proqramları və karyera məsləhət xidmətləri xüsusi vurğulanıb.

GİKM-in Layihələrin və proqramların idarəedilməsi şöbəsinin müdiri Jalə Həsənova Mərkəzin fəaliyyəti, məqsədləri və gənclər üçün yaratdığı imkanlarla iştirakçıları tanış edib. Qeyd olunub ki, GİKM-in 11 regional nümayəndəliyi və 44 bölməsi tərəfindən gənclərin şəxsi inkişafını, karyera quruculuğunu və ictimai fəallığını dəstəkləmək məqsədilə müxtəlif təlimlər, seminarlar, təcrübə proqramları, forum və layihələr həyata keçirilir. Bu fəaliyyətlər gənclərin əlavə bilik və bacarıqlar qazanmasına, peşəkarlarla əlaqələr qurmasına və karyera seçimində düzgün istiqamətləndirilməsinə geniş imkanlar yaradır. Tədbirdə Azərbaycan Respublikasının Gənclər Fondunun fəaliyyəti barədə məlumat verilib, fondun təqdim etdiyi layihə və qrant imkanları gənclərin diqqətinə çatdırılıb.

GİKM-in Layihələrin və proqramların idarəedilməsi şöbəsinin baş mütəxəssisi Ramilə Eloğlu gənclər üçün hazırlanmış "Şəxsi İnkişaf Kitabçası"nı təqdim edib. Bildirilib ki, kitabçada gənclərin özünü tanıması, karyera planlaması aparması, əmək bazarına hazırlıqlı olması və şəxsi bacarıqlarının inkişaf etdirilməsi ilə bağlı faydalı məlumatlar yer alır. Sonda tələbələrin sualları cavablandırılıb, karyera planlaşdırılması ilə bağlı praktik tövsiyələr verilib.

# İstisna...



*Mənəm xoşbəxtliyin qanadlarında,*
*Tanrının sevdiyi kəlamlarında.*
*Məndə ürək dolu həyat eşqi var,*
*Vətənə məhəbbət, sevgi eşqi var.*

*Mənəm kainatın gözəl qadını!*
*Tanrının qazanan böyük haqqını.*
*Mənəm insanlığın görünən üzü,*
*Haqqın, ədalətin özüyəm, özü.*

***İradə Dadaşova***
Tətbiqi riyaziyyat və kibernetika fakültəsi,
İnformatika kafedrasının dosenti

# BDU-da "Planetlərin paradı"nın astronomik müşahidəsi keçirilib

***Martın 4-də BDU-da "Planetlərin paradı"nın astronomik müşahidəsi keçirilib.***

Müşahidə tədbiri BDU-nun Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinin önündə "Celestron - Schmidt Cassegrain" teleskopu vasitəsilə aparılıb.

"Planetlərin paradı"nda 6 planet iştirak edib. Bu fenomenal təbiət hadisəsi zamanı planetlər Yer səmasında bir düz xətt üzrə sıralanıb. Günəşdən sıralanma ardıcıllığı aşağıdakı kimi olub: Merkuri, Venera, Neptun, Saturn, Uran və Yupiter.

"Planetlərin böyük paradı"nı Günəş batdıqdan dərhal sonra - təxminən bir saatlıq müddət ərzində izləmək mümkün olub.

# Hüquq fakültəsinin tələbələri beynəlxalq məhkəmə müsabiqəsində iştirak ediblər

***Martın 11-də Hüquq fakültəsinin IV kurs tələbələri – Kamil Abdullazadə, Nəzrin Sadıqova, Fatimə Məmmədova və Fazil Vəlizadə Yunanıstanın paytaxtı Afina şəhərində keçirilən "Helga Pedersen Moot Court Competition" beynəlxalq məhkəmə müsabiqəsində iştirak ediblər.***

Müxtəlif ölkələrdən Hüquq fakültələri tələbələrini bir araya gətirən müsabiqə insan hüquqları sahəsində Avropanın ən nüfuzlu tələbə məhkəmə simulyasiya yarışlarından biri hesab olunur.

Tədbir çərçivəsində iştirakçılar üçün akademik proqram və rəsmi açılış mərasimi keçirilib. Akademik proqram zamanı tələbələr insan hüquqlarının aktual məsələlərinə həsr olunmuş müzakirələrdə və ekspert çıxışlarında iştirak ediblər.

Müsabiqənin əsas mərhələlərində – şifahi çıxışlarda (oral pleadings) komandalar insan hüquqları ilə bağlı hipotetik məhkəmə işi üzrə tərəflərin mövqelərini müdafiə edərək hüquqi arqumentlərini təqdim ediblər.

Hüquq fakültəsinin komandası çıxışlarını Afina Apelyasiya Məhkəməsində keçirib və beynəlxalq münsiflər heyəti qarşısında öz hüquqi mövqelərini müdafiə ediblər.

Müsabiqədə iştirak edən tələbələrə sertifikatlar təqdim edilib.

# BDU-da "Şəhərsalma və Memarlıq İli"nə həsr olunmuş çiçəkəkmə aksiyası

*Martın 18-də BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə "Şəhərsalma və Memarlıq İli"nə həsr olunmuş çiçəkəkmə aksiyası keçirilib.*

Çiçəkəkmə aksiyasında THİK-in fəal üzvləri və fakültələrin tələbələri iştirak ediblər.

Aksiyanın məqsədi ətraf mühitin qorunmasına kömək etmək, ekoloji tərbiyəni gücləndirmək və təbiətə töhfə ver məkdir.



# BDU-nun Psixoloji yardım sektoru pedaqoji heyət və tələbələr üçün seminar təşkil edib

*Martın 13-də BDU-nun Psixoloji yardım sektoru pedaqoji heyət və tələbələr üçün "Həyatımızı təyin edən seçimlər – ekzistensial psixologiyada insanın sərhədləri" mövzusunda seminar keçirib.*

Seminarda psixoloqlar Natəvan Həsənzadə və Adəm Paşayev qeyd ediblər ki, ekzistensial psixologiya insanın həyatının mənasını, azadlığını, məsuliyyətini, ölüm qorxusunu və tənhalıq kimi fundamental mövzuları araşdıran psixologiya cərəyanıdır. Onlar ekzistensial psixologiya çərçivəsində insanın həyatında seçimlərin rolu, fərdi məsuliyyət və azadlıq anlayışları barədə geniş məlumat veriblər. Bildiriblər ki, insanın həyatın müxtəlif mərhələlərində qarşılaşdığı seçimlər onun həyat yolunu və şəxsiyyət kimi formalaşmasını müəyyən edən əsas amillərdən biridir. Bir çox hallarda insanlar həyatlarında baş verən hadisələrə görə özlərini qurban və ya məhkum edilmiş kimi hiss edir, qərar qəbul etməkdə çətinlik çəkir və məsuliyyəti xarici amillərin üzərinə yönəldirlər. Lakin ekzistensial yanaşmaya görə, insan azad seçim imkanına malikdir və bu azadlıq eyni zamanda məsuliyyət hissini də özü ilə gətirir. Bu baxımdan seçim yalnız istədiyini etmək deyil, insanın öz düşüncə və davranışlarının nəticələrini qəbul etməsi və həyatında müəyyən istiqamət seçməsi deməkdir.

Seminarda iştirakçılarla birlikdə insanların qərarvermə prosesinə təsir edən gizli psixoloji müdafiə mexanizmləri, daxili qorxular və bəzən insanın özünə belə etiraf etmədiyi düşüncələr barədə müzakirələr aparılıb. Psixoloqlar qeyd ediblər ki, bu mexanizmləri dərk və analiz etmək insanın özünü daha yaxşı tanımasına, həyatındakı seçimləri daha şüurlu şəkildə etməsinə kömək edir.

Seminar interaktiv formada təşkil edildiyindən iştirakçılar mövzu ətrafında fikir mübadiləsi aparıb, müxtəlif situasiyalar üzərində müzakirələr ediblər.

Tədbirin sonunda mövzunun daha dərindən düşünülməsi və şəxsi həyatla əlaqələndirilməsi məqsədilə tələbələrə psixoloji praktik tapşırıqlar təqdim edilib, onların sualları cavablandırılıb.

# BDU-nun "Tələbə evi"ndə Beynəlxalq Qadınlar Günü qeyd olunub



*Martın 8-də Bakı Dövlət Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə "Tələbə evi"ndə 8 mart – Beynəlxalq Qadınlar Günü qeyd olunub.*

BDU-nun rektoru Elçin Babayev xanım tələbələri bayram münasibətilə təbrik edib, təhsillərində uğurlar arzulayıb. Ziyarət zamanı "Tələbə evi"ndə yaşayan xanım tələbələrə bayram münasibətilə gül dəstələri təqdim olunub. Tələbələr üçün çay süfrəsi təşkil edilib.

# BDU tələbələri mediasiya prosesi barədə məlumatlandırılıb

*Sosial elmlər və psixologiya kafedrasının Sosial iş kafedrasının təşkilatçılığı ilə Bakı 3 saylı mediasiya təşkilatının mediatorları - Balaca Cəfərov, Cəlal Hüseynov və Bulud Yusifovun ustad dərsi keçirilib.*

Ustad dərsində mediasiya prosesində sosial işçilərin verə biləcəyi töhfələr, mediasiya institutunun formalaşması, mediasiya haqqında qanunvericilik və mübahisəli məsələlərin tənzimlənməsində mediasiyanın rolu ilə bağlı geniş müzakirələr aparılıb. Tədbir zamanı mediatorlar mediasiya sisteminin yaranma zərurətindən bəhs edərək bu sahədə dünya təcrübəsi, Azərbaycanda "Mediasiya haqqında" qanunun qəbulunun mediasiya institutunun formalaşmasında rolu, həmçinin Mediasiya Şurasının ölkəmizdə həyata keçirdiyi fəaliyyət və əldə olunan uğur hekayələri haqqında ətraflı məlumat veriblər.

# BDU-da İlaxır çərşənbə qeyd olunub



*Martın 17-də Bakı Dövlət Universitetində İlaxır çərşənbə qeyd olunub.*

BDU-nun rektoru Elçin Babayev tələbələrlə birgə Universitetin həyətində Novruz tonqalına od vurub.

Tələbələr milli musiqi sədaları altında bayram tonqalı ətrafında yallı gediblər. Bayram şənliyi BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin hazırladığı konsert proqramı ilə davam edib.




# BDU-nun "Tələbə evi"ndə İlaxır çərşənbə



*Martın 17-də Bakı Dövlət Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə BDU-nun "Tələbə evi"ndə İlaxır çərşənbə qeyd olunub.*

BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev tələbələrə təbriklərini çatdırıb.

Bayram tonqalı qalanandan sonra tələbələr üçün çay süfrəsi təşkil edilib.

**Buraxılışa məsul:**
Afaq Sadıqova

**Redaksiya heyəti:**
Əliş Ağamirzəyev
Vüqar Əliyev
Cahangir Məmmədli
Qulu Məhərrəmli
Xatirə Hüseynova
Samir Mirzəyev
Günel Orucəliyeva

**Dizayn - tərtibat:**
Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.
**Çapa imzalanıb:**
31.03.2026
**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:**
(+994 12) 538 42 08